# MƏAD

## ölümdən sonrakı həyat

*Ayətullahil-uzma*
*Məkarim Şirazi*

# Məad

## ölümdən sonrakı həyat

**Müəllif:**
**Ayətullah Əl-Uzma Məkarim Şirazi**

**Tərcümə edən / Əli Nur**

*Azərbaycan Respublikası Dini Qurumlar İş Üzrə Dövlət Komitəsi* ***DK 596/Q*** *saylı 12 oktyabr 2010-cu il tarixli məktubu ilə kitabın çap olunmasına və idxalına razılıq verilmişdir.*



***BİSMİLLAHİR RƏHMANİR RƏHİM***

## Müqəddimə

# Məbdə və məada inam

*Bu iki əsas İslamın ən mühüm rüknlərindəndir. Çünki bunlar olmadan heç bir əxlaqi və əməli proqram həyata keçmir və heç bir insan haqq, ədalət və təqva yolunu gedə bilmir.*

*Məbdə məsələsinə etiqad bəsləmək – özünü daima Allahın hüzurunda bilməkdir. Elə bir Allah ki, bütün niyyət və əməllərdən, kiçik və böyüyündən, aşkar və gizlisindən agahdır. O, xətakarların nəzər bucaqlarını görür, münacat edənlərin səsini eşidir. O, qəlbimizdə olan, ya düşüncələrimizdə dolanan hər şeyi bilir.* ***"Allah gözlərin xəyanətini (xain gözləri) və ürəklərin gizlətdiyini biləndir!"***[1]

*O, bizə özümüzdən daha yaxındır, şah damarı-mızdan da yaxındır.* ***"Biz ona şah damarından da yaxınıq!"***[2]

*Heç bir maneə bizi ondan gizlətmir, heç bir za-man və məkanda bizdən uzaq deyil.* ***"Siz harada ol-sanız, O sizinlədir."***[3]

*Məada etiqad bəsləmək – yəni dünya məhkə-mələrinə əsla bənzəməyən böyük bir hesab gününə iman gətirməkdir. Bizim bütün əməllərimiz orada hazır olar.* ***"Onlar (dünyada) etdikləri bütün əməl-lərin (öz qarşılarında) hazır durduğunu görəcək-lər."***[4]

*Əməllərin ən kiçiyinin də, ən böyüyünün də qeydi vardır. "O Bizim heç bir kiçik və böyük günahımızı gözdən qaçırmadan hamısını sayıb yazmışdır"*[5]

*Biz özümüz öz əməl dəftərimizi oxumalı və özümüz özümüzə hakim və qazi olmalıyıq. "Oxu, kitabını (əməl dəftərini). Bu gün sən haqq-hesab çəkməyə özün-özünə kifayətsən!"*[1]

---

[1] *Ğafir surəsi, 19.*

[2] *Qaf surəsi, 16.*

[3] *Hədid surəsi, 4.*

[4] *Kəhf surəsi, 49.*

[5] *Kəhf surəsi, 49.*

*Özümüz özümüzə şahidik, bədənimizin hər bir üzvü də bu məhkəmədə şahid olub əleyhimizə şahidlik edərlər.* ***"Qulaqları, gözləri və diriləri etdikləri əməllər barəsində onların əleyhinə şəhadət verəcəkdir."***[2]

*Nə inkar etməyə yer var, nə geri qayıdıb əskik-ləri düzəltməyə imkan. Nə İlahi cəzanı çəkməyə dözüm var, nə də qaçmağa yol.*

*Yaxşılar və paklar, salehlər və müqərrəblər Allah yanında gözlərin heç görmədiyi, qulaqların eşitmədiyi, heç bir insanın qəlbindən belə keçməyən nemətlərdən bəhrələnərlər. Bir halda ki, zalımlar, fəsad və pis əməllərin sahibləri canlarının içindən sərçeşmə alan alovlar əhatəsində yanar və əriyib gedərlər.* ***"O, Allahın yanar odudur. Elə bir od ki, ürəkləri yandırıb-yaxar."***[3]

*Bəli, əgər bu iki əsas məsələyə, canımızın dərinliklərində müxtəsər şəkildə olsa belə, imanı-mız olsa, bizim tərbiyələnməyimiz və hidayətimiz üçün kifayət edər. Əgər məbdə və məada iman olmasa, heç bir qanun insanı islah edə bilməyəcək.*

*Bu kitab müasir dil ilə, mövzuları kamil surətdə sübüt olunan və bütün təbəqələrin anlaya biləcəyi tərzdə, bütün irad və suallara cavab verəcək halda yuxarıda qeyd olunan iki əsas məsələdən ikincisi – məad barəsindədir.*

*Məad gününün gəlişinə qədər ona etiqad bəsləməklə özümüzü düzəltmək və islahımız yolunda təsirli addım atmaq ümidi ilə...*

***Nasir Məkarim Şirazi.***
***2008.***

---

[1] *İsra surəsi, 14.*

[2] *Fussilət surəsi, 20.*

[3] *Huməzə surəsi, 6.*

# ÖLÜMDƏN SONRAKI ALƏM BARƏDƏ NƏ BİLİRİK?

## 1. Kitabın bəhs edəcəyi məsələlərə baxış

Məad, eləcə də ruhların və bədənlərin hesab məsələsi, həmçinin ölümdən sonrakı aləm mövzusunda əhəmiyyət dərəcəsini nəzərə alaraq, təəssüflər olsun ki, çox az yazılmışdır. Yazılanlar məhdud saydan o tərəfə keçmir. Bir halda ki, hər bir insan ölümdən sonra nə olacağını, həyatın daha geniş anlamda necə davam edəcəyini bilməyə çox möhtacdır. Görəsən ölümdən sonrakı aləmin də şəraiti bu dünyadakı kimidir, yoxsa bu dünyanın necəliyi barədə ana bətnində olan körpənin təsəvvür imkansızlığı kimi biz də axirət aləmi barəsində heç bir təsəvvürə malik deyilik?

Bu surətdə bu yöndə olan səyimiz bizi bir yerə çatdırarmı? Görəsən həqiqətən bizim yaxşı və pis əməllərimiz o aləmdə bizimlə birlikdə olacaq və bizə sevinc, ya işgəncə verəcək? Görəsən heç bir nəfərin də ordan qayıtmadığı halda oranın əhvalından xəbər tuta bilərik?

Ölüm əzab-əziyyətlidirmi? Görəsən ölüm zamanı insan hansı hissləri keçirir? Bədəndən çıxdıqdan sonra ruh yenə qalırmı?

Ruh nədir? Onu elmi-fəlsəfi yolla necə tanıyıb onunla əlaqə yaratmaq olar?

Daima dəyişikliklərə məruz qalan, bəzən hissələrə ayrılıb bir neçə başqa bədənlərin hissəsinə çevrilən bu

bədənimizin yenidən qayıtmasında (cismani məadda) heç bir problem yaranmır?

Məada inam insanın ruhunda və cismində tərbiyəvi, ictimai, fikri və əxlaqi təsir qoya bilərmi?

Hər bir halda ölümdən sonrakı həyatın məsələlərini elmi üsullar və bu kimi əsaslarla isbat etmək olarmı?

Bu və buna bənzər onlarla sual bu kitabın bəhs edəcəyi məsələlərdəndir.

Bu kitabda olan mövzular artıq uzun illər təhqiq və mütaliə olunsa da, deyildiyi kimi bu barədə az bəhs olunduğu üçün burada çatışmamazlıq və nöqsanların olması mümkündür. Buna görə də nəzər və fikir sahiblərindən öz rəy, təhlil və islahatyönlü düşüncələrini müəllifə göndərmələri rica olunur. Hədsiz təşəkkürlə yanaşı bu rəylərdən istifadə olunacağına əmin ola bilərlər.

Lakin bəzi bəhslərin yeni olduğunu nəzərə alaraq möhtərəm oxuculardan kitabı tam oxumamış hər hansı bir mövzunu mühakimə etməmələrini xahiş etməyi lazım bilirəm.

Bunu da diqqətə çatdırmaq lazımdır ki, düşüncələrində "həyat" anlayışı yalnız "çörək və su" olan və insani məktəblərinin ən ali şüarı "hamıya çörək və su!" nidası olan kəslər üçün bu kitabın mövzusu həyat mühitindən kənar məsələlər kimi cilvələnə bilər. Lakin hətta belə bir dar düşüncəyə malik olanlar da görəcəklər ki, ölümdən sonrakı həyata iman müxtəlif cəhətlərdən həmin maddi həyatın rifah və asayişinin təmin olunmasında necə dərin təsir qoyur. Həqiqətdə məada iman olmadan insan nə

ictimai ədalətin icrasına, nə də insani, mənəvi və əxlaqi təkamülün mərhələlərində seyr etməyə qadir ola bilər.

Daha iki məsələni bu müqəddimədə qeyd etməyi lazım bilirəm:

## 2. Yazarın böyük günahı

Allaha həmd olsun ki, İslam əqaidi mövzusunda olan bəhslər səthi formada yazılan "Aləmin Yaradanı" kitabından başlayıb bu kitabla başa çatır. Şübhəsiz ki, hamının başa düşə biləcəyi yeni tərzdə məzhəbi əqidələrin çatdırılması bəzi dəyişikliklərə yol açır.

Bilmirəm bunu özünü tərifləmək kimi başa düşəcəksiniz, yoxsa bir həqiqətin bəyanı, ya bir hədəfə çatmaq kimi, hər halda bunu deməyə məcburuq ki, İslamın mühüm əqidəvi məsələlərini ehtiva edən və aşağıda adları çəkiləcək dörd kitabda yer alan bu silsilə bəhslər bizim mühitdə, xüsusilə təhsil görmüş gənc nəsildə çox dərin təsir qoyub. Həmin kitablar bunlardır: 1. "Aləmin yaradanı" (tovhid əsasları və maddi məktəblərə cavab mövzusunda), 2. "Allahı necə taniyaq?" (İlahi sifətlər və cəbr-ixtiyar mövzusunda), 3. "Böyük rəhbərlər" (peyğəmbərlərin rəhbərliyinin lüzumu, vəhy və bu kımi mövzular), 4. "Quran və sonuncu peyğəmbər" (Quranın ecazı və İslam Peyğəmbəri (s) barəsində).

Bu kitabların çoxlu sayda və ardıcıl çap olunması dediklərimizə aşkar sübutdur. Bundan başqa həm ölkədə, həm də xaricdə bəzi universitetlərdə, elmi-dini yığıncaqlarda bu kitabların dərslik kimi istifadə olunması da buna daha bir dəlildir.

Onlardan bəzisi ərəb, bəzisi urdu dilinə tərcümə olunmuşdur. Hal-hazırda ingilis dilinə tərcümələr də davam edir. Bu müvəffəqiyyətin əsası əslində dörd cəhətə rəayət olunmasıdır: Çətin terminlərdən istifadə etməmək, bəhsin doğruluğu, təəssübkeşlikdən uzaq durmaq və yeniliklər.

Lakin bəzilərinin fikrincə bu silsilədə olan kitabların dəyərini azaldacaq böyük bir eybi vardır. Təəccüb etməyin. Onların nəzərində çətin terminlərdən istifadə etməmək, qaranlıq mənalı cümlələr qurmamaq, çətin mövzuları ümumkütlənin başa düşəcəyi şəkildə demək bu kitabların səviyyəsini "aşağı" salır.

Mən bu "eyib" və "günah"-ı etiraf edirəm. Bilirəm ki, əgər çətin və dolaşıq ifadə və terminlərdən istifadə etmək məqsədilə qələmimi işə salsaydım, bu bəhslər bəzilərinin nəzərində daha elmi səviyyəli görünərdi. Lakin bunu bilə-bilə etmədim. Elə bilirəm ki, bir yazarın bacarığı da elə bundadır.

Cəsarətlə demək olar ki, bu silsilənin hər bəhsini əksər adi oxucuların başa düşməyəcəyi formada qəlizləşdirmək olardı. Həmin oxucular sadəcə deyəcəkdilər ki, bu bəhs çox elmidir, bizim düşüncəmizdən yükcək səthə aiddir.

Lakin hamının istifadə etməklə xeyir əldə edə biləcəyi həqiqətlərin dərkini həqiqəti olmayan xəyali bir stereotipə fəda etmək olarmı? Asan dildə yaza biləcək bir kəsin vicdanı bunu etməyə yol verirmi?

Hər halda mən bu "günaha" adət etmişəm və Allah eləməmiş, bir gün bu adəti tərk etmək istəsəm belə, bacarmaram.

Təəccüblüdür, bir çox universitet səviyyəli, ya digər səviyyələrə aid olan kitablara rast gəlinir ki, heç nə artırıb-əskiltmədən ehtiva etdiyi mətləbləri daha sadə və oxunaqlı halda yazmaq olar, nəticədə həm təhqiq işi ilə məşğul olan tələbələr daha az vaxt sərf etməklə istədiklərini əldə edər, həm də kitab bütün səviyyələrdə olan oxucular üçün faydalı olar.

Başqa bir tərəfdən bütün yazarları asan dildə yaza bilməməklə ittiham edə bilmərik. Buna görə də sadəcə deyə bilərik ki, ola bilər bəziləri bunu etmək istəmirlər, çünki onların fikrincə qəliz ifadələrin azlığı kitabın elmi dəyərini itirir. Onlar belə düşünürlər ki, mətləblərin təbii nizamını pozub, cümlə və ifadələrin yerini dəyişməklə, yad və işlək olmayan sözlərdən istifadə etməklə kitabı daha elmi səviyyəli göstərmək olar. Təəssüf ki, bu məsələ bizim cəmiyyətin dərdlərindən biri olaraq qalır.

### 3. Tarixdə qalmaq istəyi

Tarixdə qeyd olunmaq üçün demək istədiyim başqa bir məsələ də var. Bir gün dostlarımdan biri mənə dedi: Allahı tanımaq barədə ərəb dilindən fars dilinə bir kitab tərcümə edirdim. Kitabın bəzi mətləblərinin mənə tanış gəldiyini hiss etdim. Araşdırdıqdan sonra gördüm ki, qeyd olunan bəhslərin çoxu eynilə sizin yazdığınız "Aləmin Yaradanı" kitabındandır. Məlum oldu ki, kitabın möhtərəm müəllifi həmin mətləbləri mənbə qeyd etmədən "Aləmin Yaradanı" kitabından götürüb ərəb dilində yazıb və nəşr edib. İndi də mən onu yenidən ərəb dilindən tərcümə edirəm.

Mən dedim: Bu kitabın nəşri elmə xidmət olaraq Allahı tanımaq yolunda atılan bir addım olduğuna görə mənim tərəfimdən heç bir maneəsi yoxdur. Lakin tam tərsi olaraq mənim bu mətləbləri mənbə qeyd olunmadan onun kitabından götürdüyüm zənn edilməklə ittiham edilmək ehtimalı olduğuna görə kitabın müqəddiməsində həqiqəti yaz.

Sonralar gördüm ki, təkcə həmin ərəb yazar deyil, bir çoxları ya eynilə, ya da ifadələri dəyişdirməklə bir çox mətləbləri mənbə qeyd etmədən öz kitablarında yazmışlar.

Əslində bu mövzu mühüm deyil, lakin məgər yaxşı olmazmı ki, başqalarının dediyin götürmək yerinə bu yazarlar öz düşüncələrini işə salıb yeni mətləblər barədə işləməklə hər kəs öz düşüncəsi qədər açılmayan mətləbləri açsınlar və başqalarının qələm işlədə bilmədiyi məsələləri araşdırmaqla elmə xidmət etsinlər?!

Hər yazarın başqalarının fikirlərindən istifadə edə bilməsini inkar etmirəm. Amma əgər yeni fikir irəli sürülmürsə, həqiqət budur ki, digərlərinin fikirləri mənbə qeyd olunmaqla yazılmalıdır.

Allah bizim hamımıza onun pak ayinində xidmət etməkdə daha çox güc versin. Bu məqalənin sonunda bir daha təkrar edirəm ki, əgər bu kitabın məsələlərinin təkmilində nəzər sahiblərinin deyə biləcəyi bir məsələ olsa, onu müəllifə göndərmələrini xahiş edirik.

*Nasir Məkarim Şirazi.*

# ÖLÜM HƏYATIN SONUDUR, YOXSA YENİ HƏYATIN BAŞLANMASI?

İnsanlar adətən “indiki” zamanda həyat sürür, təkcə bu gün sahib olduqlarına şad olurlar. Başqa sözlə desək, “bir günlük sərçə” həyatına razı olub yaşayırlar.

“Keçmiş” zamanda yaşayanlar da az deyil. Bu dəstəyə aid olanlar keçmişin şirin və ya acı hadisələrinin qalığı olan “qurumuş cəsədləri” unutqanlıq torpaqlarının altından çıxararaq onları bəyan etməyə çalışırlar. Əslinə onların ömürləri “keçmişlərin qəbirlərini açmaqla” keçir. Həmişə ya keçmişin acı hadisələrinə göz yaşı tökür, ya da keçmişlərin sevincli anları ilə sevincə qərq olurlar.

Bu arada “gələcək” zamanda düşünən və yaşayanların sayı çox azdır. “Öz özündən qaçmaqla” gələcək zamanda baş verəcək hadisələr barədə düşünməkdən çəkinənlər görəsən niyə belə edirlər? Görəsən əksər insanlar yalnız hiss etdikləri ilə yaşadıqları üçün gələcək zamanın hisslərdən uzaq olduğunu düşünərəkmi bundan qaçırlar? Yoxsa gələcəyin üstünü örtən və onu naməlum edən qaranlıq pərdələr onu qorxunc edir? Ona yaxın durmaq vahiməli görünür yoxsa? Bəlkə “gələcək” adlandırdığımız bu dövr qocalıqla, köhnəliklə və nəhayət ölüm və yoxluqla yanaşı anıldığına görə insanlar bütün imkanları ilə ondan qaçırlar?

Lakin istənilən halda bu vəhşətlərə və qaç-qovlara baxmayaraq bizim işimiz gələcək zamanladır, bizim taleyimizin gizli qaldığı zamanla. Keçmiş artıq keçib.

İndiki zaman da gözümüzü yumub açınca keçmişin bir parçası olur. Ortada sadəcə biz qalırıq və gələcək, uzun və sirdolu bir gələcək. Çağırmasaq da bizə doğru gəlir. Belə olan halda niyə onu başa düşməyək, niyə bu barədə düşünməyək?

## Ölüm çox da qorxulu deyil

Dünya əhli bir çox fikirlərdə, düşüncə və məzhəblərdə bir-biri ilə ixtilaf məqamında olsalar da, hardan başlamaqlarından asılı olmayaraq bir nöqtədə gəlib eyniləşirlər. O da ölüm və bu həyatın sonudur.

Həyatın başlanğıc nöqtəsi fəqirlik, ya sərvət, cəhalət, ya elm, kamil xoşbəxtlik, ya əksinə bədbəxtlik olsa da, ölüm vaxtı birdən-birə qəribə bir tərzdə hamı bir səthdə eyniləşirlər. Başqa heç kəsin heç vaxt qura bilmədiyi müsavat və bərabərçilik kamil surətdə bərqərar olur.

Buna görə də ömürlərin uzun, ya qısa olmasında söhbət etmək olur, amma ölüm barədə bu bəhsin və söhbətin yeri yoxdur. Hətta dirilik suyunu da qaranlıqlar aləmindən tapib gətirsək və sonuna qədər içsək də əbədi həyat mümkün deyil. Çünki ömrün uzunluq və miqdarı əbədiyyət məfhumu ilə bir yerə sığmır.

Bunun nəticəsidir ki, təfəkkür tərzində olan fərqlərə baxmayaraq bütün bəşəriyyət ölümün qəti olmasında eyni fikirdədirlər. Bəlkə də elə buna görədir ki, Qurani-Kərimin iki ayəsində ölümə "yəqin" deyilir, bu həqiqətə işarə edilir. Həmin iki ayədən birində deyilir: **"Yəqin (ölüm) gələnə kimi rəbbinə ibadət et."**[1] Digər ayə pis əməl

[1] *Hicr surəsi, ayə 99.*

sahiblərinin dilindən belə deyir: **"Biz yəqin (ölüm) gələnə kimi cəza gününü təkzib etdik."**[1] Ayələrdən göründüyü kimi yaxşılar da, pislər də bu qəti və yəqinlik anında eyni fikirləşirlər.

## Ölüm anında insan nə hiss edir?

Ölüm anında insanın nə hiss edəcəyini heç kəs bilmir. Çünki heç kəs bu yolu keçməyib ki, sonradan başqaları ilə fikirlərini bölüşsün.

Görəsən bu həyatla vidalaşmaq bir dişi çəkdirmək kimi insanı rahatladan və heç bir narahatçılıqdan əsər qalmayan kamil bir rahatlıq halına gəlib çıxmaqdır? Yoxsa dillə deyilməyəcək qədər əzab-əziyyətli bir işgəncə?

Bəlkə fərdlərin ruhiyyə, əxlaq, sifət və əməllərindən asılıdır? Belə ki, bəziləri üçün bir gül qoxumaq qədər yüngül və sadə, bəziləri üçünsə böyük bir dağı daşıyacaq qədər ağır? Bəlkə də ölüm anında bizim şüur və düşüncəmizə sığmayan və bu həyatda bizim dərkimizin qəbul etmədiyi başqa bir hal var. Elə bir hal ki, əgər ölülər bu dünyaya qayıtsalar, hiss etdiklərini şərh edə bilməkdə aciz qalarlar.

Əgər iki əkiz təsəvvür etsək, onlardan biri bu dünyaya gələndən sonra yenidən ana bətninə qayıdıb dünyaya gələrkən nələr müşahidə etdiyini o birinə danışmaq istəsə, bacararmı? Bu, lalın kara öz yuxusunu danışmasına bənzəmirmi?

---

[1] *Muddəssir surəsi, ayə 46-47.*

## Reallıqlardan qaçmaq aqilanə deyil

Acı reallıqlarla mübarizə etməyin ən pis və uğursuz yolu onları dərk etməkdən qaçmaq və unutmağa çalışmaqdır.

Bu, əlbəttə ağılsızlıqdır ki, bizi heç vaxt unutmayan bir reallığı unutmağa çalışaq, yaxud heç vəchlə dəyişilməsi mümkün olmayan bir mətləbin dəyişməsini gözləyək.

Nə üçün ölüm və ondan sonrakı hadisələr barədə, bu həyatla vidalaşandan sonra aqibətimiz və ruhumuz haqqında, eləcə də yüzlərlə başqa məsələlər haqqında düşünməyək axı? Bir halda ki, gələcək həyatımızda baş verəcək hadisələr arasında ən realı və dəyişməz olanı ölümdür.

Tarixi vərəqlədiyimiz zaman görürük ki, bəşərin ən qüdrətliləri, iskəndərlər, çingizxanlar, napoleonlar, eləcə də ən dahi alimlər, ən güclü şair və yazıçılar hamılıqla ölüm qarşısında diz çöküb təslim olublar. Bu halda ölümü unutmağa çalışmağımız, ya ondan qorxmağımız aqilanə olarmı?

İslamın böyük rəhbəri, möminlər ağası Həzrət Əli (ə) buyurur: "Sizdən qafil olmayan bir şeydən necə qafil olub, sizə möhlət verməyən bir şeyə həris ola bilərsiz?"[1]

Yaxşı olar ki, həyatın sonu ilə əlaqədar olan müəmmalara məntiqli və doğru cavab almaq üçün şücaətlə və həqiqəti görmək arzusuyla addım ataq, bu məsələlərin dəqiq təhqiqinə çalışaq.

---

[1] *Nəhğül-bəlağə, xütbə 188.*

## İnsan taleyinin iki müxtəlif mənzərəsi

Ölüm anı görəsən hər şeylə vida zamanıdırmı? Həyat yolunun sonudurmu? Bu cahandan əbədi və mütləq biganəliyin və ayrılığın başlanğıcıdırmı? İnsan bədəninin tərkibi olan maddələrin bölünməsi və təbiət aləminə qayıdışıdır?

Yoxsa yeni doğum və yaradılış anıdır? Dünya bətnindən çıxıb daha geniş və əzəmətli digər bir cahana getməkdir? Qorxunc bir zindanın parçalanıb aradan getməsidir bəlkə?

Kiçik və dar qəfəsdən azad olmaq, geniş və ruhpərvər bir cahana pəncərə açmaq, bu cahanın maddi çətinliklərindən, qəm-kədərindən, işgəncə və düşmənçiliklərindən, yalan və ədalətsizliklərindən, zülm və məzlumiyyətlərindən, dar baxış və fikirlərindən, kin-küdurət və müharibələrindən, eləcə də bu məhdud və dərdli cahanda baş verən və insanın canına və təbiətinə laqeyd olan bütün hadisələrdən uzaq və pak olmaq necədir? Hansı cahan daha yaxşıdır?

Bu iki mənzərənin hansının daha çox həqiqətə, məntiqə uyğun olmasına nəzər salmasaq belə (təbii ki, gələn bəhslərdə bu barədə söhbət açılacaq), görürük ki, birinci cahan qaranlıq, qorxunc və dəhşətli, ikinci isə gözəl, ürəyə yatan və rahatlıq bəxş edəndir.

Ölümün ilk mənzərədəki təsvirində sadəcə bunu demək kifayətdir ki, bu həyatın şərbətini, nə qədər rifah dolu həyat olsa da, insan üçün acı edir. Yaxud bu təsvir yetər ki, ölüm insanı bu dəhşətdən qaçmaq üçün hər şeyi etməyə və hər şərtə tabe olmağa vadar edir. Bir halda ki,

ikinci mənzərədəki ölüm bu həyatın şərbətini ali hədəflər və haqq yolunda şəhadətə çatmaqla daha da şirin və ləzzətli edir, insana bu həyata xatir hər şərtə tabe olmamağı, onu hər qiymətə satmamağı, azad olmağı, iftixarlı ölümdən qorxmamağı tövsiyə edir.

Demək ölüm həmişə dəhşətli və qorxunc olmur, əksinə bəzi hallarda bu həyat ölümdən daha dəhşətli və qorxuncdur.

## Ölümdən niyə qorxuruq?

İki insan tipi təsəvvür edək. Hər ikisi ölümdən qorxur. Biri ölümü mütləq fəna və yoxluq bilib qorxur, digəri isə əməl dəftərinin qara və qaranlığına görə.

Bu iki dəstənin xaricində olanlar görəsən pak hədəflər uğrunda ölməkdən niyə qorxurlar? Nə itirirlər bu ölümlə?

"Dirilik suyu" dastanı hər yerdə məşhurdur. Həmçinin qədim zamanlardan bəşər "cavanlıq iksiri" axtarışında olub, onun adına əfsanələr və dastanlar bağlayıb, ürəklərdə saysız arzu və istəklər cilvələndirib.

Bütün bunlar bir şeydən xəbər verir; insanın ölümdən qorxub həyata davam etmək, yaşayışın sonundan qaçmak eşqindən. Bu, eynilə kimya əfsanəsinə görə adi bir misi sehirli bir kimyəvi maddə ilə qızıla çevirmək istəyinə bənzəyir ki, insanın yoxsulluqdan qorxmasından və çoxlu sərvət toplaması istəyindən xəbər verir.

"Cavanlıq iksiri" əfsanəsi də qocalığın, nəticədə ölümün yaratdığı qorxuya əsaslanır.

İnsanların çoxu "ölüm" sözündən qorxur, onu eşitmək belə istəmirlər. Həmçinin "qəbristan" sözünə nifrət edir, qəbirlərə bəzək-düzək verməklə onun əsl mahiyyətini

unutdurmağa çalışırlar. Hətta insanları təhlükəli yerlərdən uzaqlaşdırmaq üçün (və ya təhlükəli olmasa belə, bir şeyə insanların yaxınlaşmasını istəmədikdə) onun üstünə belə bir lövhə vururlar: "Toxunma, öldürər!" Bu lövhədə adətən insanın kəllə sümüyü və "X" şəklində iki bazu sümüyünün təsviri də olur.

İnsanın ölüm qorxusu müxtəlif dünya ədəbiyyatında da geniş yayılıb, "əcəl seli", "ölüm pəncəsi" və bu kimi onlarla ifadələr hamının iztirab və narahatçılığının nişanəsidir.

Harunər-Rəşidin məşhur yuxu əhvalatı var. O, yuxuda görür ki, bütün dişləri tökülüb.

Yuxu yozanlardan biri deyir: Bu yuxunun mənası budur ki, sənin bütün adamların sənin gözünün qarşında öləcək.

O biri isə deyir: Xəlifənin ömrü bütün tabeçilərindən daha uzun olacaq.

Burada Harunun qərarı yuxarıda dediyimiz həqiqəti bir daha təsdiq edir. Belə ki, ikinci yuxu yozana yüz dinar verir, birinciyə isə yüz taziyanə vurdurur. Əslində hər ikisi yuxunu eyni mənaya yozmuşdular. Lakin xəlifənin adamlarına nisbət verilən "ölüm" ifadəsi bu sözü deyənin yüz taziyanə ilə cəzalanmasına səbəb oldu, onların ölümünü "xəlifənin ömrü daha uzun olacaq" ifadəsilə çatdıran isə yüz dinar qazandı.

Bu həqiqəti təsdiqləyən zərbul-məsəllər, atalar sözləri də çoxdur. Məsələn "torpağı sanı yaşayasan" sözü məşhurdur. Yaxud birini ölmüş bir kəsə bənzətmək istəyəndə deyərlər: "Səndən uzaq, filankəs də beləydi..."

Həmçinin insanlar qəti şəkildə xurafat və əsassız olsa belə, ölümdən uzaqlaşdıran və ömrü uzadan hər şeyə böyük inam göstərir, "daim", "əbədi" ifadələriylə bəzənmiş dualar edib deyirlər: "Ömrün uzun olsun", "kölgən əskilməsin", "mülkün əbədi olsun", "yüz il bu il kimi olsun" və s. Göründüyü kimi bunların hər biri həmin həqiqətin təsdiqinə xidmət edir.

Əlbəttə, bəzi insanların ölümdən qorxmadığını da inkar etmək olmaz. Hətta bəziləri ölümə cəsarətlə qucaq açır və ona tərəf tələsirlər. Amma belə fərdlərin sayı azdır. Bu iddianı edənlərin içində bunu həqiqətən icra edə biləcək kəslər ondan da azdır.

## Bu qorxunun mənbəyi nədir?

Ümumiyyətlə insan yoxluqdan qorxur. Məsələn, yoxsulluqdan qorxur, çünki sərvətin yoxluğudur. Xəstəlikdən qorxur, çünki sağlamlığın yoxluğudur. Qaranlıqdan qorxur, çünki işığın yoxluğudur. Kimsəsiz səhradan, kimsəsiz evdən qorxur, çünki kimsə yoxdur. Hətta ölüdən qorxur, çünki ruhu yoxdur, bir halda ki həmin ölü sağlığında onun üçün qorxulu deyildi.

Deməli insanın ölümdən qorxması onun nəzərində ölümün "mütləq fəna" olmasından irəli gəlir. Əgər insan zəlzələdən, ildırımdan, yırtıcı heyvandan qorxursa, bu onun yoxluq və fəna ehtimalının yaranmasına görədir.

Əlbəttə, fəlsəfi nəzərə görə belə bir ruhiyyə yersiz və əsassız deyil. Çünki insan varlıqdır. Varlıq da varlıqla mütənasıb və aşinadır. Yoxluqla isə heç vəchlə mütənasibliyi yoxdur. Təbii ki, ondan qaçmalıdır. Niyə də qaçmasın?

Lakin burada bir məqam qalır. Bütün bu deyilənlər düzdür, əgər ölüm yoxluq və fəna mənasına təfsir edilərsə. Həqiqətən də belə təfsir olunarsa, bundan dəhşətli və qorxulu nə ola bilər? O zaman ölüm haqqında deyilən qorxunc ifadələrə və deyimlərə də bəraət verərik.

Əgər əksinə, ölümü bir körpənin anadan olduğu kimi ikinci mərhələli bir təvəllüd bilsək və bu çətin keçiddən keçməklə bu cahandan daha böyük, əzəmətli, aramlıq gətirən və nəhayət bu dünyada təsəvvür belə edə bilmədiyimiz nemətlərlə dolu başqa bir cahana addım atmaq kimi anlasaq və əqidə bəsləsək, xülasə olaraq əgər ölümü bu həyatdan daha kamil və ali bilsək, bu surətdə nifrət bəslənilməli və qorxunc olmayacaq. Əslində bu dünya onun yanında ölüm kimi, o cahan isə ürək açan və sevilməli bir həyat kimi görünəcək. Çünki ölüm əgər insandan cismini alırsa, ona ruhlar aləminin sonsuz asimanında təsəvvür həddindən yüksək olan lətafət və gözəlliklə, hər cür qəm-qüssə, münaqişədən uzaq bir səmada uçmaq üçün qanad verir.

Bu təfəkkür tərzinə malik olan bir şair də öz şerində hikmət sahibi olan bir alimə belə deyir:

*Ey həkim, öl bu həyatdan qurtar,*
*Ölməyin qurtuluşundur aşkar.*

*Can quşun ülvi səfərlər edərək,*
*Arzu-istək tələsindən can apar.*

*O cahana səfərindən qorxma,*

*Bu cahandır ki, necə qorxusu var.*

Həmçinin başqa bir şair fəxr və sevinclə öyünərək deyir:

*Hicabi-çöhreyi-canım olub qubari-tənim,*
*Xoş ol zamana ki, ol pərdədən çıxım, ələnim.*

*Deyil rəva bu qəfəs küncü ruhuma əsla,*
*Çıxım uçum o cahana, odur mənim çəmənim.*

Başqa biri deyir:

*Mələkutun quşuyam, aləmi-xakın neyiyəm,*
*Neçə günlük qəfəs olmuş mənə burda bədənim.*

*Gəzirəm bir günü pərvaz eləyim, dost qapısın*
*Pərü balım havasıyla döyüm, olsun vətənim.*

Başqa bir şair isə ölümü özünə tərəf çağıraraq ona meydan oxuyur:

*Cürəti varsa, de gəlsin ölümə,*
*Onu ağuşa alım mən təng-təng.*

*Cavidan bir həyat allam ondan,*
*O da zillət ala məndən rəng-rəng.*

Elə bu məqamda mətləb tamam dəyişir, başqa bir şəkil alır və əvvəlki surətindən əsər-əlamət qalmır. Aydındır ki, ölümü bu cür qəbul edən hər kəs onu mənasız və əsassız hesab etmir, yaxud intihar yolu ilə o aləmə giriş kimi

qəbul etmir, əksinə pak hədəflər yolunda qəhrəmanlıq və fədakarlıqla dolu bir hadisəni qarşılayır, bir neçə günlük ömrə görə zillət və bədbəxtçiliyə boyun əyməkdən insanı azad edən ölümə tərəf üz tutur.

## Ölümdən qorxmanın başqa bir səbəbi

Ölümdən qorxan başqa bir dəstə də var. Onlar ölümü mütləq yoxluq və fəna kimi təfsir etdiklərinə görə qorxmurlar, ondan sonrakı həyatı da inkar etmirlər. Bu dəstənin qorxusu əməl dəftərlərinin qara və qaranlıq olduğuna görədir. Sanki etdiklərinə görə ölümdən sonra çəkəcəkləri dözülməz işgəncələri, əzablı cəzaları burdan görür və ya ən azı buna ehtimal verirlər.

Bu dəstənin də ölümdən qorxmağa haqqı vardır. Bunlar zindanın barmaqlıqları arasından çıxıb dar ağacına tərəf aparılan məhbusa bənzəyirlər. Əlbəttə, zindandan azad olmaq yaxşıdır, amma dar ağacına tərəf yox. Bu dəstənin azadlığı da bədən, ya dünya zindanından dar ağacına tərəfdir, amma edam üçün yox, ondan qat-qat əzablı olan işgəncələri qəbul etmək üçün.

Ölümü fəna və yoxluq bilməyənlər, əməl dəftərləri də qara olmayanlar isə niyə ölümdən qorxmalıdırlar? Pak hədəflər uğrunda ölməkdən niyə çəkinməlidirlər?

# FİTRƏTİN DƏRİNLİKLƏRİNDƏ MƏADA İNAMIN KÖKLƏRİ

Fitri ilhamlar bizə deyir ki, ölüm həyatın sonu deyil. Bu ilhamlar təkcə bizə aid deyil, bütün qövmlər, hətta ilk insanlar belə, indiki tapıntı və araşdırmalara görə, qəribə bir tərzdə ona iman bağlamışlar.

Deyirlər ki, səmanın ənginliklərində kəhkəşanların içindən radio dalğalarına bənzər naməlum dalğalar yayılır və güclü qəbuledicilərə ciddi təsir edir. Heç kəs bu dalğaların haradan sərçeşmə aldığını və nədən xəbər verdiyini bilmir. Günəş sistemindən kənar, Yer əhlindən daha mütərəqqi sivilizasiyalar varmı? Onlardırmı bu dalğalar vasitəsilə xəbər ötürürlər? Yoxsa bunların başqa mənşəyi var? Bilmirik.

Daha da təəccüblü budur ki, vücudumuzun dərinliklərindən, canımızın içindən də daimi olaraq mənşəyini bilmədiyimiz sirli xəbərlər bizə çatır. Çarəsiz qalıb ona "fitrət" adını qoyuruq. Təkcə bunu bilirik ki, bizə müxtəlif ilhamlar olunur. Həmin ilhamlar iki yolayrıcında həmişə bizə əsas yolu göstərir. Təkcə bunu bilirik ki, bu ilhamlar sirli şəkildə bizim daxilimizdən coşur.

Məsələn, yanımızda, ya dünyanın bir yerində qəflətən bir hadisə baş verir. Daxilimizdə olan həmin sirli qüvvə o zaman bizi informasiya almağa sövq edir. Bu hadisənin bizimlə nə əlaqəsi olduğunu bilmədən, bu istəyin haradan

yarandığını düşünmədən enerjimizi sərf edib bir xəbər öyrənməyə çalışırıq və nəticə almadan sakit olmuruq.

Bu hal həyatımızın ilk anlarından ömrümüzün sonuna kimi bizimlə var. Görürük ki, bu hissin adını "aramaq hissi" qoyub fitrətin bir hissəsi olduğunu deyirlər.

Buna bənzər fitri ilham və qərizələr çoxdur. Lakin heç kim bunlar barədə söylədiklərimizdən daha çox məlumat verə bilmir. Eyni zamanda onların mövcud olmasında, bizim təkvini hidayətimizdə hansı rola malik olmasında da heç bir şübhə yoxdur.

Ölümdən sonrakı həyata iman gətirmək də həmin fitri ilhamlardandır. Buna tarixi sübutlarımız da vardır. Bəşərin tarix boyu, ilk insanların dövründə də ölümdən sonrakı həyata iman gətirmələri barədə çoxlu sübutlar əldə olunub. Qədim insanların qəbir düzəltmə tərzləri, ölülərlə qəbrə bəzi əşyaların qoyulması və s. (bu barədə geniş məlumat veriləcək) insanın ölümdən sonrakı həyata inanmasının fitri məsələ olduğunu qəbul etməsini göstərir. Çünki bütün tarix boyu, hətta indiyə kimi bu məsələ öz hökmünü saxlamışsa, bunun fitri bir məsələ kimi qəbul olunmamasına inanmaq olmur. Bəşərdən əsla ayrılmayan bu cür köklü məsələlərin mütləq fitri bir əsası vardır, buna görə də həmişəyaşar hesab olunurlar.

Məşhur sosioloq Samuel King deyir: "Qazıntılar nəticəsində məlum olub ki, bəşərin sələflərinin bəzi inancları olub. Onlar ölülərini xüsusi bir tərzdə torpağa tapşırır, əmək alətlərini qəbirdə yanlarına qoyurlar.

Bununla da başqa bir aləmin varlığına olan əqidələrini isbat etmiş olurlar."[1]

Bilirik ki, neandertal insanlar on min illər bundan əvvəl yaşamışlar. O zaman nə yazı vardı, nə də tarixi qeydlər. Əlbəttə, ölümdən sonrakı həyatda bu dünyada istifadə olan alətlər heç bir şeyə gərək deyil. Məqsəd budur ki, onların bu işi məada olan inamlarına sübutdur.

Nisbətən sonrakı dövrlər. İlk xətt nümunələri meydana gəlir. Bu dövrdə insan öz başına gələnləri yazıb bir tarix kimi saxlamaq qüdrətində olur. Burada hər şeydən öncə Misir əhli yada düşür. Məşhur tarixçi Albemarl deyir: "Əlimizdə olan dünya millətlərinin tarixləri arasında ən qədim olan Misir tarixidir. Çünki burada beş min il bundan qabaq baş vermiş hadisələr görünməkdədir."[2]

Misirlilərin qədim tarixi göstərir ki, camaatın ölümdən sonrakı həyata möhkəm əqidələri olmuş, başqa millətlər kimi xurafatlarla dolu olmasına baxmayaraq, bu yöndə çoxlu adət-ənənələr yaşatmışlar.

Adı çəkilən tarixçinin bu məqamda qeyd olunması faydalı olan bəzi sözləri vardır.

O yazır: "Misir camaatının əqidəsi bu idi ki, ölünün ruhu qəbirdən çıxıb böyük tanrıları Azirisin hüzuruna gedir. Onu tanrının qarşısına gətirdikdə qəlbini həqiqət mizanında ölçürlər. Ruhu hesabdan pak çıxanları bərəkəti təsəvvür həddindən uca olan bağlara aparardılar.

Onlar o dünyaya getmək və yol göstərmək üçün ölünün yanına məktub qoyardılar. Bu məktubda çox

---

[1] *S. Kingin sosiologiyası, cild 1, səhifə 291.*

[2] *Şərq millətləri tarixi, cild 1, səhifə 15.*

qəribə və maraqlı cümlələr vardır. Belə ki, ölü onları tanrının hüzurunda deməli və pak olmalıdır. Məktubda yazılırdı:

Ey ali məqam, ey ədalət və düzlük tərəfdarı olan tanrı, sən böyüksən. Mən insanlar qarşısında dəyişməmişəm, dul qadınları incitməmişəm, məhkəmədə yalan deməmışəm, hiyləyə əl atmamışam, fəhləni gücü çatmadığı işə məcbur etməmişəm, vəzifəmi yerinə yetirərkən süstlük etməmişəm, tənbəl olmamışam, müqəddəslərə hörmətsizlik etməmişəm, bir qula ağasının yanında töhmət vurmamışam, birinin çörəyini kəsməmişəm, birini ağlar qoymamışam, adam öldürməmişəm, ölülərin azuqələrini oğurlamamışam, heç kəsin yerini qəsb etməmişəm, südəmərin ağzından südünü almamışam, bir arxın suyunun qarşısını tutmamışam. Mən pakam, pak!

Ey qazilər! Bu gün hesab günüdür. Bu mərhuma özünüzə tərəf yol verin. Ona günah tozu qonmayıb, yalan danışmayıb. Pisliyin nə olduğunu bilmir. Həyatında, dolanışığında insaf həddini keçməyib. İşləri camaatın və tanrıların (mələklərin) razılığına səbəb olub. O, tanrı yolunda acları doyurmuş, ölülərə qida vermişdir. Ağızı pakdır, hər iki əli də pak!"

Müəllif bunları qeyd etdikdən sonra yazır: "Bu cümlələrdən rahatlıqla başa düşmək olur ki, Misir camaatı böyük günahları, yaxşı işləri, bəyənilmiş əməlləri çox yaxşı tanıyırdılar."[1]

---

[1] *Şərq millətləri tarixi, cild 1, səhifə 47-48.*

Qəti şəkildə demək olar ki, onların bu "həyat prinsıpi"ndən məqsədləri bizim bu gün tətbiq etdiklərimiz deyil. Çünki o zamanın insanlarının bu yolları kəşf etmələri uzaq görünür. Hər bir halda tarix bizə deyir ki, Misir sivilizasiyası ilə eyni zamanda, ya ondan sonra yaranmış kəldanilər, aşurilər, yunanlar, iranlılar kimi müxtəlif sivilizasiyalarda da ölümdən sonrakı həyata etiqad bəsləmək xüsusi bir mövqeyə malikdir. Bunu nəzərə alaraq dünyanın böyük dini məzhəblərində də bu əqidənin olması açıq-aydın görünür ki, bundan artıq şərh etməyə lüzum yoxdur. Yeri gəldikcə onlardan bəzi nümunələri qeyd edəcəyik.

Burada sizin diqqətinizi "Ruhud-dinil-islami" əsərinin müəllifi, məşhur islam aliminin 1975-ci ildə "The Riders Digest" jurnalında N. Vincent Billdən nəql etdiyi maraqlı bir sitata yönəltmək istəyirik. O, deyir: "Həqiqət budur ki, ölümdən sonra başqa bir aləmə meyillilik hissi bu məsələnin ən möhkəm dəlillərindən biridir. Çünki Allah insanı bir həqiqətlə tanış etmək istəyərkən onun toxumunu insanın qərizə və fitrətində əkir. Başqa bir aləmdə əbədi həyata əqidə bəsləmək bütün insanların daxilində olan kiçik sayılmayacaq dərəcədə ümumi bir hissdir. Sözsüz ki, bu sürətlə istiqamət aldığımız tərəf vücudumuzun daxilində olan bir kök və əsasdan yaranan əksul-əməl və nəticədir. Biz bu cür həqiqətlərə maddi dəlilər əsasında iman gətirmirik, əksinə bu, daxili dərk və ilham yolu ilədir. İlham həmişə həqiqətləri dərk etmək üçün ayrı-ayrılıqda mühüm bir amil hesab olunur.

Berguson deyir: Alimlər sübuta ehtiyacı olan elmi bir həqiqətə yetişdikləri zaman ani surətdə ilham gəlməsi ilə həmin həqiqəti dərk edirlər."[1]

Ölümdən sonrakı həyata əqidə bəsləmək də həmin fitri ilhamlardandır.

## İnhiraflar (azğınlıqlar)

Ölümdən sonrakı həyatın müəmmalarını kəşf etməkdə fitri ilhamlar insanın köməyinə çatsa da, düzgün kontrol olunmadıqda qəribə xurafatlara yol açır. Məsələn, Afrikada, Meksikada kahinlər gözəl qızları padşahların ölmüş cəsədləri ilə birlikdə diri-diri basdırırdılar.

Təxminən altı min il bundan əvvəl dünya bu günlə mqayisədə çox fərqli idi. O zamanlar indiki kimi filiz alətlər yox idi, insanlar daş, taxta, heyvanların sümük və dərilərindən istifadə etməklə özlərinə həyat qururdular. Bu halda yaşamaq sözsüz ki, çətindir. Lakin buna baxmayaraq dünya bu günkündən daha sakit idi. Nə böyük maşınların səs-küyü, nə bombaların partlayışı, nə də təyyarələrin uğultusu eşidilirdi. Həyat ölüm kimi sonsuz dərəcədə sadə və bəzəksiz idi. Həqiqətdə bilmirik ki, o zamanın insanı ölüm və həyat barədə nə hisslər keçirirdi. Əgər yazmağı bacarsaydı, bu günkü nəsilləri üçün keçirdiyi hissləri yazıb qoyardı. Amma təəssüf ki, o zaman hələ yazı ixtira olunmamışdı və nəticədə bu, baş vermədi. Bu, baş verməsə də o zamanın insanlarının həyatını bizim üçün kəşf edən dəyərli xəzinələr bu günümüzə gəlib çatdı. Ötən bəhsdə dediyimiz kimi bu

---

[1] *Ruhud-dinil-İslami, səhifə 116.*

əsərlər, xüsusilə ölülər üçün hazırlanan qəbirlərin vəziyyəti məada əqidələrinin olmasından irəli gəlirdi. Ölünün yanına qoyulan alətlər bunu açıq göstərirdi. Onlar bunu etməklə belə güman edirdilər ki, ölmüş insan diriləndən sonra həmin alətlərdən istifadə edə biləcəklər.

Yazı və filizin kəşf olunduğu sonrakı dövrlərdə isə insanın məada inamının olmasında heç bir şübhə yoxdur. Bu, bütün millətlərin tarixində sabit bir həqiqətdir.

Deyildiyi kimi bütün bunlar bu əqidənin insanın fitrəti və varlığı ilə vəhdətindən xəbər verir.

## Fitrətdən dönüş və azğınlıq

Fitri ilhamlar müstəqil bir meyl olmaqla insanı cisminin və ruhunun ehtiyac duyduğu müxtəlif məsələlərin ardınca getməyə vadar edir. Əgər bu fitri ilhamlar olmasaydı və hər şeyi biz öz ağıl və təcrübəmizlə kəşf etməli olsaydıq, bu iş bizim üçün çox çətin olardı. Bu iki dəzgahın (fitri ilhamlar və əqli-təcrübi kəşflərin) harmoniyası insanın sivilizasiya və təkamül yolunda bu qədər sürətlə irəliləməsinə səbəb olmuşdur.

Lakin unutmaq olmaz ki, bu fitri ilhamlardan düzgün nəticə almaq insanın zehni bacarığına və təfəkkür tərzinə bağlıdır. Yəni əgər bəziləri elm və təfəkkür baxımından zəif və gücsüz olsalar, onların fitri ilhamları tənəzzülə uğramış və naqis, bəzən də darmadağın olaraq özünü göstərəcək.

Başqa sözlə desək, fitri ilhamlar elm suyu ilə suvarılmalıdır ki, diri və dəyərli məhsula malik olsun. Əks təqdirdə xurafat və mövhumatlarla dolu olacaq. Hətta bəzən əks nəticə verməsi də mümkündür. Buna aydın

misal da çəkmək olar: Cinsi qərizələr nəslin qorunması üçün olan fitri və təbii bir ilham növüdür. Bu hiss insanı nəslin artımı üçün toparlayır. Amma əgər alçaq düşüncələrlə qarışarsa, nəslin kəsilməsinə səbəb olan əxlaqsızlıqla nəticələnəcək və məqsədin tam əksi baş verəcək.

Digər bir tərəfdən bütün dünya millətləri cinsi hərc-mərcliyin onların nəsli üçün təhlükə yaratmaması və ictimai nizamın pozulmaması məqsədilə cinsi münasibətləri tənzimləyən evlənmə və ailə qanunları tətbiq edirlər. Lakin bu qanunlar nadanlıqla və uzaqgörənlik olmadan qarışıq və ağır şərtlərlə cəmiyyətə təqdim olunursa, o zaman insanların evlənməsinə mane olacaq və ya əxlaqsızlığa şərait yaradacaq ki, bunların hər ikisi nəsli qorumaq məsələsinə ziyan vurur. Deməli, cinsi qərizələri səhv yöndə kontrol etmək nəslin qorunmasında əks nəticə verəcək.

Ruhi ehtiyaclarda və ona aid olan ilhamlarda da məsələ eynilə belədir. Məsələn, biri fitri ilhama uyğun olaraq varlıq aləminin yaradanını axtarır. Lakin bəzən nadanlıq onu təşbih (bənzətmə) və qiyas (müqayisə) cəngəlliyinə düçar edir. Çünki dayaz düşüncəlilərin həmişəki adəti hər şeyi özünün mehvəri bilmək və hər şeyi özü ilə müqayisə etmək və ya bənzətməkdən ibarətdir.

Bu bənzətmə və müqayisənin ardlndan iş o yerə çatır ki, həqiqi tanrıdan başqa hər şeyə ibadət edirlər. Məşhur tarixçi V. Dorantın dediyi kimi də demək olar: "Misir böcəyindən tutmuş Hindistan filinə kimi bütün

heyvanlara yer üzünün hansısa bir guşəsində nə vaxtsa tanrı ünvanı ilə pərəstiş olunub."[1]

Daha təəccüblüsü budur ki, yaponların özlərinin etiraf etdiklərinə əsasən, orada vaxtılə müqəddəs hesab olunan qadın və kişi cinsiyyət orqanları şəklində kiçikli-böyüklü bütlər var imiş.

Ölümdən sonrakı həyata aqilanə surətdə baxmağa şərait yaradan fitri ilhamın insanın köməyinə tələsdiyi məad və cəza günü məsələsində də bu müşküllər meydana çıxmışdır. Çünki bu ilhamın dayaz düşüncəli insanların əyri-dolay təfəkkürlərindən keçməsi azğınlıqlara və inhiraflara səbəb olmuş və bu məsələdə olan etiqadı alt-üst etmişdir.

Elə o bənzətmə və müqayisələr bəşərin məad məsələsində inanılmaz və qəribə xurafatlara düçar olmasına səbəb olmuşdur. O aləmin hər cəhətdən bu dünya ilə eyni olduğunu güman etdiklərinə görə qədim insanlar burada ehtiyac duyulan bütün alət və ləvazimatları ölü ilə birlikdə qəbrə göndərirdilər.

## Təəssüf doğuran məzhəkəli xurafatlar

Tarix boyu bu xurafi təfəkkür tərzləri bəzən təəssüf doğuran və bəzən gülməli olan adətlər yaratmışdır. Məsələn, Konqo əhli arasında belə bir adət vardı: Qəbilə başçıları ölən zaman on iki qızı diri-diri onun ölüsüylə birlikdə dəfn edirdilər ki, onun oradakı qəm-qüssəsini aparsınlar.

Yaxud bəzi meksikalılar qəbilə başçısı ilə birlikdə təlxək dəfn edirdilər ki, onu orada əyləndirsin.

---

[1] *V. Dorantın tarixi, cild 1, səhifə 93.*

Bəzən böyükləri ilə birlikdə bir kahini diri-diri dəfn edirdilər ki, o aləmdə onun ruhani müşaviri olsun.

Bəzi qövmlər ölülərin libaslarını onunla dəfn etməyərək bir ağacdan (asılqan əvəzi) asardılar ki, ölülər həyata qayıtdıqda çılpaq qalmaqdan narahat olmamaq üçün onları geyinsinlər.

Qədim misirlilərin ölüləri mumyalaması da ruh qayıtdıqdan sonra həmin bədəndən istifadə edəcəyi fəlsəfəsindən yaranırdı.

Ölüləri mumyalamaq bədəni çürüməkdən qorumağa görə idi. Belə ki, ölünün bədənini xüsusi kimyəvi vasitələrlə qurudur, sonra onu yüz metrlərlə uzunluğu olan kətan parçaya bükürdülər. Onu xüsusi tabuta qoyub dəfn edirdilər. Bəzən bir tabutu digər daha böyük tabuta qoymaqla bir neçə qatdan ibarət tabutlar silsiləsi yaradır və ən üstdəki tabutun üstündə maraqlı şəkillər və naxışlar çəkirdilər. Bir cəsədi mumyalamaq bəzən yetmiş gün çəkirdi.

Mumyalamaq adəti misirlilərə məxsus deyildi, lakin onlar bu işdə daha mahir idilər. Bu gün də bir çox dünya muzeylərində misirlilərin mumyaladıqları insan bədənləri mövcuddur. Uzun zaman keçməsinə baxmayaraq həmin cəsədlər olduğu kimi qalmaqdadır.

Misir əhli məqbərənin divarlarını ölmüş şəxsin gündəlik həyatını dəqiq təsvir edən rəsmlərlə bəzəyərdilər. Məsələn, şəkillərdə onun işçiləri çörək bişirir, şərab süzür, heyvan kəsir, çaydan balıq tutur, süd sağırlar və s.[1]

---

[1] *Şərq millətləri tarixi, cild 1, səhifə 46.*

Sanki bu təsvirləri yaratmaqla keçmiş xatirələri canlandırmaq və ölülərin ruhunu şad etmək istəyirdilər.

Bunlar göstərir ki, bu əqidədə olan insanlar o aləmə köçməyi bir yerdən başqa bir yerə səfər etmək kimi anlayır və ona uyğun hazırlıqlar görürdülər.

Həqiqət budur ki, bu cür addım atmaq eynilə buna bənzəyir: Bu dünyaya gəlmək lüzumunu bilən ana bətnindəki bir uşaq bu dünyaya gələndən sonra aclıq ehtiyacını dərk edərək özü ilə ana bətnindən bir qədər qan gətirir ki, burada onunla qidalansın. Bu təfəkkür tərzi doğrudurmu?

Hər halda bu xurafat və azğınlıqlar fitri ilhamın nadanlıqla qarışmasından meydana gəlir. Eyni halda bütün bunların daxilində bir həqiqət gizlənir. O da budur ki, xurafatlarla şəklini dəyişsə belə, bəşər daxili ilhamın gücüylə məada inanır.

## O aləmə açılan qapılar

***Necə oldu ki, yeni elmi araşdırmalar ölümdən sonrakı həyat yolunda qarşıya çıxan və dayaz düşüncəlilərin nəzərində qeyri-mümkün sayılan bir çox çətinlikləri aradan qaldıraraq o aləmin qapılarını açdı?***

Bir ərəb yırtıcıların caynağında can vermiş, ya Hicaz səhrasının susuzluğundan ölmüş insana aid bir sümük tapmışdı. Sümüyü tapan kimi sevnib qışqırırdı: "Bu sümüklə Muhəmmədə (s) sübut edəcəyəm ki, onun ölülərin dirilməsi barədə dedikləri mümkün deyil."

O, yəqin öz-özlüyündə belə fikirləşirdi: Yetişib çürüyüb, sonra qurumuş hala düşən bir meyvənin sonradan yenə dönüb təravətli olduğunu kim görüb axı?

Heç eşidən olubmu ki, dəvə balasının anasından əmdiyi süd onun ətinə, qanına çevriləndən sonra yenidən süd şəklinə düşüb anasının döşünə qayıtsın? Bu sümük də sabah torpağa qarışaraq səhra küləklərinin qarşısında dağılıb itəcək, ondan heç bir əsər-əlamət qalmayacaq. Hansı ağıl bunun yenidən gözəl yeniyetmə, qüdrətli cavan, ya fərzanə bir qoca olacağına inanar? Buna dəlilərdən başqa heç kim inanmaz.

**"Kafirlər dedilər: «Sizə siz parça-parça olub dağılandan sonra yenidən yaradılacağınızı xəbər verən bir adam göstərəkmi? Görəsən, o, Allaha qarşı özündən yalan uydurur, yoxsa bir dəliliyi var?"**[1]

Gözlə görünməyən Allaha iman məsələsindən sonra cahiliyyət dövrünün bir dəstə insanlarına ağır gələn ikinci məsələ bu idi. Halbuki öz fitrətlərinin daxilindən məadın lətif zümzüməsini duyurdular. Lakin cəhalət fəryadları bu zümzümənin səsini itirirdi.

Onlar bilmirdilər ki, torpağa düşərək gözlərdən itən qurumuş bir xurma dənəsi bəlkə də on dəfələrlə torpağa qarışmış, lakin yenə xurma ağacı cücərmiş, qollu-budaqlı ağac olmuş, dadlı və ləzzətli bar vermiş, sonra yenə qarışıb torpaqda itmişdir.

Yaxud ana dəvənin südü dəfələrlə balasının bədəninin bir hissəsi olmuş, ölüb torpağa qarışdiqdan sonra orada bitən bitki və səhra tikanlarının canına hopmuş, yenə bir dəvənin qidası olmaqla onun bədənində südə çevrilmişdir.

---

[1] *Səbə surəsi, ayə 7-8.*

Bu cahanın varlıqlarının yox olacaqları və yox olan bir şeyin də qayıtmasının qeyri-mümkün olması kimi cahilanə fikir təkcə o bədəvi ərəbin zehninə gəlmir. Ola bilər ki, bir filosof da bunu başqa bir tərzdə fikirləşə bilər, düşünər ki, əgər məad olacaqsa, onda "yox olmuşların qayıtması" lazımdır və bu da qeyri-mümkündür.

Lakin materialistlərin gözləntilərinin əksinə olaraq təbiət elmlərinin inkişafı və təkamülü bəzi sirlərin üstündəki pərdələri açdı ki, bununla da məad və ölümdən sonrakı yeni həyat barədə olan qaranlıq fikirlərə işıq saçdı.

Həqiqətən təbiət elmlərinə aid araşdırmaçılar hər gün keçmiş sivilizasiyalardan yeni və maraqlı məlumatlar əldə edirlər. Ola bilsin ki, bu təhqiqatçılar maddi maraqlarına görə də belə araşdırmalara can atsınlar, amma bununla yanaşı onların bu səyinin digər mühüm bir tərəfi də vardır, o da keçmiş sivilizasiyaların necəliyini kəşf etmək və onların banilərinin məharətini ölçməkdir.

Təcrübi elmlərin inkişafı nəticəsində məlum oldu ki, keçmiş alimlərin bir çoxunun beynini işğal etmiş "dünyəvi maddələrin mütləq fənası və yoxluğu" fikri mütləq surətdə mövcud deyil.

Böyük fransız alimi La Vazie sübut etmişdir ki, dünyada heç bir maddə yox olub aradan getmir, əksinə dünyəvi maddələr daima bir haldan başqa bir hala çevrilirlər.

Əgər bir ağacı yandırıb külünü küləyə versək, ya bir qədər benzini heç bir əsər qalmayanadək sona qədər yandırsaq, dünyəvi maddələrdə heç bir dəyişiklik baş verməz. Sadəcə birinci misalda ağacın yanmış zərrələri

bölünərək yerdə və havada pərakəndə hala düşmüş, bir qismi kül olmuş, bir qismi isə karbon qazına çevrilmişdir. Belə ki, əgər onları xüsusi alətlərin köməyi ilə bir yerə toplaya bilsək, yenə heç bir zərrədə əskik olmadan əvvəlki ağac şəklini alacaq. İkinci misalda da benzinin yanmsı nəticəsində yaranan qazları toplasaq yenidən əvvəlki halına düşə bilər. Məsələ burasındadır ki, biz öz laqeydlik və diqqətsizliyimiz üzündən onların yox olduqlarını iddia edirik.

Buna əsasən insan bədəninin zərrələri də dağılandan sonra heç vaxt aradan gedib yox olmaz. Sadəcə təbiətin qoynunda qorunub saxlanılar və istənilən zaman onu əvvəlki halına qaytarmaq mümkündür.

Əlbəttə, burada başqa bir məsələ də aydın olmalıdır. Bəzilərinin iddiasına görə bir insanın bədəninin zərrələri digər insanın bədəninin hissəsi olur və bu zaman da ölülərin yeni həyata gəlməsi məsələsində çətinliklər yaranacaq. Belə ki, bir hissənin bir neçə ruha aid olması müşkülü meydana gəlir. Lakin biz tezliklə görəcəyik ki, bu, səhv düşüncədən başqa bir şey deyil. Heç vəchlə belə bir müşkül ortaya çıxmayacaq. Hətta bir insanın bədənini digər bir insanın tamamilə yediyini fərz etsək belə məad məsələsində heç bir çətinlik yaranmayacaq.

Hər bir halda La Vazienin hesablamaları bütün yönləri ilə doğrudur. Yalnız bir məsələdə onun iddiasına görə maddə heç bir şeyə dönməyərək tamamilə aradan gedir. O da atomların parçalanması və partlamasıdır ki, onun sözünə görə buradan yalnız enerji hasil olur.

Bu mövzunu ilk dəfə xanım Kori və həyat yoldaşı Pyer Kori radiaktiv cismlər barədə mütalıə edərkən kəşf etmişlər. Onlar 1898-ci ildə təchizatı o qədər də kamil olmayan Parisdəki laboratoriyalarında "radium" adlı yeni bir element kəşf etdilər. Bu elementin qəribə xüsusiyyətlərindən biri də bu idi ki, mütəmadi olaraq özündən istilik və işıq verirdi. Bu da çox maraq cəlb etdiyindən təhqiqatlar davam etdirildi və alimlər bu nəticəyə gəldilər ki, radiumun atomları davamlı surətdə parçalanma və dağılma prosesindədir.

Bu cismlər özlərindən istilik və enerji hasil etdikləri anda əslində öz varlıqlarından bir o qədər itirmiş olurdular. Bu böyük kəşf La Vazienin "maddənin yox olmaması" nəzəriyyəsini islah etdi, o nəzəriyyəni yenisiylə əvəz etməklə "maddə və enerjinin yox olmaması" adlı yeni nəzəriyyə yaratdı. Yəni sübut olundu ki, dünyanın maddə və enerji toplumu sabit olaraq qalır. Maddənin maddəyə, enerjinin enerjiyə, eləcə də maddənin enerjiyə və ya əksinə çevrilişi mümkündür, lakin bütün bu çevrilişlərə baxmayaraq dünyada heç bir şey fəna və yoxluğa məhkum deyil.

Ona görə də cahanda vücudumuzun zərrələrinin aradan getməyəcəyindən əlavə, etdiyimiz hərəkətlər, gördüyümüz işlər, danışıqlarımız, rəftarımız, hətta düşünən zaman beynimizin maqnetik dalğaları da bu böyük əmanət sandığında qorunub saxlanılır. Əgər əlimizdə yetərincə təchizatlar olsaydı, keçmiş insanların hərəkət və səs dalğalarını, hətta üz cizgilərini belə öyrənə bilərdik.

Bilirik ki, bu iş kiçik miqyasda artıq həyata keçib. Alimlər iki min il bundan əvvəl o zamanın kuzə düzəldənlərinin səsini həmin kuzələrin səs dalğaları ilə hamının eşidəcəyi dərəcədə canlandıra bilmişlər.[1]

Bunların hər biri məadın elmi sübutu yolunda atılmış mühüm addımlardan deyilmi? Əgər o bədəvi ərəb indi sağ olsaydı və ali təhsil alsaydı, yenə də sümüyü əlinə alıb məadın qeyri-mümkünlüyünü sübut etmək üçün Peyğəmbərin (s) yanına gedərdi?

Məşhur kimyaçı Adolf Buhler deyir: "Bəşərin kəşf etdiyi hər qanun onu bir addım Allaha yaxınlaşdırır. Kəşf edilən hər qanun insanı məada və ölümdən sonrakı həyata da bir addım daha yaxın edir."

***Sizi əbəs yerə yaratdığımızı və hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz?***[2]

## Məad bu həyata anlam verir

**İnsan həyatının formalaşması üçün məada iman gətirməyin böyük təsirləri vardır. Əgər insan ölümdən sonra həyatın olmayacağını düşünsə, o zaman onun bu həyatı da puç və bihudə olacaq.**

İri daşların üstünə tökülərək ağacların arasından qıvrılaraq axan suyun səsi ruhumu oxşayır, daxilimi rahatladırdı. Bu anlar mənimçün çox dəyərli idi.

Dəfələrlə çeşmələr başında böyüklərin Hafizin bu şerini oxuduqlarını görmüşdüm:

---

[1] *"Qət edilmiş yol" kitabı*

[2] *Muminun surəsi, ayə 115.*

*Çeşmə üstündə durub ömrünə bax, çay tək axır.*
*Bu cahandan bu bəşarət yetər əhvalımıza.*

Şerin mənaları mülayim nəsim kimi qəlbimdən keçdi, qulağımda cingildədi. Bir də zümzümə etdim. Hiss etdim ki, ruhum yüngülləşir. Sanki ağır bir yükü çiyinlərimdən yerə qoyub rahat nəfəs alırdım. Başımın üstündə uçuşan quşlar kimi qanad açıb hər şeydən xəbərsiz pərvaz etmək istəyirdim.

Birdən bir fikir gözümün önündə canlandı: Ömrün keçməsinin suyun axmasına bənzədilməsi sadə olsa da həyatın durmadan getməsinə gözəl misaldır. Lakin düşündüm ki, ömrün keçməsi bizə hansı bəşarət və müjdəni verə bilər ki, təkcə onunla kifayətlənib cahanın ötəri olduğuna qane olaq?

Fərz edirəm ki, mən də bu suyun milyonlarla damlalarından biriyəm. Yaradılış qanununa tabe olaraq o çeşmədən coşub daş və ağacların arası ilə axıb gedirəm. Bəs sonunda hara gedirəm? Sözsüz ki, sonsuza qədər belə getməyəcək. Gələcəyin naməlum olması məni çox narahat edir. Çirkin heyvanlarla dolu olan üfunətli bataqlığa doğru gedirəmmi? Bu, nə bəşarətdir? Yoxsa yandırıcı səhranın ortasında buxara dönəcəyəm? Bu da fəxr etməli məqam deyil. Bəlkə heç bir hədəf olmadan təzədən sərçeşmə aldığım böyük sulara, dənizə qovuşacağam? O zaman mənim həyatım təkrar və mənasız olacaq. Ömrün keçməsi əgər sonunda bunlarla nəticələnərsə, necə ağır dərd olar.

Ya da bir ağacın kökünün yanında torpağa süzülüb ağacın köklərindən budaqlarına doğru qalxaraq onun zərif və lətafətli damarlarından keçib çiçəklərinə dönərəm, sonra meyvəyə çevrilib bir müddət yetişib kamilliyə doğru səy edərəm, yetişdikdən sonra budaqdan asılılığımı üzüb yerə doğru enərəm və ağacın kölgəsində elmi, ədəbi, əxlaqi, fəlsəfi bir əsər yazmaqda olan bir mütəfəkkir alimin ətəyinə düşərəm. Mənim lətafət və təravətim bu alimin diqqətini cəlbə edər, tezliklə onun bədəninin bir parçası olaram. Onun damarlarında davamlı olaraq çalışaram. Onun damarlarıyla beyninə qədər nüfuz edib yaradıcılıq düşüncələrinin dalğalarıyla ədəbi və fəlsəfi bir kəlama, ya elmi bir kəşfə dönərəm. Nəticədə əbədi bir əsər surətində o alimin qələmindən kitab səhifəsinə həkk olaram, əbədiyyət rəngi alıb kitabxanalarda həmişəlik olaraq hamının faydalanacağı bir mənbəyə çevrilərəm.

Əgər belə olsa, bu keçib getmələr mənə fərəh gətirər. Çünki dəyərsiz bir su damlası kamil bir vücudda surət dəyişib əbədi bir əsərə çevrilir. Bundan böyük nə müjdə və iftixar olar?!

Amma əgər mənim aqibətim üfunətli bataqlıqlarda məhv olmaq, ya buxarlanıb hava olmaq, ya da hədəf və məqsədsiz olaraq yenidən dənizlərə qovuşmaq olsa, bu aqibət çox qorxulu və dərdli olacaq. Ölümü həyatın son nöqtəsi bilənlərin aqibəti ilə bu su damlasının aqibətinin fərqi varmı? Onların həyat və ölümünün doğru anlamı qalırmı?

Məgər ölümdən sonra insan təkamülünün davamına, məada, daha üstün və əzəmətli bir cahana addım atmağa

inanmaq insan həyatına forma və hədəf vermirmi? Buna görə görürük ki, həyatın puçluğu kosmos əsrinin insanını şiddətlə incidən mühüm məsələlərdəndir. Ekzistensializm kimi məktəblərin (əgər buna məktəb deyə biləriksə) yaranması bu narahatçılıqların sübutudur.

Sənaye ölkələrinin durumuna obyektiv nəzər salan fikir sahibləri etiraf edirlər ki, həmin ölkələrin camaatı işsizlik, xəstəlik, təhsil problemləri və qocalıqla mübarizə apararaq böyük iş yerləri mədəniyyət, sağlamlıq, sığorta və s. mərkəzlər yaratmış, camaatın doğumdan ölümə kimi bütün həyatları, hətta övladlarının durumu təmin olunsa da, hələ ki, həyatın puçluğundan nalə çəkir və özlərini bu həyatda hədəfsiz və ölçüsüz hiss edirlər. Bəlkə də Qərbin bir çox qəribə əyləncə və s. həyat baxışları həmin boşluq və hədəfsizlik fikrindən qaçmağa görə yaradılır. Bu həqiqəti öz fəlsəfi baxışına əsasən ekzistensializm məktəbində belə oxuyuruq: "Varlıqlar arasında vücud məfhumunu dərk edən, varlığından agah olan təkcə insandır. Varlıq məfhumu insan üçün qaçılmaz olduğu kimi yoxluq da onunla yanaşı insanın zehnində yaranır. Biz özümüzün və ya başqa bir şeyin varlığını hiss etdiyimiz kimi yoxluğumuz və ya o şeyin yoxluğu da nəzərimizdə canlanır. İnsan təkcə öz varlığından agah deyil, həm də yoxluğunu açıq-aydın hiss edir. İztirab və nigarançılıq həmin varlıq və yoxluq məfhumundan agahlığının nəticəsidir. Sarter demişkən, biz nə üçün yaradılmışıq, varlığımızın dəlili nədir? (Buna cavab tapa bilmirik.)

İnsan öz varlığına bir dəlil tapa bilmirsə, bu dünyada biganəlik duyur, özünü başqa fərd və əşyalardan ayri hiss edir və tənha qalaraq özünə həyatda münasib yer tapa bilmir."[1]

Əgər uşaq ana bətnində ağıl və elmə malik olduğu fərzilə ana bətnindən kənardan heç bir xəbəri olmasa və o mühitdə yaşamaq barədə düşünsə, Sarter məktəbinin ardıcılı olmaqda heç bir tərəddüd etməyəcək. O duşaq da kənar idarəçiliyə tabe olan narahat və məhdud həyatı (ana bətnini) puç, hədəfsiz və məqsədsiz biləcək. Lakin olduğu həyatın başqa böyük bir həyat üçün hazırlıq mərhələsi olduğunu və bu dövrün xüsusi tərbiyə almaq dövrü olduğunu, o dövr olmayınca böyük həyatda yaşamaq imkanının olmadığını bilsə, o zaman ana bətnindəki həyat onun üçün məna kəsb edəcək.

Bizim də gələcək həyatın yoxluq aləmi olmamasına, olduğumuzdan daha yuxarı səthdə bir varlıq aləmi olduğuna, bir üfüq üstün tərzdə bu həyatın davamına, bütün səylərin sonunda onunla nəticələnəcəyinə yəqinimiz və əminliyimiz olsa, bu halda həyatımız puçluq və bihudəlikdən xaric olub məna qazanacaq. Buna əsasən deməliyik ki, ölümdən sonrakı həyata və məada inanmağın ilk təsiri həyata məna və hədəf verməsi, insanı bihudəllikdən çıxarmasıdır.

---

[1] *Fəlsəfə kitabı (fəlsəfi məsələlər, fəlsəfi məktəblər, elmin əsasları), səhifə 363, Dr. Şəriətmədari*

## Tərbiyəyə təsir edən bir amil

### *Cazibə və dafiə təsirinə malik bir amil*

Təhsil almış bir cavan deyirdi: "Mən özümün əsaslı bir vicdana sahib olduğumu düşünürəm. Buna görə də haqq-ədalət əsaslarına bağlıyam və məzhəbə, məzhəbi təlimlərə özümdə ehtiyac duymuram. Çünki məzhəbin insana bəxş etmək istədiyi Allaha inam, o biri cahanın cəza qorxusu və mükafatlarından yaranacaq duyğulara mən vicdanımın vasitəsilə malikəm. Bu surətdə düşünmürsünüz ki, məzhəbi təlimlər məndən aşağı səthdə olanlara, məzhəbi iman olmadan islah olunmayanlara, bir-birinin ətini yeyənlərə aiddir? Hətta bəzən məzhəbi iman tam gücü ilə təsir etmək istəsə də onları islah edə bilmir, əksinə onlar həmin qanunlardan sui istifadə etməklə, şəri hiylələrə əl atmaqla səhv yolda öz işlərindən bəhrələnirlər."

Bilirik, bu təfəkkür tərzi təkcə bu cavana aid deyil, filosof və alimlərin də arasında bəziləri özlərini məzhəbdən daha yüksək bilir və iddia edirlər ki, məzhəb yalnız aşağı səthdə olan insanları tərbiyə etməkdə təsir qoya bilər, özləri isə ümumiyyətlə bu təlimlərə möhtac deyillər.

Belə düşünənlər həmişə böyük cinayətlərin elə böyüklər tərəfindən, yəni "yuxarı" səthə məxsus olanların əliylə işləndiyini sanki bilmirlər. Atom bombalarını onlar düzəldir, müharibələri onlar təşkil edir, ölkələrin siyasi və iqtisadi istismarının planlarını onlar çəkirlər. Elə həmin mütəfəkkir və alimlərdir ki, dünyanın cəhənnəm

qüdrətlərinin ixtiyarında olmaqla öz dolğun məlumat, ixtira və istedadlarını satmaqla dünya "ağa"larının özünə inamlarını möhkəmlədirlər. Bu mövzu bu günkü dünyaya məxsus deyil, keçmişdə də fironların yanında dərrakəli hamanlardan, alim və sərvətli qarunlardan ibarət alimlər cərgəsi dururdu. Qarun həm Musanın (ə) əmisi oğlu, həm fironun Bəni-İsrail üzrə nümayəndəsi idi. Çoxlu sərvəti var idi və bu sərvəti elminin gücü ilə qazandığını düşünürdü. Müaviyələrin də yanında əmr-aslar və əbu-hüreyrələr əyləşmişdi.

Buna əsasən alimlərin, dərrakəlilərin, istedadlıların, yuxarı səthə aid olunanların məzhəbi təlimlərə və nəzarətə daha çox ehtiyacları var. Çünki onlar dünyanı cəhənnəmə də çevirə bilər, sülh və əmin-amanlıqla rəhbərlik də edə bilərlər. Aşağı səthdə olanlar isə onsuz da əksər hallarda onların əmrlərinə tabedirlər. Bu səthin verə biləcəyi zərər də daha az və zəifdir.

Yuxarıda dediyimiz məzhəbi təlimlərə möhtac olmadıqlarını hesab edənlər, ümumiyyətlə bütün dünya əhli ölümün həyat dəftərinin sonu olmadığına, əksinə başlanğıc olduğuna, bu dünyanın sadəcə müqəddimə olduğuna, hər şeyin əbədiyyət rəngi aldığına, əməl və rəftarların, yaxşılıq və pisliklərin heç birinin fani olmadığına inansalar, həmin pis və yaxşı əməllərin bizim gələcək uzun həyatımızda bizə narahatçılıq, ya aramlıq bəxş edəcəyini bilərlər. Ana bətnindəki uşaq da əgər oradakı qısa, lakin təkamül yönlü həyatında inkişafı üçün etinasızlıq göstərsə, ya ifrat həddini aşmaqla özündə çatışmamazlıqlar icad etsə, bu dünyada uzun bir

müddətdə (məsələn 100 illik ömrü boyu) həmin ifrat və etinasızlıqların ağrısını çəkəcək. Bu dünya həyatında da özünü düzəltməkdə etinasızlıq edənlər, o cahana nöqsan, eyib, müxtəlif ruhi və əxlaqi xəstəliklərlə addım atanlar həmişəlik işgəncə və əazb görməlidirlər.

Bu əqidə insanın bütün həyatını dəyişdirə və ali tərbiyəvi dərs olaraq insanın ruh və canını düzəldə bilər, eyni zamanda da maddi bir insandan, özünün fəna olmağı ilə əməllərinin də aradan gedəcəyinə inanan bir kəsdən baş verə biləcək cinayətləri yerinə yetirməkdən də qorunar.

Ölümdən sonrakı həyata və əməllərin o cahanda təsir edəcəyinə inanmaq da insanın günah və səhvlər müqabilində dözümlülük qüvvəsinin yaranmasına bir amil, məxluqlara xidmək etmək amalıyla maddi və mənəvi cəhətdən səy etməyə təşviq olmaq üçün təhrik edici qüvvənin yaranmasına isə başqa bir amildir.

Ölümdən sonrakı aləmə inamın fasid və azğın fərdlərin islahında, eləcə də fədakar və mücahid fərdlərin təşviqində qoyduğu təsirlər adi məhkəmələrin cəza tətbiqindən, mükafat və təşviqatların təsirindən qat-qat daha çox nüfuzedicidir. Çünki hesab gününün xüsusiyyətlərindən biri budur ki, orada nə yeni nəzər və rəy mümkündür, nə də tövsiyə. Nə qazilərin fikrini buraxıb yalançı rəylərlə dəyişmək olar, nə də uzun-uzadı təşrifatlara ehtiyac var.

Gələn bəhslərdə də deyiləcək ki, o aləmin cəza və mükafatları bir çox cəhətdən təbii təsir və xüsusiyyətlərə malikdir. Məsələn, şəfa verən, ya öldürücü olan bir

dərmanın öz təsirində xəta və səhv ehtimalının olmaması, rüşvət və sifarişin bunu dəyişdirə bilməməsi kimi, ölümdən sonrakı həyatda insanın əməl və rəftarları da təxminən belə bir durumda olacaq. Bu bir tərəfdən. Digər bir tərəfdən bu cahanın min bir nöqsanı olan məhkəmələrində təşviq məsələsinin məfhumu yoxdur. Məsələn, əgər bir nəfər əlli il qanunlara rəayət edibsə və heç bir kiçik qanun pozuntusu da etməyibsə, buna görə ona heç bir mükafat verilməz. Bunun üçün heç mükafat da təsis olunmayıb ki, verilsin. Demək, bu qanunlara rəayət olunmaq zəmanəti bir tərəflidir. Yəni qanun keşikçiləri həmişə qanunu pozanları axtarırlar, nəinki ona rəayət edənləri. Dini qanunların icrasına olan zəmanət isə iki tərəflidir. Cəza verilməklə əks tərəfdə mükafat vermək də eyni dərəcədə aktualdır.

Şübhəsiz, belə bir cahana inamı olan kəs özünün islahında, müxtəlif əməlləri yerinə yetirməkdə son dərəcə diqqətli olur. Eynilə şəfa verən, ya zəhərli dərmanların xüsusiyyətlərini bilən bir fərd birinciyə nisbətən çox istəkli, ikinciyə nisbətən isə çox qorxaqdır. Məada inanan insan da hər dəfə addım atdığı hər işin qəti təsirini gözləri önündə canlandırır. Bu qayda ilə daxilində daimi diqqət hissi yaratmaqla həmişə cinayət və fəsadlar qarşısında özünü nəzarətdə saxlayır.

Bu həqiqətə inanmaq insanı elə bir həddə çatdırır ki, sonunda deyir: "Allaha and olsun, əgər gecələr sübhə kimi yatağım canyaxıcı tikanlar olsa, gündüzlər əl-ayağımı zəncirləyib küçələrdə gəzdirsələr, birinə zülm

etmiş, ya birinin haqqını qəsb etmiş halda ilahi məhkəmə qarşısında durmaqdan mənə daha xoş olar."[1]

Belə bir şəxs qızarmış dəmiri qardaşının əlinə yaxınlaşdırdıqda onun fəryadını görüb nəsihət verir və deyir: "Sən əldə oyuncağa bənzəyən bu kiçik şölədən fəryad edib qaçır, amma qardaşını Allahın qəhr və qəzəbindən şölənənən atəşə atırsan?"[2]

Həmçinin ətradındakılardan bir qismi hökuməti möhkəmlətmək üçün ona müsəlman cəmiyyətinin içindən bəzilərinə xüsusi diqqət ayırmağa dəvət edərkən onlara fəryad edib deyir: "Vay olsun sizə, mənə deyirsiniz ki, hökumətimin pənahında yaşayanlara zülm etməklə öz qələbəmi təmin edim? And olsun Allaha, ulduzlar səmada durduqca mən belə etmərəm."[3]

Həqiqətən də əgər bütün dünya rəhbərləri və bütün adi insanlar bu açıq və qəti imanın bir parçasını vücudlarının dərinliklərində işıqlandıra bilsələr, dünyamız necə dəyişər. Bu təkəbbürdən, özünü bəyənməkdən, özünə pərəstişdən, zülm və təcavüzlərdən əsər-əlamət qalarmı?

Bu əsasa görə bütün səmavi məzhəb və dinlər fərdlərin tərbiyəsi və cəmiyyətlərin islahı üçün ölümdən sonrakı həyata olan imanı insanların ürəyində yaratmaq yolunda çox çalışmışlar. Xüsusilə Qurani-kərimdə tərbiyəvi məsələlərin böyük bir qismi bu yolla icra olunur. Bu cəhətdən yəqin ki, Quranda bu məsələyə və onun xüsusiyyətlərinə 1400 dəfə işarə olunduğunu eşitsək,

---

*[1] Nəhcül-bəlağə, xütbə 224.*

*[2] Həmin mənbə.*

*[3] Nəhcül-bəlağə, xütbə 126.*

təəccüb etmərik. Onların arasında ən maraqlı bir neçəsini burada qeyd edirik:

1. İnsanın tərbiyəsi üçün o böyük günə təkcə yəqin və iman deyil, hətta zənn və güman da olunsa yenə insanda öz dərin təsirini buraxacaq.

**Məgər onlar diriləcəklərini düşünmürlərmi?! Özü də dəhşətli bir gündə?! O gün bütün insanlar aləmlərin Rəbbinin hüzurunda duracaqlar!**[1]

2. Bir neçə yerdə təkid olunur ki, o cahana təkcə ümid etmək belə tüğyanın qarşısını almaq, haqq müqabilində təəssübü tərk etmək və saleh əməl etmək üçün kifayətdir. Diqqət edin, "ümid" anlayışında "yəqin" və "qətilik" mənası yoxdur.

**Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı iş görsün.**[2]

**Bizimlə qarşılaşacaqlarına ümid etməyənlər: «Bizə mələklər endirilməli, yaxud biz Rəbbimizi görməli idik!» - dedilər.**[3]

3. Quranda xüsusilə qeyd olunmuşdur ki, insanın əməl, rəftar və sözləri əbədilik rəngi alır, o cahanda onların hamısı insanla birlikdə olacaqlar.

**O gün hər kəs etdiyi yaxşı və pis əməlləri qarşısında hazır görəcək.**[4]

Başqa bir yerdə isə təkidlə deyir:

---

[1] *Mutəffifin surəsi, ayə 4-6.*

[2] *Kəhf surəsi, ayə 110.*

[3] *Furqan surəsi, ayə 21.*

[4] *Ali-İmran surəsi, ayə 30.*

Onlar etdikləri bütün əməllərin öz qarşılarında hazır durduğunu görəcəklər.[1]

## Məad sizin daxilinizdədir

**Qazisinin, şahidinin, hökm icraçısının bir olduğu və hər birimizin canımızın dərinliklərində yer tutan məhkəmə də hesab gününün məhkəməsinə canlı bir nümunədir.**

Bu gün adətən bir bina, ya idarə inşa etmək istəyərkən əvvəlcə həmin böyük proyektin bütün ayrıntılarını əks etdirən kiçik maketini düzəldirlər ki, onların karına gəlsin. İnsan da əzəmətli yaradılış aləminin çox kiçildilmiş və sıxılmış maketidir, təkcə bir fərqlə ki, bu maket həmin əzəmətli yaradılışdan əvvəl yox, sonra yaradılmışdır. Çünki onun yaradıcısı əməli məhdud olan insan kimi deyil və bu maketi böyük yaradılışın qarşıya çıxa biləcək çətinliklərini həll etmək üçün yaratmayıb. Ümumiyyətlə "kiçik" və "böyük" anlayışı hər cəhətdən məhdud olan bizə aiddir. Elm və qüdrəti sonsuz olan üçünsə bu ikisi eynidir.

Yaradılış aləminin bu kiçik və qəribə maketində hər şeydən diqqətlə nümunələr götürülmüşdür. Müxtəlif qüvvələr, sirlər, qəribəliklər, meyillər, həmçinin günəş və ulduzlar, heyvanlar və onların xasiyyətləri, mələklər və onların ruhaniliyinin hər birindən bu kiçik və qarışıq cahanda (insanda) mövcuddur.

Bu barədə ən gözəl söz Həzrət Əliyə (ə) nisbət verilən şerdə öz əksini tapır:

---

[1] *Kəhf surəsi, ayə 49.*

*Heç güman etmə kiçik zərrəsən aləm içrə,*
*Bir cahan var sənə sığmış ki, böyük aləmdir.*

Bu gün böyük dünya kitabxanalarında kitabların çox yer tutması problemini həll etmək üçün mikrofilmlərdən istifadə etmək fikri irəli sürülmüşdür ki, çox kiçik həcmli olmalarına baxmayaraq böyük bir kitabxananı ora yerləşdirmək mümkün olur və lazım gələndə böyüdücülər vasitəsilə böyüdülüb istifadə olunur.

İnsan da sanki yaradılışın böyük kitabxanasının mikrofilmidir. Bu iftixar insana kifayətdir. Böyük cahanla kiçik varlığın maraqlı bənzətməsi bu gün elmin inkişafı ilə daha aydın görünür. Onun başqa nümunələrini dünyanın digər varlıqlarında da görmək olar. İnsanı heyrətə gətirən atom da böyük Günəş sisteminin bir maketidir. Günəş sistemi özü də kəhkəşanların maketidir. Eləcə də mikroskopla görünən bir hüceyrə də bir ağacın, bir insanın, ya bir heyvanın kiçildilmiş formasıdır. Güllərin kiçik toxumları, bütün varlıqlarda olan canlı hüceyrələr, yumurtanın tərkibində olan kiçik nütfə hissələrinin hər biri bir gülün, bir ağacın, bir quşun zərif nümunələridir. Böyük varlıqlarda olan hər bir şey onlarda da kiçildilmiş formada mövcuddur. Belə də olmalıdır. Məgər varlıq aləmi bir-birinə bağlı olan vahid bir varlıq deyilmi?

Kiçik insanla böyük cahan arasında olan bu bənzərlik bəzən səbəb olur ki, cahanda gördüyümüz bir xüsusiyyətin bənzərini insanda axtaraq, yaxud əksinə, insanda olan xüsusiyyətləri əzəmətli cahanda müşahidə edə bilək.

İnsan vücudunun daxilində kiçik bir məhkəmə vardır. Bu gün ona "vicdan" deyilir. Filosoflar onu "əqli-əməli", Qurani-Kərim "nəfsi-ləvvamə", ya sadəcə "nəfs" adlandırır. Ərəblər isə ona "zəmir" deyirlər. Bu, çox qəribə bir məhkəmədir. Dünyamızın təm-təraqlı məhkəmələri onun yanında gülməli görünür. Bu, elə bir məhkəmədir ki, onun qazisi də, şahidi də, hökm icraçısı da, tamaşaçısı da birdir. Bu, həmin gizli qüvvə adlandırdığımız vicdandır.

Səs-küylü dünya məhkəmələrində bəzən bir mühakimə 50 il çəkir. Amma vicdan məhkəməsində vaxta ehtiyac yoxdur. Bəzən bir saat, bir dəqiqə, hətta bir an belə kifayət edir. Burada yeni rəy almağa, daha ali instansiyalara müraciət etmək prosesi də yoxdur. Onun hökmünün yalnız bir mərhələsi vardır. Çünki burada etimadın özü bir hökumətdir və hökm edir.

Dünya məhkəmələrində isə daha yuxarı instansiyalara müraciət etmək ondan əvvəlkinə etimadın olmamasından irəli gəlir. Hakimlərin mühakimədə olan azğınlıqları da saysız-hesabsızdır. Yuxarı məqamlardan qorxmaq və ədalət tərəzisinin gözünü onlara tərəf istiqamətləndirmək, eləcə də bu tərəzini alt-üst edən sifarişli hökmlər və s. misal çəkmək olar.

Bunların heç biri vicdan məhkəməsində yoxdur, cahanın fövqündə duran bu ilahi qüvvəyə heç bir qüvvə təsir edə bilməz.

Burada mövcud olan təkcə nöqsan budur ki, insan məsum olmadığından və məhdud elmə sahib olduğundan bəzən vicdanın pak və saflığından sui istifadə edib haqqı onun nəzərində nahaq, ya nahaqqı haqq kimi göstərmək

olar. Elə ona görə deyirik ki, vicdan təkbaşına din əvəzinə mühakimə edə bilməz. Amma yenə də vicdanın nöqsanı dünya məhkəmələrinin yanında mində bir nisbəti kimidir.

Vicdan məhkəməsi həm günahkara cəza, həm də vəzifəsini doğru icra edənlərə mükafat verir. Dünya məhkəmələrində isə əgər mən yüz il də iynənin ücü qədər qanunsuz hərəkət etməsəm, əməl dəftərimdə heç bir qara nöqtə olmasa da, heç bir tərifnamə verilmir, ya "çox sağ ol" deyilmir. Ümumiyyətlə daha öncə qeyd etdiyimiz kimi, dünya məhkəmələrinin üşü yalnız nöqsan və eyiblərlə məşğul olmaqdır.

Vicdan məhkəməsinin cəzası da bunlara bənzəməz. Bəzən bu cəzalar insanı daxildən elə yandırır ki, bütün dünya dəhşətli və sıx bir zindan kimi dar gəlir. Bəzən insanın günahı böyük olduqda bu işgəncələr onun ağlını başından çıxarıb dəli edir. Bəzən o qədər dözülməz həddə çatır ki, insan edam olunmağı bundan yüngül hesab edir. İstənilən halda onu bu əzablardan xilas edə biləcək bir kimsə olmur.

Onun mükafatı da vəsf olunmaz dərəcədə çox sevincli və xoşdur. Buna "vicdan rahatlığı" deyirik, çünki başqa ad tapa bilmirik.

Deyirlər ki, əsrimizin psixoloji xəstəliklərinin artmasının səbəblərindən biri bu gün cəmiyyətdə günahın rəvac tapmasıdır. Günahkarlar nə qədər səy etsələr də özlərini vicdan əzabından xilas edə bilmirlər. Müxtəlif psixi narahtçılıqlar surətində özünü büruzə verən də elə həmin vicdan əzabıdır. Tanınmış çoxlu siyasi xadimlər tanıyırıq ki, tutduqları mənsəbdən gedən kimi qısa müddətdə öz

qüdrətlərini əldən verib ölüm qarşısında diz çökürlər. Ola bilsin ki, bunun başlıca səbəblərindən biri mənsəb başında olarkən etdikləri qanunsuz işlər əsnasında vicdanlarının səsini eşitməyə fürsət tapmamalarıdır. Amma səs-küy bitəndən sonra ardıcıl olaraq vicdan məhkəmələri başlayır və ona ağır zərbələr vurur. Bu, vicdan adlandırdığımız qəribə məhkəmənin fəaliyyətlərindən kiçik nümunələrdir.

Kiçik insan varlığında belə bir sirli məhkəməni müşahidə etdikdən sonra bu böyük cahanda, yaxşı və pis əməllərimizin əvəzini verəcək məhkəmənin olacağına inanmamaq olarmı? Məgər vicdan məhkəməsi bizi oyadıb xəbər vermirmi ki, bu cahanda da böyük bir məhkəmə var? Heç bir məhdudiyyəti olmayan bu məhkəmədə sonunda hamı hazır olmalı, bütün əməllərimiz, hətta unutduğumuz hər kiçik bir iş əməl dəftərimizdə yazılaraq orada açıqlanacaq. Vicdanın verdiyi əzablardan daha ağır işgəncələr, onun mükafatlarından daha xoş və sevincli mükafatlar hər kəsin əməli müqabilində seçiləcək. Sözsüz ki, belə bir məhkəmə olacaq. Ona "aləmin vicdan məhkəməsi" adını da vermək olar.

Elə buna görə böyük səmavi kitabda əzəmətli hesab günündən, qiyamətdən söhbət açılanda onunla yanaşı vicdan məhkəməsi barədə də danışılır:

**And içirəm qiyamət gününə; And içirəm özünü qınayan nəfsə! Məgər insan elə güman edir ki, onun sümüklərini bir yerə yığa bilməyəcəyik?! Bəli, Biz onun**

**barmaqlarını da (barmaq sümüklərini də, barmaqlarının uclarını da) düzəltməyə qadirik!**[1]

Bu ayələrdə hər iki məhkəmə yanaşı olaraq zikr olunmuşdur.

## Müəmmalara cavab

**Əgər bu həyatla ölümdən sonrakı həyat arasında əlaqəni kəssək, hər şey müəmmaya çevriləcək və "nə üçün?" suallarına cavab tapa bilməyəcəyik.**

### *Bir cücənin nəzərində olan aləm*

Maraqlı olar ki, həyat, keçmiş, gələcək anlayışını, həmçinin varlıq aləmi məfhumunu hələ yumurtadan çıxmayan və kənar aləmi görməyən bir cücənin nəzərləri ilə araşdıraq:

"Ah, necə kiçik zindandır. Heç əl-ayağımı tərpədə bilmirəm. Niyə cahanın yaradanı təkcə məni yaradıb, niyə dünyanı bu qədər kiçik və dar edib? Bu kiçik zindan onun nəyinə lazımdır ki? Onun hansı müşkülünü həll edəcək? Bilmirəm bu zindanın divarlarını nədən düzəldiblər. Necə də möhkəm və keçilməzdir. Ola bilər yoxluğun dəhşətli dalğasının içəri sirayət etməməsi üçün belədir. Bilmirəm.

Mənim ilk sarı qidam artıq bitib, indi ağ qida ilə bəslənirəm. O da tezliklə bitəcək, acından öləcəyəm. Ölümümlə də dünya bitəcək. Bu cahanın yaradılışı necə də boş, mənasız və məqsədsizdir.

Amma yenə şükr etməyə yer var. Mənə böyüklük iftixarı verib, təkcə məni yaradıb. Mən cahanın seçilmişiyəm.

---

[1] *Qiyamət surəsi, ayə 1-4.*

Bu cahanın mərkəzi mənim qəlbimdir, onun şimalı, cənubu, şərqi və qərbi isə bədənimin tərəfləridir. Bunu təsəvvür edəndə qürur hissi keçirirəm. Amma nə faydası, burda başqa biri yoxdur ki, bu iftixarı görüb bu seçilmiş varlığa "afərin" desin.

Bir müddət hava soyuq oldu (ana toyuq yumurtanın üstündən qalxdiğına görə). Şiddətli soyuq zindanı tamamilə əhatə etdi, iliyimə qədər işlədi. İndi bu soyuq məni öldürəcək. Yoxluq aləmi olan zindanın çölündən içəri işıq düşür. Dünyanın sonu olduğunu düşünürəm. Bu soyuq da, bu əziyyətverici işıq da məni hövsələdən çıxarır.

Eh, bu yaradılış, necə bihudə, ötəri, mənasız oldu. Zindanda doğulub elə orda da ölmək. Başqa heç nə. Başa düşmədim, hardan gəlmişəm, niyə gəlmişəm.

Deyəsən təhlükə aradan getdi (toyuq yenidən yumurtanın üstündə oturur). Sümüklərim isindi, məni incidən o işıq da yox oldu. İndi necə rahatam. Bəh-bəh, həyat necə ləzzətlidir.

Aa, deyəsən zəlzələ oldu (toyuq yumurtaların istiliyini tənzimləmək üçün onları yerbəyer edir). Qorxulu və ağır zərbələrin səsi sümüklərimi titrədir. Budur dünyanın sonu. Divarlara çırpılıram...

Yenə sakitlik oldu, zəlzələ bitdi. Hər şey öz yerindədir indi. Təkcə zindanın qütbləri dəyişdi, indi şimal cənub olub, cənub da şimal. Yaxşı oldu sanki. Neçə müddət idi ki, başım isti idi, ayaqlarım soyuq. İndi tarazlaşdı hər ikisi. Demək bu zəlzələ yox, həyat və yaşayış təminatı imiş.

(Bir neçə gün belə keçir.) Qida tamamilə bitdi, hətta zindanın divarına yapışan kiçik tikələri də hərisliklə yeyib

bitirdim. Təhlükə! Bu dəfə ciddidir. Artıq yeməyə heç nə yoxdur. Hə, bu dünyanın sonudur artıq. Ölüm artıq bir neçə addımlıqda məni gözləyir.

Eybi yox, qoy ölüm. Amma məlum olmadı bu cahanın və zindanlıq olan bu tənha varlığın yaradılışında məqsəd nə idi. Necə də mənasız və məqsədsizdir. Zindanda göz açıb, orda da göz yummaq. Mən ki bu yaradılışa razılıq verməmişdim. Məcburən yaradılmışdım...

Aclıq mənə güc gəlir, qüvvəm tükənir. Ölüm bir addımlıqdadır. Heç olmasa bu zindan yox olmaqdan yaxşı idi...

Fikrimə bir şey gəlir. Sanki biri içimdən fəryad qoparıb deyir: Dimdiyinlə zindanın divarına möhkəm vur!

Təhlükəli deyilmi? Məgər bunu etmək olar? Bu, bir intihardır. Dünyanın sonudur, bu da ölümlə həyat arasında olan sərhəd. Amma yox, bəlkə başqa şey olacaq. Mən ki ölümə məhkumam, qoy ölüm.

Yenə içimdən fəryad qopur: Divarı sındır!

Çarəm yoxdur, bu fəryada tabe olmalıyam. (Bu zaman cücə dimdiyi ilə divara vurmağa başlayır.)

Möhkəm vur, qorxma! Bir az da möhkəm!

Divar sındı. Lətif və həyat verən bir nəsim gəldi. Bəh-bəh, yenidən cana gəldim. Bu zindanı tamamilə dağıtmaq lazımdır.

Aa, nə qəşəng, nə ürəyə yatandır. Necə geniş aləmdir. Nə gözəl ulduzlar var. Hələ parlaq aya bax. Gözlərim onun nurundan yanır. Nə gözəl gül-çiçəklər var. Necə mehriban anam var. Nə dadlı və rəngarəng yeməklər var burda. Hələ gör nə qədər mənim kimi varlıqlar var. Mən

bu əzəmətli cahanda necə də kiçiyəm. Mən də elə düşünürdüm ki, dünyanın mərkəziyəm. Bu əzəmətin qarşısında mən bir zərrə toz kimiyəm.

İndi başa düşürəm ki, o zindan yox, bir məktəb idi, məni bu cahana hazırlamaq üçün tərbiyələndirirdi. İndi həyatın mənasını başa düşürəm. Necə planlar var imiş, mənim heç xəbərim yox. İndi deyə bilərəm ki, mənim miqyaslarım, ölçdüklərim bu əzəmətin qarşısında necə kiçikmiş. Olduğum o kiçik zindan böyük bir silsilənin bir hissəsi imiş, mən isə hər şeyin onunla başlayıb, onunla da bitəcəyini zənn edirdim. İndi başa düşürəm ki, mən kiçicik bir cücəyəm, təsəvvür etdiyimdən çox-çox kiçik.

Bu, bir cücənin nəzərində varlıq aləminin mənzərəsi idi.

### *Yaşadığımız bu aləmin mənzərəsi ondan sonra gələcək aləmin müqabilində belə olacağını nə bilmək olar?*

Tarix boyu materialist məktəbləri tərəfindən insanın yaradılışı, ümumiyyətlə varlıq aləmi barədə çoxlu iradlar deyilib. İnsanın bu dünyada qarşılaşdığı müsibətlər, dərdlər, bu dörd günlük həyatda yaranan çətinliklər və s. qeyd olunub.bu iradların ən kamil nümunəsi materialist ərəb şairi tərəfindən bir şerdə deyilir. O, şerinin bütün misralarını "anlamıram" ifadəsiylə bitirir. Fars dilli şair Bəhməni də məşhur şerində eyni tərzdə bu iradları dilə gətirir.

Lakin düşünürük ki, onların bu iradlarının çoxu maddi cahan barədə məhdud mütaliələr, eyni zamanda onu ölümdən sonrakı həyatdan ayırdıqlarına görədir. bu iradlar yumurtadan hələ çıxmamış bayaqkı cücənin iradlarına bənzəyir.

Əlbəttə, əgər biz ölümdən sonrakı həyatı nəzərə almasaq, bu "nə üçün"-lərin cavabını tapa bilməyəcəyik. Amma olduğumuz bu həyatı uzun təkamül yolunun bir hissəsi kimi qəbul etsək və araşdırsaq, məsələ tamam dəyişir. Həmin iradların bir çoxu bəşərin indiki zamanını gələcəklə əlaqələndirməklə öz-özünə həll olur.

Diqqət edirsinizsə, biz "bir çox iradlar" deyirik. Bu, ona görədir ki, bu həyatda yaranan dərd və narahatçılıqların bir qismi öz işlərimizi bilməmək, ictimai fəsadların nizama salınmaması, istismarçılıq, tənbəllik, süstlük, səhlənkarlıq kimi amillərdən yaranır. Bu çatışmamazlıqların səbəblərini fərdi və ictimai fəaliyyətlərin necəliyində axtarmalı və həll etməliyik.

# SƏMAVİ KİTABLARDA MƏAD

**Yəhudilər maddiyyat düşkünü olduqlarına və sərvət bütünə səcdə etdiklərinə görə məad dəlillərini məhv etməklə öz işlərinə rahat vicdanla davam etməyə çalışdılar.**

Xristianlar isə Məsihin vasitəsilə nicat tapmaq və keşişlərin onları əfv etməsi məsələsini irəli çəkməklə məada inamın tərbiyəvi təsirlərini aradan apardılar.

İki məsələyə diqqət yönəltmək, iki müəmmaya cavab tapmaq bütün peyğəmbərlərin və dünya mütəfəkkirlərinin proqramlarının bir hissəsi olub: yaradılışın əvvəli və sonu. Başqa sözlə "məbdə" və "məad".

Təbiidir ki, bu ikisini anlamadan həyatın mənasını anlamaq mümkün deyil. Həmçinin həqiqi dünyaşünaslıq da bu iki anlayışı dərk etmədən mümkünsüzdür.

Həqiqi mənada olan tərbiyə də (təşrifatlar, qonaq qəbul etmələr, süfrə mədəniyyəti, insanlarla ünsiyyət tərzi və bu kimi cəhətlərlə yetərli olmayan, insanın həm də can və həyatının dərinliklərinə nüfuz edən hər cəhətli tərbiyə) bu iki məsələnin həlli ilə tamamlanır. Yəni, insana hakim olan davamlı nəzarət hissinə, əməlləri sayəsində cəza və mükafata, təkamül və süquta diqqət və s.

Buna görə də elə bir səmavi kitab və elə bir peyğəmbər olmayıb ki, öz dəvətini bu iki mövzu əsasında möhkəmlətməsin. Lakin keçmiş peyğəmbərlərin səmavi kitablarına ya bilərəkdən, ya da nadanlıq ucbatından

uzanan təhrif əlləri məad məsələsini bəzi cəhətlərdən alt-üst etmişdir. Hər halda bu kitablardan məadla əlaqədar icmalı surətdə araşdırma aparmaq lazımdır ki, bir çox cəhətlərdən maraqlı və faydalı görünür.

## Səmavi kitab əvəzinə tarixi kitab

Bilməyimiz yaxşıdır ki, bu gün yəhudi və xristianların əlində olan kitablar onların öz nəzərlərinə görə səmavi yox, sadəcə müqəddəs kitablardır. Ona görə də onlara "səmavi kitablar" demirlər. Elə bir yəhudi, ya xristina tapmaq olmaz ki, bu kitabların Həzrət Musa (ə), ya Həzrət İsaya nazil olmuş həmin kitablar olduğunu iddia etsin. Onların hamısı etiraf edirlər ki, bu kitablar bu iki peyğəmbərdən sonra şagirdləri və ardıcılları tərəfindən yazılmışdır. Bu kitablarda səmavi vəhylərlə yanaşı Musa (ə) və İsanın (ə) bioqrafiyası, hətta onlardan sonra baş verən hadisələr də açıq surətdə yer almışdır.

Əhdi-ətiq (yəhudilərin müqəddəs kitabları) 39 kitabdan ibarətdir ki, onun ilk beşi Tövratın beş sifri adlanır. Məsələn, beşinci sifrin "Təsniyə", ya "Musanın musənnası" adlanan sonuncu fəslində oxuyuruq: "Allahın bəndəsi Musa Allahın sözünə müvafiq olaraq vəfat etdi və onu Movab dərəsində dəfn etdilər..." Bu sözlər də kitabın Musadan (ə) sonra yazıldığına bir sübutdur.

Bu silsilədən olan 17 kitab "Tarixçilərin məktubları" adı ilə məşhurdur. Adından da göründüyü kimi burada bəzi padşahların haqqında tarix yazılmışdır. Qalan 17 kitab isə Bəni-İsrail peyğəmbərlərin məktublarıdır ki, onların əhvalatı, dedikləri qisa kəlamlar, öyüdlər, münacatlar və s. yer alır.

Əhdi-cədid isə (xristianların müqəddəs kitabları) 27 kitabdan ibarətdir. Onlardan dördü Məsihin (ə) şagirdləri, ya şagirdlərinin şagirdləri tərəfindən yazılmış incillərdir. 22 kitab məsihiyyətin dahi sayılan şəxslərinin müxtəlif məntəqələrə göndərdikləri məktublardır. Qalan bir kitab isə "Yuhənnanın mükaşifələri" adlanır ki, onun mükaşifələri həmin kitabda şərh olunur.

Hər bir halda Əhdi-ətiqlə Əhdi-cədid arasında açıq-aydın görünən bir fərq gözə dəyir. O da budur ki, yənudilərin kitablarında dünyadan çox danışıldığı halda məaddan az söhbət açılır. Əhdi-cədiddə isə daha çox məaddan, ölümdən sonrakı həyatdan, ordakı cəza və mükafatdan danışılır. "Müqəddəs kitabın qamusu" kitabının müəllifi Mr Haks bu barədə belə deyir ki, yəhudilərin ölümdən sonrakı həyat barədə olan məsələlərin bir qismində fikirləri naməlumdur.

Yəhudilərin xüsusi vəziyyətlərini nəzərə alaraq belə qənaətə gəlmək olar ki, (onlar dünya əhli içində qeyd-şərtsiz olaraq maddipərəst, özünü bəyənən və mal-dövlət hərisləri kimi tanınır, hətta onlar barədə deyirlər ki, onların tanrıları da puldur) peyğəmbərlərin kəlamlarını təhrif edərkən maddi həyat barədə olan hissələri saxlamış, məaddan söz gedən hissələri isə çıxarıb atmışlar.

Qurani-Kərimdə də İslam Peyğəmbərinin (s) müasiri olmuş yəhudilərin maddiyyata fövqəladə həris olduqları barədə ayələr vardır:

**Sən onları (yəhudiləri) bütün insanlardan daha artıq yaşamağa həris görərsən.**[1]

Bu ruhiyyə dünən də, bu gün də onlarda mövcud olub, zaman keçdikcə sanki onların qanına hopub. Keçmişdəki dərbədərliklərinin, bu günkü hirslərinin kökləri də bu cəhətlərdə axtarılmalıdır. Yalnız həqiqi mənada həyat proqramlarına yenidən baxmaqla, dünya əhalisi ilə barış yaratmaqla və "maddə"-dən başqa şeylər olduğunu da etiraf etməklə bu ittihamdan qurtula bilərlər.

İstənilən halda qədim əhd kitablarında məad mövzusuna etinasız yanaşılsa da, yenə də həmin mənbələrdə bu məsələyə dair açıq-aydın kəlamlar görünür. Onlardan bir neçəsini nümunə olaraq qeyd edirik:

1. Semuil kitabı (fəsil 2, cümlə 6)

*"Allah öldürür və dirildir, qəbrə göndərir və oradan qaldırır."*

Gördüyümüz kimi bu cümlə həm də cismani məada açıq surətdə işarə edir. Çünki qəbir insanın torpağa çevriləcək cismani yeridir. Burada təkcə ruh nəzərdə tutulmur. Əlavə olaraq bu cümlə Qurani-Kərimdəki bu ayənin sanki eynidir: **"Allah qəbirlərdə olanları dirildəcəkdir!"**[2]

2. Əşiyayi-nəbi kitabı (fəsil 26, cümlə 19)

*Sənin ölülərin diriləcək, mənim cəsədlərim qalxacaqlar. Ey torpaq sakinləri, oyanın...*

---

[1] *Bəqərə surəsi, ayə 96.*

[2] *Həcc surəsi, ayə 7.*

Burada məad bir oyanış kimi (yuxudan oyanmaq kimi) tanıtdırılır. İslami rəvayətlərdə də oxuyuruq: "İnsanlar yuxudadırlar, ölüm vaxtı oyanırlar."

Məadın yuxudan oyanmağa bənzədilməsi bizə çox şey öyrədir. Allahın istəyilə sonradan bu mövzuda danışılacaq.

Bu cümlədəki "mənim cəsədlərim" ifadəsi (halbuki bir insanın bir cəsədi olur) ya bir cəsədin hissələri, ya da ömür boyu dəyişilən bədən formalarına işarədir.

3. Davudun Məzamiri (məzmur 23, cümlə 4-6)

*Ölüm kölgəsində vadidə yol gedirəm. Pislikdən qorxmayacağam, çünki sən mənimləsən. Hər zaman ömrümün bütün rəhmət və yaxşılıqları mənimlə gələcək, əbədi tanrının evində məskunlaşacağam.*

Bu cümlələrdən ölümdən sonrakı həyatda insanın bu həyatda etdiyi əməllərə bağlı olması aşkar göstərilir. Belə ki, bu əməllər onun ardınca gələcək və əsla ondan ayrılmayacaq.

Bu tərtiblə həmin dövrə aid kitabların mətnlərində məada dair müxtəlif fikirlər yazılıbdir.

## Məad İncildə

Deyildiyi kimi İncildə bu mövzuda daha açıq fikirlər yer alıb. Bir neçə nümunə qeyd edək.

1. Yuhənnanın İncili (fəsil 5, cümlə 27-28)

*Elə bi zaman gələcək ki, qəbirdə olanlar onun səsini eşidəcək və ordan çıxacaqlar. Yaxşı əməllərin sahibləri həyat qiyaməti, pis əməllərin sahibləri isə mühakimə qiyamətinə doğru gedəcək.*

Burada həyt qiyamətindən məqsəd yaxşı əməl sahiblərinə mükafat veriləcək Allahın həmin əbədi nemətləridir. Pis qiyamətdən məqsəd isə Allahın ədaləti ilə pis əməl sahiblərinə qismət olacaq ilahi cəzadır.

Bu cümlə də "qəbirlərdən çıxmaq" ifadəsini ehtiva etdiyi üçün cismani məada işarədir.

2. Mattanın İncilində (bu, ilk yazılan incillərdəndir) hesab günündəki cəza və mükafatlar açıq-aydın qeyd olunur:

*İnsan oğlu gələr, atasının cəlalı və mələklərin ittifaqı ilə... O zaman hər kəs öz əməlinə müvafiq olaraq cəzalanacaq. (Mattanın İncili, fəsil 16, cümlə 27)*

Ölümdən sonrakı həyatla əlaqədar, cəza və mükafat, cənnət, cəhənnəm və s. barədə İncildə və Əhdi-cədid kitablarında çoxlu xəbərlər vardır.

Amma əfsuslar olsun ki, günahkar məsihilər Məsihin (ə) onların günahlarına əvəz kimi qurban edilməsi, həmçinin keşişlərin günah bağışlama məsələsi ilə öz əqidələrinə bidət gətirmiş və bununla da məadın tərbiyəvi cəhətlərini qüvvədən salmışlar. Onlara görə guya axirət cəzalarından xilas olmaq, ya əbədi səadətə yetmək üçün əməllərin yaxşı, ya pis olmasının heç bir fərqi yoxdur, sadəcə hər şeyi Məsihin (ə) şəfaəti və keşişlərin günah bağışlaması həll edəcək.

## Quran və ölümdən sonrakı aləm

### *İlk hidayət*

**Bu gün bədənimizi təşkil edən zərrələr bir zaman bir-birindən ayrı halda milyon kilometrlərlə məsafələrdə idilər. Ölümdən sonra bu zərrələr yenidən dağılandan sonra bir daha bir-birinə qovuşacaqlarmı?**

Bütpərəstlər arasında qəribə bir çaxnaşma düşmüşdü. Çünki bütxanaları kökündən lərzəyə gəlmişdi. Yeni din olan tohid, tək Allaha inam sürətlə düşüncələrə nüfuz edirdi. Xüsusilə cavanlar bundan daha tez təsirlənirdilər.

Bu dinin qarşısını almaq üçün küçələrdə, bazarlarda, Məscidul-həramda, müşriklərin evlərində kiçikli böyüklü məclislər qurur, müşavirələr keçirirdilər. Hamı keçmiş dinlərə lərzə salan bu yeni dinin zəif cəhətlərini tapmaq fikrində idi. Bu zaman məclisdən bir nəfər qəzəblə bağırdı:

**Sizə siz parça-parça olub dağılandan sonra yenidən yaradılacağınızı xəbər verən bir adam göstərəkmi? Görəsən, o, Allaha qarşı özündən yalan uydurur, yoxsa bir dəliliyi var?»**[1]

O dövrdə ölümdən sonrakı həyata, ölülərin diriləcəyinə inanmaq ya dəlilik hesab olunurdu, ya da Allaha töhmət vurmaq. Cansız bir madədən həyat çeşməsinin coşması qəribə, inanılmaz görünür, bu əqidə dəlilik hesab olunurdu. Əbəttə, bu təfəkkür tərzi açıq-aşkar azğınlıqda olan, uzun illər elm nəsiminin keçmədiyi bir cəmiyyət

---

[1] *Səbə surəsi, ayə 7-8.*

üçün gözlənilən idi. Amma maraqlısı budur ki, Qurani-Kərim gözəl dəlillər, maraqlı misallar, hamının başa düşəcəyi tərzdə asan məntiq üslubu seçib böyük hesab gününü sübuta yetirir. Qurani-Kərimdə çox az səhifə tapmaq olar ki, orada məaddan, ya ona aid məsələlərdən danışılmasın. Bu da bu səmavi kitabın məad məsələsinə verdiyi əhəmiyyətin bariz nümunəsidir.

Ümumilikdə məad ayələrini məntiq və istidlal baxımından 7 qismə bölmək olar. Bunlardan hər biri bu əhəmiyyətli məsələyə ayrı-ayrılıqda açıq yol və aydın dəlildir.

### *Birinci yol: İlkin yaradılışı xatırlatmaq*

**Məgər Biz ilk yaradılışdan acizmi qaldıq?! Xeyr! (Eləcə də qiyamət günü ölüləri diriltməkdən aciz qalmayacağıq!)**[1]

Bədəvi ərəbin gözü səhrada bir insan sümüyünə düşdü. Onun camid beynində sanki ildırım çaxdı. Fikirləşdi: Muhəmməd (s) bu sümüyün yenidən cana gəlib diriləcəyini deyir, nə qəribə əfsanədir. Bütlərə and olsun, bununla onun məntiqini yerlə yeksan edəcəyəm...

Sümüyü götürüb tələsik şəhərə gəldi və Peyğəmbəri (s) axtarmağa başladı. Həzrəti görən kimi bağırdı:

**Çürümüş sümükləri kim diriltdə bilər?!**[2]

Bu zaman Quran ayələri baharın həyat bəxş edən yağışı kimi Həzrətin qəlbinə éləndi və Həzrət şirin və aydın məntiqlə ona cavab verdi:

**De: «Onları ilk dəfə yoxdan yaradan diriltdəcək.**[1]

---

[1] *Qaf surəsi, 15.*

[2] *Yasin surəsi, ayə 78.*

**Məgər göyləri və yeri yaradan (bir daha) onlar kimisini yaratmağa qadir deyilmi?!**[2]

Başqa ayələrdə də bu məntiqə nisbətən qısa şəkildə işarə olunur:

**(O gün insanları) ilk dəfə (yoxdan) yaratdığımız kimi qaytarıb (dirildib) əvvəlki halına salarıq.**[3]

İndi isə geri qayıdıb bəşərin ilk yaradılış zamanına nəzər salaq.

… Birdən böyük odlu bir parça günəş kürəsindən ayrılıb fasiləsiz olaraq onun ətrafında dövr etməyə başladı. Sonralar buna "Yer kürəsi" deyildi. Bu parça o qədər yandırıcı və şöləli idi ki, ona baxan buranın bir zaman gözəl bağlar, çaylar, quşlar və nəhayət insanlar məskəni olacağına əsla ehtimal verməzdi. O zamandan indiyə kimi nə qədər vaxt keçdiyini bilmirik, ola bilər ki, beş milyon il bundan qabaq olsun. Milyon illər Yer kürəsi elə qaynar bir od olaraq qaldı.

Oksigen və hidrogen qazlarının havada bir-biri ilə reaksiyaya girməsindən su buxarı meydana gəldi. Zaman keçdikcə hava yuxarı təbəqələrdən başlayaraq soyumağa başladı, su buxarları ilə kifayət qədər dolandan sonra dəhşətli yağışlar yağmağa başladı. Amma yer üzəri o qədər yandırıcı temperatura malik idi ki, yağış yerə çatmadan yenidən buxar olub qalxırdı. Və beləcə çox uzun illər boyu dənizlər yerlə göy arasında sərgərdan qaldı, nə

---

[1] *Yasin surəsi, ayə 79.*

[2] *Yasin surəsi, ayə 81.*

[3] *Ənbiya surəsi, ayə 104.*

yerə enməyə imkan oldu, nə də havaya qalxmağa. Lakin bu get-gəllər tədricən yeri soyutmağa başladı və sonunda su yerlə təmas etdi. Bu dövrdə də yer üzərində ildırım, vulkan, tufan kimi təbii hadisələrdən başqa bir səs eşidilmirdi.

Birdən yer üzərində qəribə və ilk olaraq bir inqilab baş verdi, dənizlərdə ilk varlıqlar meydana gəldilər. Tədricən hər yerdə bitkilər göründü, daha sonra mikrovarlıqla və daha sonra müxtəlif heyvanlar dənizləri və səhraları tutdu.

Amma heç kim hələ də bilmir ki, cansız maddələrdən canlı aləm necə yaranıb. Bircə bunu bilirik ki, müəmalı amillər bir-biri ilə təmasa girib bu sirli aləmi yaradıblar.

Buna əsasən aydın görürük ki, bizim indiki bədənimizin hissələri bir zamanlar dağınıq şəkildə bir-birindən çox-çox uzaqlarda idilər. Lakin bu məsafələrə baxmayaraq bir gün bir yerə toplanaraq bizim bədənimizi təşkil etdi. Məgər bunun təkrarlanması, torpağa dönmüş zərrələrin birləşib yenidən həyata dönməsi təəccüblüdür?

Savadsız cahil bi bədəvi ərəb bunu qeyri-mümkün və dəlilik əlaməti kimi bilirdisə, bu gün biz elmin inkişafı ilə bunu əməli surətdə və əyani olaraq bilirik. Bu, elə filosofların dolğun və qısa şəkildə dedikləri bu ifadədir: Əmsalın hökmü mümkündə də, qeyri-mümkündə də vahiddir.

## Məadı dəfələrlə görmüşük

### *İkinci yol*

Əksəriyyətimizin dünyagörüşündə bu böyük eyib gözə dəyir: Gündəlik həyatda yalnız istisna hallarında qarşılaş-

dıqlarımız bizim diqqətimizi özünə çəkir. Bızimlə həmişə olanlar isə - qəribə, maraqlı və ibrətamiz olsalar da – diqqətimizi çox az özlərinə cəlb edirlər.

Bir mənzərə, bir tablo, bir libas nə qədər əhəmiyyətsiz olsa da, əgər indiyə qədər gördüklərimizdən fərqlidirsə, o zaman cazibədar bir şey kimi hamini ətrafına toplayacaq. Amma bu cahanın ən zərif, ən sirli, ən gözəl bir varlığı, əgər həmişə yanımızdadırsa, heç vaxt fikrimizdə, ruhumuzda təlatüm yaratmayacaq.

Elə fövqəladə insanlar vardır ki, bircə eyibləri vardır. O da budur ki, onlar bizim yanımızdadır, əlimiz onlara çatır. Elə ona görə də nə onların fərasətinə əhəmiyyət veririk, nə ali fikirlərinə, nə də böyük ruhiyyələrinə. Əksi də belədir. O qədər dəyərsiz insanlar var ki, ona saysız-hesabsız ehtiram göstəririk. Çünki artıq ölüblər, əlimiz onlara çatmır. Bu, səthi və avamcasına olan bir təfəkkür tərzidir.

Mətləbdən uzaq düşməyək. Təbiət aləmində dəfələrlə ölülərin dirilməsini görmüşük, lakin gözümüzün önündə olduğuna görə nəzərimizi cəlb etməmişdir.

Payız fəsli gəlir. Təbiət rəngini qoruyub saxlayan səhra və biyabanlara qədəm qoyuruq. Hər yer rəngi qaçmış və solğun görünür. Yarımcan olan yarpaqlar budaqlardan asılmaqda son cəhdlərini də bitirib küləklə sovrulub gedirlər. Solğun budaqlar da həyat fəaliyyətlərini bitirib yavaş-yavaş (ölümün qardaşı və bərabəri olan) dərin yuxuya gedirlər. elə soyuq, quru və ruhsuz olurlar ki, sanki heç həyat nəsimi onlara dəyməyib. Təbii olaraq qış fəsli də onlara daha çox təsir edir. Nə təravətləri qalır, nə çiçəkləri, nə də yarpaqları. Ölülərin sümükləri kimi quru

skeletdən başqa heç bir şey qalmır. Bu səhnə quru səhralarda, xüsusilə Hicaz səhralarında daha aydın görünür. Bu səhraların qış mənzərəsi köhnə və tərk edilmiş qəbristanlıqları xatırladır.

Lakin bir neçə ay sonra öz həyat bəxş edən nəsimi ilə bahar gəlir. Xoş və ürək açan hərarəti ilə, bərəkəti ilə təbiətə sevinc gətirir. Ölü ərazilər canlanır, baharın məsihayi nəfəsilə ağacların ölü skeletləri yenidən həyata başlayırlar. Atılmış qəbristanlıq qoxusu gələn həmin səhralar yenidən gül-çiçəyə qərq olur, həyata dönürlər. Təbiət aləmini başdan-başa böyük bir məad (qayıdış) əhatə edir, qiyamət bərpa olur.

Hər il gözümüzün önündə baş verən təbiətin bu ölüm və həyatı insanların da ölümdən sonra həyatına və dönüşünə canlı bir nümunədir. Nə fərqi var ki. Ölüm və həyat qanunu hər şey üçün eynidir. Əgər ölümdən sonrakı həyat qeyri-mümkündürsə, o zaman ölmüş torpaqlar da bu qanundan istisna olunmamalıdır. Yox əgər mümkündürsə, insanlar üçün də mümkündür. Əgər dünən həyatdan heç bir əsər-əlamət olmayan, hətta xarabalıqların sakini olan bayquşların da qaçdığı qurumuş bir səhra bu gün havanın hərarətinin bir neçə dərəcə artması, bir neçə lətif nəsimin əsməsi və bir qədər bahar yağışının yağması ilə elə canlı və təravətli olursa, o zaman bu qanunu niyə insanların ölüm və həyatına da şamil etməyək? Bu ikisinin arasında nə fərq vardır? Bu, dəfələrlə müşahidə etdiyimiz məad səhnələrindən biridir.

Qurani-Kərim insanların məad məsələsini sübut etmək üçün bu həqiqəti incə bir tərzdə belə deyir:

**1. Buludları hərəkətə gətirən küləkləri Allahdır göndərən! Biz (o buludları) quru (ölü) bir məmləkətə tərəf qovub, öldükdən sonra torpağı onunla dirildirik. (Ölüləri) diriltmək də belədir!**[1]

Burada insanların ölümdən sonra dirilmə məsələsi bitki aləminin dirilməsi ilə müqayisə olunur.

**2. Biz göydən bərəkətli su endirdik, sonra onunla bağlar və biçilən taxıl dənələri yetişdirdik. Həm də tumurcuqları bir-birinin üstünə düzülmüş, hündür xurma ağacları. Bəndələrə ruzi olsun deyə! Biz onunla (o su ilə) ölü bir məmləkəti cana gətirdik. (Qəbirlərdən dirilib) çıxmaq da belədir!**[2]

**3. Sən yer üzünü qupquru görərsən. Biz ona yağmur endirdiyimiz zaman o, cana gəlib qabarar və hər növ gözəl bar gətirər. Bu ona görədir ki, Allah haqdır, ölüləri dirildir və O, hər şeyə qadirdir!**[3]

Buna əsasən bir gün cahiliyyə ərəblərinin ağlasığmaz, qeyri-mümkün və dəlilik əlaməti kimi qəbul etdikləri ölümdən sonrakı həyat məsələsi əslində hiss olunan və əyani bir formada hər il bizim gözümüzün önündə cilvələnir.

---

[1] *Fatir surəsi, ayə 9.*

[2] *Qaf surəsi, ayə 9-11.*

[3] *Həcc surəsi, ayə 5-6.*

## Mühüm bir irada cavab

Bu məqamda bəzilərinin mühüm hesab edə biləcəkləri bir irad nəzərə gəlir:

Ölümdən sonra insanın dirilmə məsələsi ilə bahar fəslində ölmüş torpaqların həyata dönməsi arasında çoxlu fərqlər vardır. Çünki torpaqda və bitkilərdə ölümün həqiqi omadığını bilirik. Bu, sadəcə həyat şöləsinin çəkilməsidir. Qış fəslində ağaclar ölmür, sadəcə yuxuya gedib sakit olurlar. Onların kökündə, budaqlarında həyat zərəcikləri qışda da qalır. Elə ona görə də qurumuş ağacla soyuqdan donmuş ağac fərqlidir. Eləcə də torpaqalr həqiqi mənada ölmür. Çünki onun qatlarında çoxlu canlı bitki toxumları olur, münasib mühit tapan kimi cücərməyə başlayırlar. Əks təqdirdə bitki toxumları olmayan torpaqlara min il də yağış yağsa, dirilən deyillər. Bu da insanın həqiqi ölümündən çox fərqlidir.

Bu iradın cavabında iki məsələyə diqqət etmək lazımdır:

1. Bilmək lazımdır ki, otların toxumları, ya ağacların çəyirdəkləri kiçik bir hüceyrədən başqa bir şey deyil. Bu halda bəs necə olur ki, həmin kiçik toxum yüzlərlə budağa, yarpağa çevrilir? Demək ölmüş təbiət aləminin maddələri və hissələri olan cansız torpaqlar, yerin zərrələri, suyun damlaları, havanın oksigen və karbonu həmin toxumun bir hissəsi olmaqla onu böyüdür, bu cansız madələrdən canlı bir varlıq meydana gəlir.

Bu zaman ölmüş bir torpağın diri varlıqlara çevrildiyini deyə bilmərikmi? Bundan başqa Qurani-Kərim də ölü ağacların dirildiyini demir, deyir ki, ölü torpaqlar dirilir. Yəni təkcə ot və ağacların bir hissəsinə çevrilən zərrələr dirilir.

2. Əgər yer üzərində həyatın yaradılış başlanğıcına baxsaq, məsələ tam aydın olar. Çünki əvvəl yer üzü yandırıcı bir od idi, heç bir canlı mövcud deyildi. Ötən bəhslərdə deyildiyi kimi uzun bir prosesdən sonra, hələ də sirri bilinməyən formada ölü aləmdən canlılar yarandı. Bu da ölmüş bir ərazinin dirilməsi deməkdir.

# MƏAD VƏ ENERJİLƏRİN DÖNÜŞÜ

***Üçüncü yol***

Hər kibrit çöpünü yandırdıqda ondan xüsusi hərarət enerjisi çıxır. Elə bir hərarət və istilik ki, bəlkə də əlli il bundan qabaq günəşdən ayrılıb. Hamı onun yox olduğunu düşündüyü halda müəmmalı bir tərzdə kibrit çöpündə qalmışdır. Yalnız bir kibriti yandırmağımızla onun məadı (dönüşü) baş verir.

Neft, ya benzinə də od vurduğumuz an ondan hərarət enerjisi çıxır. Bu da milyon illər bundan qabaq günəşdən ayrılan həmin enerjidir ki, yerin dərinliklərində qalmış, indi yandırmaqla onun məadını (dönüşünü) müşahidə edirik.

Qurani-Kərim məad bəhsində onun səhnələrini təsvir etmək üçün bu dünyada bu mövzulara işarə edir, enerjilərin dönüşünü maraqlı misallarla gözlərimiz önündə canlandırır.

Bu bəhsi diqqətlə oxuyun. Atom enerjisindən başqa bütün enerjilərin mənbəyi Günəşdir. Bu, nə cahilanə bir sözdür, nə də mübaliğə. Tam bir həqiqətdir. Misal üçün bəzi enerjilərin mənbələrini araşdıraq. Bu enerjilərin hər birinin tarixini vərəqləyəndə onların əsl amili olan günəş nurundan bəhrələndiyini görürük.

1. Daş kömür. Adından məlum olduğu kimi ağacların əsrlər boyu qalan qalıqlarıdır ki, yer üzərində baş verən müxtəlif təbii hadisələr nəticəsində yerin dərinliklərində

yatıb qalmıış, zaman keçdikcə daş kömür halını almışdır. Tezliklə biləcəyik ki, ağaclarda toplanan enerjilərin mənbəyi günəşdir.

2. Neft. Son nəzəriyyələrə görə kiçik və böyük dəniz heyvanlarının uzun əsrlərdən bəri yığılan çöküntüləridir ki, hava və yer şərtlərinin dəyişməsi nəticəsində dəfn olunmuş, bir neçə mərhələli deformasiyadan sonra yaradılışın qəribə qüdrət əli ilə "qara qızıla" çevrilmişdir. Deyilənə görə onun bir-birindən fərqli və faydalı çoxlu növləri vardır. Tezliklə biləcəyik ki, heyvanların yaradılış sərçeşməsi və onların bədənlərində olan enerji mənbəyi günəş işığındandır.

3. İşıq istehsal edən stansiyalar. Bunların da enerji mənbəyi ya sudur (çaylar üstündə qurulan sədlərin sıxıntısından əmələ gəlir, bunların da günəşlə əlaqəsi məlumdur. Belə ki, dənizləri suyunun buxarlanması, buludların yaranması, yağışın yağması günəşin təsiri ilədir), ya da neft və bu kimi yanacaqların köməyi ilə olur ki, bunlarında enerji mənbəyinin günəş olduğu sübuta yetməkdədir.

4. Küləklər. Yel dəyirmanlarının, eləcə də yelkənli qayıqların enerji mənbəyi hesab olunur. Küləyin günəşlə əlaqəsi digərlərindən daha aydındır. Belə ki, günəşin yer üzünün müxtəlif ərazilərinə hərarəti fərqli olduğundan havanın bir yerdən başqa yerə sıxılaraq hərəkət etməsinə səbəb olur.

5. Heyvanlar. Enerji mənbəyi hesab olunan heyvanlar bitkilər olmadan həyat sürə bilməzlər. Çünki bütün heyvanlar ya ot yeyən olur, ya da ot yeyən digər

heyvanlarla qidalanan. Hətta dəniz heyvanları da bu qanundan istisna olunmur.

6. Günəş işığı olmadan (birbaşa, ya vasitə ilə) otların və ağacların bəslənməsi mümkün deyil. Elə buna görə də dənizin günəş şüası düşməyən dərinliklərində mütləq surətdə bitkilər olmur.

Əlbəttə, nadir enerjilər tapmaq olar ki, günəşdən faydalanmasın. Məsələn, dəniz sularının ay işığından təsirlənən enmə və qalxmaları. Bunlardan bəzi suvarma işləri, ya işıq enerjisi istehsalında istifadə olunur. Amma dediyimiz kimi bunlar çox nadir hallardır.

## Odun istiliyi günəşdəndir

Deyirlər ki, odun istiliyi özündəndir. İlkin nəzərdə bu, doğru görünür. Çünki od olan yerdə istilik olur. İstiliyi oddan çıxsaq, daha ona od deyilməz. Terminlər dili ilə desək, bu keyfiyyət onun zati xüsusiyyətlərindən hesab olunur.

Lakin diqqətlə baxsaq görərik ki, bu istilik bir zaman günəşdə idi. Günəşin şüalarının yerə saçmasıyla istilik də yerə gəldi və sirli bir şəkildə yanar hesab olunan (məsələn) ağacın tərkibində yerləşdi. Ayların, illərin keçməsi, qar və yağışların yağması onun daxilindəki bu odu söndürə bilmədi.

Daha sadə dil ilə desək, əgər kibrit çöpünün istehsal etdiyi od, ya meşə yanğınından yaranan od yüz illər, ya min illər boyu tədricən günəşdən alınan enerjilərin cəmidir. Bu hadisələrdə əvvəldən yığılan enerjilərin bir anda sıçrayışı bizi məsələn dəhşətli bir meşə yanğını ilə qarşı-qarşıya qoyur.

Deyəcəksiniz ki niyə?

Kimya elmində bir qanunumuz vardır. Bunu izah etməklə yuxarıda deyilənlər daha aydın olacaq. Hər bir kimyəvi tərkib və ya hissə iki haldan birinə malikdir; ya enerji verir, ya da alır. Məsələn, bir neçə damcı su yaratmaq üçün bir qədər oksigen və hidrogeni bir şüşədə yerləşdiririk. Lakin görürük ki, bu iki element bir-biri ilə reaksiyaya girmədi və nəticədə su yaranmadı. Bir kibrit yandırıb şüşənin ağzına tuturuq, reaksiya verir və bu iki element bir-birində həll olub su damcıları yaradırlar. Buradan nəticə alırıq ki, su – hərarətin oksigen və hidrogenlə birləşməsidir.

Bu suyu illərlə ağzı bağlı şüşədə saxlasaq və sonra onu analiz etsək, görəcəyik ki, bir zərrə də azalmadan oksigen və hidrogen geri qayıdır. Bundan əlavə həmin o bir kibritin də "hərarəti" geri qayıdır və istilik verir.

Birinci surətdə (su yaradılan zaman) deyirik: Bizim kimyəvi tərkibimiz bir enerji aldı. İkinci surətdə isə deyirik: Bu kimyəvi bölünmə enerji hasil etdi.

İndi isə qayıdaq ağacların enerji məsələsinə. Ağaclar üzərində keçirilən kimyəvi araşdırmalar bizə deyir ki, burada oksigen, hidrogen, karbon və bir qədər duz vardır. Duzlar yerdən, oksigen və hidrogen isə sudan alınır. Karbon isə havadan alınır. Çünki havada mövcud olan qazlardan biri oksigen və hidrogendən mürəkkəb olan carbon qazlarıdır. Günəş şüalarının düşməsi ilə ağaclar havadakı qazları bir-birindən ayırıb təkcə karbonu özlərinə çəkir, oksigeni isə havaya buraxırlar. Elə buna

görə deyirik ki, ağaclar havanı təmizləyir, bizə təmiz oksigen verir.

Lakin bu ifadəni unutmayaq: "Günəş şüalarının düşməsi ilə". Bu, məna dolu bir ifadədir. Ağaclar, ümumiyyətlə bitkilər bəslənərkən və qida qəbul edərkən günəş enerjisindən də bir qədərini özündə saxlayır. Təbiidir ki, ağac yanarkən və hissələrindən oksigen və hidrogen (yəni su) ayrılarkən yerdə qalan oksigenli karbon illər boyu saxladığı günəş hərarətini sürətlə ixrac etməyə başlayır.

Bu məsələ aydın oldu. Qayıdaq Qurani-Kərimə baxaq. Görəcəyik ki həmin bu misalla enerjilərin dönüşünü bizim gözümüzün önündə canlandıracaq.

## Enerjilərin dönüşü

**Kibrit çöpü, ya odun və daş kömürlə gördüyümüz alovların hər biri enerjilərin məadının bir səhnəsidir. Diqqət edin, Qurani-Kərim qısa bir cümlə ilə bu həqiqəti necə bəyan edir.**

Keçən bəhsimizdə aydın dəlillərlə sübut etdik ki, nüvə enerjisindən başqa yer üzərində olan təxminən bütün enerjilərin mənbəyi günəşdir. Görək Qurani-Kərim bu barədə nə deyir? Yasin surəsinin son ayələrində məad haqında deyilən söhbətdən sonra belə oxuyuruq:

**O yaradan ki, sizin üçün yaşıl ağacdan (Ərəbistanda bitən mərx və ifar ağaclarından) od əmələ gətirdi. Budur, siz indi ondan (o iki ağacı birbirinə sürtməklə) od yandırırsınız».**[1]

---

[1] *Yasin surəsi, ayə 80.*

Bilmək lazımdır ki, bu ayənin də başqa ayələr kimi bir neçə mənası vardır. Bu mənaların bəziləri sadə və hamının başa düşəcəyi tərzdə, bəziləri xüsusi təfəkkürə malik olanlar üçün nisbətən dərin, bəziləri isə daha xüsusi düşüncə tərzləri olanlar üçün, ya gələcək zamanın təfəkkür tərzinə münasib daha dərin mənalardır.

Bu ayənin birinci mənası bəzi keçmiş təfsirçiləri dediyi kimi bundan ibarətdir ki, keçən dövrlərdə ərəblər od əldə etmək üçün Hicaz çöllərində bitən ağaclardan "mərx" və "ifar" adlı iki çubuqdan istifadə edərdilər. Ayə də buna işarə edib deyir ki, sudan (yaşıl ağacların tərkibinin böyük qismi sudur) od yaradan Allah ölüləri də dirildə bilər. Ayə demək istəyir ki, məgər ölümün dirilik ilə olan məsafəsi suyun odla olan məsafəsi qədər deyilmi? Odu suyun içində, suyu da odun içində saxlayan yaradan ölümdən sonra insana həyat verə bilməzmi?

Bu mənanı keçəndən sonra bir az da diqqət etsək görərik ki, burada söhbət təkcə mərx və ifar ağaclarından getmir, bu, bütün ağaclara aiddir. Təkcə o iki ağac deyil, digər ağaclarda da bu xasiyyət (sürtməklə alovlanmaq xasiyyəti) mövcuddur. Elə buna görə də bəzən cəngəlliklərdə insan əli olmadan da yanğınlar yaranır. Küləklərin vasitəsilə bəzən yarpaqlar və budaqlar bir-birinə sürtünməklə alov hər yeri əhatə edir. Bu, əslində cahanda bütün varlıqların daxilində gizlənən enerjilər toplusudur ki, şərait yaranan kimi özlərini büruzə verirlər.

Müasir elmin vasitəsilə əldə olunan daha dərin məna isə bundan ibarətdir ki, günəşdən yiğilan enerjilər kimyəvi tərkiblər zamanı görünür və bir məsələn çubuğu

yandırarkən karbonun oksigenlə birləşməsindən ortaya çıxır. Məsələn qışda bir kəndlinin sobada yandırdığı odundan yaranan təbii hərarət və işıq əslində həmin yanmaqda olan ağacın uzun illər boyu günəşdən aldığı enerjiləri heç bir zərrə də əskilmədən yenidən qayıtmasıdır. Sözsüz ki, bu məna ayə nazil olan zamanın insanlarına məlum deyildi. Lakin dediyimiz kimi bu mövzu heç bir müşkül yaratmır. Çünki Quran ayələrinin bir neçə mərhələli mənaları vardır ki, müxtəlif zamanlara məxsus olan müxtəlif səthli təfəkkür tərzləri üçün dərk olunan qədər sadə olsun. Ayə nazil olan zamanda ondan bir məna anlaşılırdı, indi isə ondan daha artıq və əhatəli bir məna almaq mümkündür.

## İki maraqlı məqam

Maraqlı budur ki, yuxarıda qeyd olunan ayədə iki ifadə gözə dəyir ki, sonuncu təfsirə daha uyğun gəlir.

1. Quran bu ayədə deyir: **“توقدون”** ***(od yandırırsını.)*** Bu kəlmə “vuqud” kökündəndir. Ərəb dilində də bu, “od almaq” deməkdir, nəinki “od vurmaq”. Başqa sözləbiz kibrit, ya alışqanla bir çubuğu yandırdıqda öz dilimizdə çubuğa “odlanan”, kibrit, ya alışqana isə “od vuran” deyirik. Ərəb dilində də çubuğa “vuqud” (odlanan) deyilir, kibrit , ya alışqana isə “zənəd” (od vuran) deyilir.

Buna əsasən də Quran deyir ki, ağacları sizin üçün “odlanan” (alovlanmağa imkanı olan) etdik, bununla da siz ondan işıq və hərarət icad edirsiniz. Həmin Allah ölüləri yenidən həyata qaytarmağa qadirdir.

Belə olduqda bu məna enerjilərin məadına kamil surətdə tətbiq olunur. Təfsirçilərin bu ayənin təfsirində

mərx və ifar çubuqlarını işlətmələri isə daha çox “zənəd” (od vurmaq) mənasına münasibdir.

2. İkinci məqam “yaşıl ağac” ifadəsidir. İlk baxışdan yaşıl ağacdan od əldə oluna bilməyəcəyi nəzərə gəlir. Bəlkə də düşünənlər ola bilər ki, bu ifadənin yerinə “quru ağac“ deyilsəydi yaxşı olardı.

Amma bilmək lazımdır ki, karbon alan, günəş işığını özündə toplaya bilən yalnız yaşıl və canlı ağaclardır. Quru ağac günəş şüası altında yüz il də qalsa onların enerji mənbəyində heç nə artmaz.

Bu, Qurani-Kərimdə enerjilərin məadının (dönüşünün) bir nümunəsi idi. Bu həm də səmavi kitabın elmi möcüzələrindəndir.

# MƏAD NİYƏ MÜMKÜN OLMASIN?

## *Dördüncü yol*

Allahın varlıq aləmindəki qüdrət nişanələrinə nəzər salaq. Əhqaf surəsinin 33-cü ayəsində oxuyuruq:

**Məgər onlar göyləri və yeri yaratmış və onları yaratmaqdan yorulmamış Allahın ölüləri də diriltməyə qadir olduğunu görüb anlamırlarmı? Bəli, O, hər şeyə qadirdir!**

Yayda bir meşənin içindən keçirik. Meşənin təbii gözəlliyi, içində müəmmalar gizlətmiş sakit duran ağaclar, külək və tufanlara meydan olan yarpaqların səsi, hər birinin uzun dastan daşıdığı heyvan və həşəratlar, uzun zamanlara şahid olmuş meşə ərazisi və torpağı oradan keçən hər bir yolçuya fərəh və xoş xatirələr yaşadır. Xüsusilə zamanımızın cansız texnologiyasindan yorulmuş və bezmiş insanlar təbiət qoynuna getməklə ölmüş ruhiyyələrinə həyat vermək istəyirlər.

Bir ağacın qarşısında dururuq. Biz onun 30 yaşlı bir ağac olduğunu hesab edirik. Bəlkə də o, min dəfələrlə yenidən göyərmiş, sonra ölüb dirilmiş, quruyub torpağa qarışmış, sonra yenə də kiçik bir budaq, ya bir toxumunun sayəsində cücərmiş və yeni həyata başlamışdır. Hələ məlum deyil ki, gələcəkdə də neçə dəfə bu ölüb dirilmək təkrarlanacaq...

Əgər bütün varlıq aləmini bu cəngəlliyə bənzətsək və bu günəş sisteminin meşədəki bir ağac kimi təsəvvür

etsək, ola bilər ki, min dəfələrlə ölüb sonradan dirilmiş olsun. Bundan başqa geofiziklər də cahanın tədricən sönməsini, yeknəsəq bir soyuqluğun tədricən yaranmasını, sonra isə yeni bir partlayışla yeni həyatın başlayacağını xəbər verirlər.

Həqiqətdə bizim həyatımız böyük bir okeanın ortasında olan bir yarpağın üstündəki bir ovuc xırda varlıqların həyatına bənzəyir. Sadəcə bizi yuxarı-aşağı edən dalğaları görrük. Bu dalğaların haradan gəldiyi barədə isə heç bir təsəvvürümüz yoxdur. Ona görə də varlıq aləminin əzəməti barədə deyəcəklərimiz yalnız kiçik bir şüadır, yaradılış qarşısında çox məhdud və cılız olan bir şüa.

Bilirik ki, keçmişdə bu cahanın miqyasını 3.000.000.000 işıq ili kimi təxmin edirdilər. Son dövrlərdə tədqiqatçı alimlərdən biri öz axtarışlarında 12.000.000.000 illik məsafəsi olan bir ulduz kəşf etdi. Düzdür, bu alim o ulduzdan sonra qaranlıq boşluqların başlaması ilə heç bir şey olmadığını iddia etdi. Amma yaxşı olar ki, qaranlığın bizim məlumatlarımızı kölgədə qoyduğunu və zəif olduğumuzu etiraf edək. Çünki elə bir neçə ilin içində kəşf edilən aləm 4 dəfə böyüyüb və yenə artmaq ehtimalı vardır.

Bu böyük cahanda təsəvvür edə biləcəyimiz hər növ canlı vardır. Təkcə bu yer üzündə və təkcə həşəratlar aləmində alimlərin kəşf etdiyi 2.000-dən çox həşərat növü vardir və hər biri digərindən fərqlidir. Əgər təbiət elmləri sahəsində alimlərin sözünü qəbul etsək, onda deməliyik ki, günəş sisteminin də daxil olduğu kəhkəşanda həyat

üçün münbit on milyonlarla ulduz və təsəvvür edə bilmədimiz müxtəlif varlıqlar mövcuddur. Onların necəliyi və necə yaşadıqları da bizə məlum deyil. Bununla da bu cahanda həyatın müxtəlifliyinin necə qəribə olduğunu başa düşürük.

Qurani-Kərim bu məqamda buyurur:

**Məgər onlar göyləri və yeri yaratmış və onları yaratmaqdan yorulmamış Allahın ölüləri də diriltməyə qadir olduğunu görüb anlamırlarmı? Bəli, O, hər şeyə qadirdir!**[1]

Məgər ölüləri diriltmək bu böyük cahanı və orada olan varlıqları yaratmaqdan daha çətindir? Məgər bu, qüdrət göstəricisi Yaradanın buna qadir olduğuna dəlil deyilmi? Təkcə özlərinə və öz qüdrətlərinə qapılmış kəslər belə bir şeyi qeyri-mümkün hesab edə bilərlər. Daha geniş elmi baxışları olan fərasətli alimlər isə bu dar təfəkkür tərzinə gülər və insanın ölümdən sonra həyata qayıdışını çox sadəliklə etiraf edərlər.

Yasin surəsinin axırında da bu məntiq öz əksini tapır:

**Bir şeyi (yaratmaq) istədiyi zaman (Allahın) buyurduğu ona ancaq: «Ol!» deməkdir. O da dərhal olar. Hər şeyin hökmü əlində olan (Allah) pakdır, müqəddəsdir. Siz də (qiyamət günü dirilib) Onun hüzuruna qaytarılacaqsınız!**[2]

Yuxarıda qeyd olunan ayələrlə yanaşı bu iki ayə də məadın mümkünlüyünü Allahın qüdrətinin ümumiyyətilə isbat edir.

---

[1] *Əhqaf surəsi, ayə 33.*

[2] *Yasin surəsi, ayə 82-83.*

Allahın qüdrətinin ümumiyyətindən danışarkən və məad isbatında bu məsələ müzakirə edilərkən bəzilərinin insanı "sərgərdan" qoyduğu hesab edilən bir iradı qeyd etmək istəyirik.

Deyirlər ki, əgər Allahın qüdrətinin ümumiyyətini qəbul etsək, o zaman qəribə bir ziddiyyətlə qarşılaşırıq. O da bundan ibarətdir ki, görəsən Allah özünün də hərəkət etdirə bilməyəcəyi əzəmətli bir varlıq yarada bilər? Ya məhv edə bilməyəcəyi bir varlıq yarada bilər? Əgər yarada biləcəyini desək, onda onu hərəkət etdirə bilməyəcəyini qəbul etmiş oluruq. Əgər yarada bilməyəcəyini desək, o zaman da Onun qüdrətini inkar etmiş olacağıq.

Bəziləri isə belə irad olaraq deyirlər ki, Allah öz tayını yarada bilər? Əgər müsbət cavab versək, ona şərik qoşarıq, mənfi cavab versək, yenə onun qüdrətini inkar etmiş olarıq.

Bəzilərinin şövq-zövqlə dilə gətirdikləri bu irad əslində nə o qədər mühüm, nə də o qədər insanı məəttəl qoyandır. Bu irada müxtəlif cavablar verilib. Lakin yeni üslubda bu cür cavablandırmaq olar: Riyaziyyatda bəzən elə məsələlərlə qarşılaşırıq ki, deyirlər "bu məsələnin surəti (əsli) səhvdir". Yəni ümumiyyətlə məsələnin cavabı yoxdur. Məsələn, 10 metr parçanı 5 nəfərin arasında bölmək istəyirik, amma hər nəfərə 5 metrdən az pay düşməmək şərtilə. Bunu eşidən dərhal məsələnin kökündən yanlış olduğunu deyəcək. Belə məsələlərin ümumiyyətlə cavabı yoxdur.

Allahın qüdrəti ilə əlaqədar olan bu iradlar da belədir. çünki əvvəlcə deyirik “Allah bir cism yarada bilərmi ki, ...” (halbuki cism məxluqdur, və nəticədə məhduddur), sonra isə deyirik ki, “...onu hərəkətə gətirməyə bilər?”, yəni cismi məhdud olmayan bir varlıq hesab edirik. Deməli bu sualımız əslində belə səslənir: Allah məhdud olan və olmayan bir cism yarada bilərmi?

Aşkar görünür ki, sualınbu formada qoyulması tatamilə səhvdir və təbii ki, cavabı da yoxdur.

Həmçinin şərik yaratmaq iradı da eyni cürdür. Çünki deyirik “Allah bir mövcud yarada bilərmi?...” (yəni əzəli olmayan bir varlıq), sonra isə “... ki, özünə tay olsun” (yəni əzəli olsun) deyə sualı davam etdiririk. Bu iradın da əsli belə səslənir: Allah həm əzəli olan, həm olmayan bir varlıq yarada bilərmi?

Bu formada olan sualların cavabı varmı? Əlbəttə ki yox. Daha çox məlumat almaq üçün “Allahı necə tanıyaq” kitabına müraciət edin.

## Ufsus şəhərinin yatmışları

### *Beşinci yol*

**Əshabi-kəhf (mağara əhli) dastanı tarixi bir həqiqətdir? Bunun məadla nə əlaqəsi vardır?**

Belə bir uzun yuxu elmi cəhətdən mümkündür? Bunu sübut etmək olarmı?

Qurani-Kərimdə (Kəhf surəsində) bir zaman Allah və məad barəsində tərəddüdləri olan bütpərəst bir qövmün içindən çıxaraq mağaraya pənah aparan bir neçə imanlı cavanın başına gələn əhvalatı oxuyuruq:

**(Ya Rəsulum!) Xatırla ki, o zaman gənclər mağaraya sığınıb: «Ey Rəbbimiz! Bizə Öz dərgahından mərhəmət bəxş et və işimizə fərəc ver! (Bizi kafirlərin bəlasından, düşmənlərin təhlükəsindən qoru, bizə ruzi verib doğru yola yönəlt!)» - demişdilər. Biz onları mağarada illərlə (üç yüz doqquz il) yuxuya verdik. Sonra iki tayfadan (möminlərdən və kafirlərdən) hansının onların (mağarada) qaldıqları müddəti daha düzgün hesabladıqlarını bilmək üçün onları oyatdıq.**[1]

**(Gəncləri illərlə yatırtdığımız kimi) beləcə də onları bir-birindən hal-əhval tutsunlar deyə, oyatdıq. Onların biri dedi: «(Mağarada) nə qədər qaldınız?» Onlar: «Bir gün və ya bir gündən az!» - deyə cavab verdilər. Onlardan (bəziləri isə) belə dedi: «Qaldığınız müddəti Rəbbiniz daha yaxşı bilir. İndi içərinizdən birini bu gümüş pulunuzla şəhərə (Ufsusa) göndərin ki, görsün ən təmiz təam hansıdırsa, ondan sizə ruzi (yemək alıb) gətirsin. O, çox ehtiyatlı olsun (ağıllı hərəkət etsin) və sizin barənizdə heç kəsə bir xəbər (nişan) verməsin! Doğrusu, onlar sizi ələ keçirsələr ya sizi daşqalaq edəcək, ya da öz dinlərinə döndərəcəklər. Belə olacağı təqdirdə, siz (nə dünyada, nə də axirətdə) nicat tapa bilməzsiniz!» (İnsanları) onların halı ilə beləcə tanış etdik ki, Allahın (məxluqatın öləndən sonra diriləcəyi haqqındakı) vədinin doğru olduğunu və qiyamətin qopacağına əsla şübhə olmadığını bilsinlər. O zaman (möminlər və kafirlər) öz aralarında onların (əshabi-**

[1] *Kəhf surəsi, ayə 10-12.*

**kəhfin) işi (və ya insanın öləndən sonra dirilib-dirilməyəcəyi, dirilmənin yalnız ruhla, yaxud ruh və bədənlə birlikdə olacağı kimi dini məsələlər) barəsində mübahisə edirlər. (Nəhayət, əshabi-kəhf öldükdən sonra) dedilər: «Onların üstündə bir bina tikin. Rəbbi (onların öldüyünü, yaxud yenidən yuxuya getdiyini və nəyə etiqad etdiyini) daha yaxşı bilir!» Onların (əshabi-kəhfin) haqqındakı mübahisədə qalib gələnlər (möminlər) isə: «Onların (məzarı) üstündə (Allaha ibadət etmək məqsədilə) bir məscid tikəcəyik!» - dedilər.**[1]

Bu əhvalat Qurani-Kərimdən başqa bir səmavi kitabda vardırmı?

Tarixi mənbələrdə bu əhvalat danışılırmı?

Belə bir yuxu elmi cəhətdən mümkündürmü?

Yuxu vaxtında qidalanmayan bir insan üçün belə bir uzun ömür yaşamaq imkanı vardırmı?

Nəhayət bu əhvalat məad məsələsini başa düşməkdə bizə necə kömək edə bilər?

Birinci və ikinci sualın cavabında deməliyik ki, Əshabi-kəhf əhvalatı heç bir səmavi kitabda (istər əsli kitab olsun, istər təhrif olunmuş) yoxdur və olmamalıdır da. Çünki tarixin nəql etdiyinə əsasən, bu hadisə Həzrət İsanın (ə) zamanından sonrakı dövrə aiddir. Dəqiq desək, xristianlara çoxlu işkəncələr verildiyi bir dövrdə, Dəqyanusun zamanında baş vermişdir. Avropa tarixçilərinin dediyinə görə, bu, miladın 49-251-ci illərinə

---

[1] *Kəhf surəsi, ayə 19-21.*

təsadüf edir. Bu tarixçilər onların yuxusunun müddətini 157 il bilir və "Ufsusun yeddi yatmışı" adı ilə tanıyırlar.[1] Bizim aramızda isə "Əshabi-kəhf" adı ilə tanınır.

Bəs Ufsus haradadır? Türkiyənin İzmir əyalətinin cənub şərqində yerləşən qədim şəhərdir. Bura Artamis bütxanasına görə də məşhur bir yerdir.[2]

Deyilənə görə Əshabi-kəhf əhvalatı ilk dəfə V əsrdə suriyalı kilsə xadimi Jak tərəfindən siryani dilində yazılmışdır. Sonralar Qoqoyus adlı bir şəxs bu yazını latın dilinə tərcümə edərək ona "Şəhidlərin cəlalı" adını vermişdir.[3] Bu da onu göstərir ki, İslamdan iki əsr öncə bu əhvalat məsihiyyət ardıcılları arasında məşhur olmuşdur. Əlbəttə bəzi təfərrüatında (məsələn, yuxularının müddətində) İslami mənbələrdə qeyd olunanlarla fərqlər mövcuddur. Çünki Qurani-Kərim açıq surətdə onların 309 il yatdıqlarını bəyan edir.

Başqa bir tərəfdən də Yaqut Həməvinin "Möcəmul-buldan", İbn Xərdadəbənin "Əl-məsalik vəl-məmalik", Əbu Reyhan Biruninin "Əl-asarul-baqiyə" əsərlərində bildirilir ki, qədim dünya səyahətçiləri Abəs şəhəri yaxınlığında bir mağara tapıblar. Həmin mağarada bir neçə qurumuş cəsəd tapıldığından onun bu məsələ ilə əlaqədar olduğu ehtimal edilir.

Quran ayələrinin deyiliş formasından (Kəhf surəsində), eləcə də İslami mənbələrdə bu ayələrin nazil olma səbəblərini araşdıran təfsirlərdə bu hadisənin yəhudilər

---

[1] *Elamul-Quran, səhifə 153.*

[2] *Müqəddəs qamus kitabından iqtibas, səhifə 87.*

[3] *Elamul-Quran, səhifə 154.*

arasında da məşhur tarixi hadisə kimi qəbul olunduğu qeyd olunur.

## Əfsanə, yoxsa həqiqət?

Dediyimiz kimi Əshabi-kəhf əhvalatı şərq və qərbin tarixi sənədlərinə əsasən tam bir həqiqətdir.

Amma bəziləri bu uzun yuxunun mümkünlüyü barədə tərəddüd edə və elmi cəhətlərdən uyğunsuz bir məsələ kimi anlaya bilər, nağıl və əfsanələr siyahısına daxil edərlər. Çünki belə uzun müddətdə yaşamaq hətta oyaq insanlar üçün uzaq görünür, o ki qala yatmışlar üçün. Digər tərəfdən əgər oyaq insanlar üçün bunu qəbul etsək də, yatmışlar üçün bunun mümkünlüyü ağlasığmazdır. Necə ola bilər ki, yemədən, içmədən insan bu müddətdə sağ qalsın. Əlavə olaraq bütün bunlara göz yumsaq, yenə də bir irad meydana gəlir. O da budur ki, insanın bir vəziyyətdə uzun müddət qalması orqanizmdə külli miqdarda fəsadlar yarada bilər.

Bu iradlar ilk növbədə insanın gözü önündə canlana bilər. Amma əslində belə deyil. Uzuömürlülük məsələsi (hətta yüz illər boyu olsa da) elmi cəhətdən qəbul olunmuş bir həqiqətdir. Çünki heç bir varlığın yaşam müddəti hansısa bir qanunlarla tənzimlənmir. Düzdür, insanın cismani qüvvəsi məhduddur, lakin bu o demək deyil ki, bir nəfər adi ömürlərdən çox yaşaya bilməz. Bütün varlıqlarda ömrün uzun olması onların yaşadığı şəraitlə sıx əlaqəlidir. Şərait dəyişdikdə ömürlərin də uzanması, ya qısalması mümkündür. Bunu alimlərin araşdırmalarında da görürük. Onlardan heç biri ömürlərin müəyyən vaxtı barədə heç bir söz deməyib. Bundan əlavə

bəzi varlıqlar üzərində aparılan araşdırmalarda xüsusi şəraitdə saxlanılaraq adı ömürlərdən bir neçə dəfə artıq həyatın mümkünlüyü sübut olunmuşdur. Hətta bu gün bizə ümid verirlər ki, yeni elmi kəşflər sayəsində insan ömrünün indiki adi vaxtdan daha çox olması qeyri-mümkün deyil.

Eləcə də bu əhvalatda söhbət adi yuxudan gedərsə, o zaman deyə bilərik ki, insanın yuxuda olarkən qidaya olan tələbatı oyaq olduğu vaxtdan çox da fərqlənmir. Lakin bilmək lazımdır ki, təbiət aləmində uzun müddətli elə yuxular vardır ki, həmin dövrdə qida tələbatı çox cüzi miqdarda olur.

## Qış yuxusu

Təbiətdə çox sayda heyvanlar qış yuxusuna gedirlər. Bu dövrdə onların bədən fəaliyyəti demək olar ki, tamamilə dayanır. Hətta ürək döyüntüləri də normal səviyyədən çox az olur.

Alimlər bu heyvanların qış yuxusuna getmələri barədə belə deyirlər:

"Qış yuxusuna gedən qurbağa təxminən ölmüş vəziyyətdə olur, ağciyərlərində ümumiyyətlə hava olmur, ürək döyüntüləri də hiss olunmayacaq dərəcədə sakit olur. Belə varlıqlardan çox sayda həşəratları misal çəkmək olar."[1]

Bunları deməkdə məqsədimiz budur ki, yaradılış aləmində çox az qida tələb edən və fiziki fəaliyyətləri sıfıra endirən "qış yuxusu" adlı bir yuxu da vardır. Elə bu

---

[1] *Fərhəgnamə kitabından iqtibas, "Qış yuxusu" maddəsi.*

amil bəzi heyvanların uzunömürlü olmasına, qış fəslində qida axtarışına ehtiyac duymamağa səbəb olur.

## Mürtazların (yoqaların) dəfni

Bəzi mürtaz adətlərinə əsasən, gec inanan insanların gözü önündə bir mürtazı tabuta qoyub dəfn edirlər. Bu, bəzən bir həftə çəkir. Müddət tamam olandan sonra onu oradan çıxarıb masaj etmək və süni nəfəs verməklə yenidən tədricən həyata qaytarırlar. Burada qida məsələsi mühüm olmasa da oksigen çatışmazlığı problemi var. Bilirik ki, beyin hüceyrələri bu mövzuda çox həssasdır. Qısa bir müddətdə oksigen olmasa həmin hüceyrələr məhv olurlar. Bəs görəsən mürtazlar bu müddətdə bu problemi necə həll edirlər?

Dediyimiz izaha əsasən bu sualın cavabı o qədər də çətin deyil. Çünki bu müddətdə mütazın bədən fəaliyyəti demək olar ki, sıfıra çatır. Bununla da oksigen tələbatı da həddindən çox azalır. Sadəcə tabutun içində olan hava kütləsi onun həyatının davam etməsinə kifayət edir.

Buradan anlaşılır ki, mağara əhlinin yuxusu bizim bildiyimiz və adət etdiyimiz yuxulardan deyil. Nəticədə onların nə qidaya, nə də həyat üçün zəruri bildiyimiz digər amillərə adi qaydada olan miqdarda ehtiyac olmayıb.

Maraqlıdır ki, Kəhf surəsində onların əhvalatı danışılarkən yuxularının fərqli olduğu da qeyd edilir:

**(Gözləri açıq olduğu üçün) onlar yuxuda ikən sən onları oyaq sanardın. (Torpağın rütubəti bədənlərini çürütməsin deyə) Biz onları sağa-sola çevirirdik. Əgər**

**sən onları (bu vəziyyətdə) görsəydin, yəqin ki, (qorxudan) dönüb qaçar, dəhşət səni bürüyərdi.**[1]

## Ana bətnində

### *Altıncı yol*

**Ey insanlar! Öləndən sonra yenidən diriləcəyinizə şübhəniz varsa (ilk yaradılışınızı yada salın). Həqiqətən, Biz sizi (babanız Adəmi) torpaqdan, sonra mənidən (nütfədən), sonra laxtalanmış qandan, daha sonra müəyyən, tam bir şəklə düşmüş (vaxtında doğulmuş) və düşməmiş (vaxtından əvvəl doğulmuş) bir parça ətdən yaratdıq ki, (qüdrətimizi) sizə göstərək. İstədiyimizi ana bətnində müəyyən bir müddət (adətən, doqquz ay) saxlayar, sonra sizi (oradan) uşaq olaraq (doğurub) çıxardarıq.**[2]

Bir şeyə adət etmək bizim bir çox çətinliklərimizi həll etsə də, eyni zamanda bəzən bizi azdırır. Çünki bəzən əvvəllər görüb adət etmədiyimiz bəzi şeylər bizim üçün mühüm hesab olunur. Məsələn bir atın dişi əgər uzanıb ağzından çıxarsa, ya bir toyuğun dairəvi, ya üçkünc formada bir yumurtası olarsa, həe yerdə ondan danışılacaq. Lakin adət etdiyimiz elə fövqəladə şeylər vardır ki, nəzərimizdə çox sadə görünür. Məsələn eşidəndə ki, filan qadın uşaq dünyaya gətirib, deyirik, mübarək olsun. Amma heç düşünmürük ki, bu 9 ay müdətində hansı qəribə hallar baş verib.

---

[1] *Kəhf surəsi, ayə 18.*

[2] *Həcc surəsi, ayə 5.*

Maraqlıdır ki, insan dünyaya gələndən sonra bir hərəkəti etmək üçün tədricən ona öyrəşməli olur və adətən keyfiyyət yox, kəmiyyət görünür. Amma ana bətnində hər həftə, bəlkə də hər gün bir-birinin ardınca sürətlə dəyişikliklər baş verir. Bu dəyişikliklər kiçik və sadə bir sancağın bir neçə aydan sonra böyük bir təyyarə olub havada uçması qədər təəccüblü və heyrətamizdir.

Qurani-Kərim ölümdən sonrakı aləmi, yeni həyatı qeyri-mümkün, ya çətin bilənlərə deyir: Bu sürətli dəyişiklikləri və bir damla suyun kamil bir insana çevrilməsini müşahidə etmək bu zəmində olan bütün tərəddüdləri aradan aparır. Həqiqətdə ölümdən sonrakı dönüş bundan çətin olmayacaq. Necə ola bilər ki, ana bətnindəki aləm barədə məlumatlı ola-ola məadın varlığı barədə bir nəfər şəkk etsin?

Yuxarıda deyilmiş ayə əvvəlcə torpağın canlı bir varlığa çevrilməsini, sonra digər mərhələlri bir-bir saymaqla məadı inkar edənləri bu məsələləri araşdırmağa dəvət edir. Özü də bu, elə bir zamanda baş verir ki, o zaman ümumiyyətlə bu məsələlərin izahı barədə heç bir fikir yox idi.

Həqiqət budur ki, məadın bənzərini nəzərimizdə canlandırmaq və bu həyatda bir şeylə müqayisə etmək istəsək, ən yaxşı yol insanın ana bətnində olan təkamül prosesini müşahidə etməkdir.

# FİTRƏTDƏ MƏAD

**Əgər fəna olmaq üçün yaradılmışıqsa, o zaman daxilimizdə olan əbədilik eşqinin nə məfhumu vardır?**

**Əgər məada inam fitri deyilsə, o zaman niyə bu əqidə tarix boyu bəşərdən heç vaxt ayrılmayıb?**

**Daxilimizdə məhkəmə (vicdan mənkəməsi) olduğu halda bu böyük aləmdə mütləq surətdə hesab-kitabın olmaması inandırıcı deyil.**

Məad barəsində olan müqəddimə bəhsləri burda sona çatdı. İndi məsələnin əslinə; belə bir aləmi sübut edəcək dəlillərə başlayırıq. Bu dəlillər dünya zindanının dörd divarı arasında qalmış bizlər üçün dərk olunan qədər asandır.

## 1. Fitrət – yolun ilk bələdçisi

Hər şeydən öncə qəlbimizə, ruhumuzun, canımızın dərinliklərinə baş vurub ordan gələn nidaya qulaq asaq. Orada ölümdən sonrakı həyat barədə eşidilən bir zümzümə yoxdurmu? Bu məsələ qəlbimizdə yer tutmurmu? Niyə görə biz ilk olaraq bu cəhəti araşdırırıq?

Cavabında deyirik ki, əlbəttə, belə bir zümzümə vardır. Niyə də olmasın. Çünki cahanın böyük hadisələri əvvəlcə orda zahir olur. Ruhumuz fitri və qeyri-fitri olan iki cəhətli olduğu kimi, böyük cahanın qanunları da təkvini və təşrii olmaqla iki yerə bölünür.

Yaradılış qanunları bizim iradəmiz və diqqətimiz olmadan insan vücudunun iradəyə tabe olmayan fitri cəhətləri kimi öz axarı ilə davam edir. Təşrii qanunlar isə insan vücudunun iradəyə tabe olan cəhətləri kimidir. Heç şübhəsiz bir peyğəmbərə gələn istənilən səmavi bir qanunun yaradılışda kökləri vardır və orada təsdiqlənmişdir.

Qeyd olunan bu iki cəhət bir-biri ilə birləşib bizə bilmədiyimiz mətləbləri elm ilə aşkar etməkdə kömək olur. Çünki əvvəlcə daxilimizdə bir istək və eşq baş qaldırır və bu, beşikdən qəbrə qədər davam edir. Maraqlıdır ki, dini təlimlərdə də belə bir göstərişə rast gəlirik: "Elmi beşikdən qəbrə qədər axtarın!" Bu da həmin fitrət və yaradılış nidası ilə tam uyğunluq təşkil edir.

Buna görə də təkcə tohiddə deyil, peyğəmbərlərin bütün digər təlimlərində də onların fitri əsaslarını və köklərini görə bilirik. Deməli peyğəmbərlərin istənilən sahədə olan bütün göstərişləri fitrətə qanad verən və onu kamilləşdirən amillərdir.

Buradan mühüm bir nəticə alırıq: Əgər fitrətimizin dərinliklərində bir şeyə istək və əlaqə görürüksə, bilməliyik ki, həmin şey mütləq real həyatda da mövcuddur.

## 2.Əbədilik eşqi

Əgər insan həqiqətən fəna və yoxluq üçün yaradılıbsa, o zaman fəna aşiqi olar, ölümdən ləzzət alardı. Amma görürük ki, yoxluq mənasında olan ölüm heç bir zaman bu, onun xoşuna gəlməyib. Nəinki təkcə xoşuna gəlməyib, hətta onun əksi olan əbədilik və baqiliyə bütün vücudu ilə

aşiq olub. Bu eşq və bağlılıq insanın bütün əməl və rəftarlarından da aşkar surətdə nümayandır.

Ad, fikir və xatirələrini diri saxlamaq istəyi, Misirin min illik ehramları, əbədiliyə yönlü məqbərələr, ölüləri mumyalamaq və s. həyata olan eşqin nişanələrindəndir.

Uzun ömür axtarmaq, cavanlıq iksiri, dirilik suyu və s. də bu həqiqətin əlamətlərindəndir.

Əgər biz fəna üçün yaradılmışıqsa, əbədiliyə olan bu bağlılığın nə mənası vardır? O zaman bu bağlılıq mənasız və yersiz olar.

Həzrət Əlinin (ə) qısa bir kəlamında bu həqiqət bir daha təcəlla edir: "Nə sən, nə də onlar fəna evi üçün deyil, əbədilik evi üçün yaradılmısınız"[1]

## 3. Keçmiş qövmlərin arasında məad

Bəşər tarixi keçmiş qövmlərin arasında din və məzhəbin olduğuna şahid olduğu kimi, onların məada olan inamına da şahiddir. Tarixdən əvvəl qədim insanlardan qalmış əlamətlər, qəbirlərin düzəlmə formaları, ölüləri dəfn etmə keyfiyyəti onların ölümlə həyatın sonu olmadığına inamını göstərir.

Samuel K. sosiologiyaya aid yazdığı kitabının 192-ci səhifəsində yazır:

"Təhqiqatlar göstərir ki, ilk tayfaların özünə məxsus əqidələri olmuşdur. Belə ki, onlar öz ölülərini xüsusi formada torpağa tapşırır, ölünün yanında onun əmək alətlərini qoyur, bununla da onun həyatı davam etdirəcəyinə inanırdılar."

---

[1] *Məclisi, Biharul-ənvar, cild 38, səhifə 146.*

Vildorant özünün tarix əsərinin birinci cildində, 225-ci səhifədə yazır:

"Onlar nə üçün ehramlar tikirdilər? Şübhəsiz ki, onlar bununla tarixdə əzəmətli bir tikili qoyub getmək fikrində deyildilər. Bu iş yalnız dini etiqaddan qaynaqlanır. Misir ehramlarının hər biri əslində qəbirdir. Sadəcə get-gedə əqidələrinə əsasən tərəqqi etməklə belə bir əzəmətli qəbirlər tikmişlər."

Bu etiqada sadə bir bağlılıq, ya adət-ənənə kimi baxmaq olmaz. Belə məsələlər köklü əqidələrdən yaranan və insanlar arasında ümumiyyət təşkil edən əbədi etiqadlardandır. Bu həm də məsələnin fitri olmasına dəlildir. Çünki təkcə fitri bir etiqad və bağlılıq tarix boyu ictimai dəyişikliklər qarşısında tab gətirib uzun müdət yaşaya bilər.

## 4. Kiçik və böyük məad

Əvvəl işarə etdiyimiz kimi söhbətimizin mövzusu olan o böyük məad və məhkəmənin kiçik nümunəsi bizim öz vücudumuzda vardır ki, yaxşı, ya pis bir iş gördükdən dərhal sonra içimizdə baş qaldırır.

Bəzən yaxşı bir iş gördüyümüzdə daxilən elə rahatlıq və sakitlik hiss edirik ki, ruhumuz şadlıq içində olur, heç nəylə vəsf olunmayan ləzzət və fərəh yaşayır.

Bəzən də bir cinayətin və günahın ardından dəhşətli kabuslar içinə düşür, qəm-qüssə ətrafımızı sarır, daxilimiz yanır, həyatdan tamamilə küsür, hətta bu narahatçılıqdan xilas olmaq üçün çox rahat şəkildə özümüzü dar ağacına belə təslim edirik.

Bu daxili məhkəmənin Qiyamətə çox bənzəri vardır:

1. Qiyamətdə olduğu kimi burada da qazi, şahid və hökmün icraçısı eynidir:

"Ey gizlini və aşkarı bilən Allah! Bəndələrin arasında Sən hökm edəcəksən!"[1]

2. Vicdan məhkəməsi də Qiyamət kimi rüşvət, tövsiyə və s. qəbul etmir:

"Qorxun o gündən ki, (Allahın izni və köməyi olmayınca) heç kəs heç kəsin karına gələ bilməsin (heç kəs heç kəsə öz əməlindən bir şey verə bilməsin), heç kəsdən şəfaət (bu və ya digər şəxsin günahlarının bağışlanması barəsində xahiş, iltimas) qəbul olunmasın, heç kəsdən (günahlarının təmizlənib əzabdan xilas olması üçün) fidyə (əvəz) alınmasın və onlara (günahkarlara) heç bir kömək göstərilə bilməsin!"[2]

3. Vicdan məhkəməsi də Qiyamət məhkəməsi kimi bütün məhkəmə prosesini və hökm icrasını sürətlə yerinə yetirir:

"Hökm edən Allahdır. Heç kəs Onun hökmünü dəf edə bilməz. (Allah) tezliklə haqq-hesab çəkəndir!"[3]

4. Adi cəzalardan fərqli olaraq onun əzabı insanın daxilindən qığılcım alıb başlayaraq xaricə doğru böyüyür, əvvəlcə insanın ruhunu incidir, sonra onun təsirləri cismə; üz-gözünə, eləcə də yuxusuna, iştahasına və s. sirayət edir. Qiyamət barədə də belə oxuyuruq:

"O, Allahın yanar odudur. Elə bir od ki, ürəkləri yandırıb-yaxar."[1]

---

[1] *Zümər surəsi, 46.*

[2] *Bəqərə surəsi, 48.*

[3] *Rəd surəsi, 41.*

5. Bu məhkəmənin o qədər də şahidə ehtiyacı yoxdur. Əgər lazım olsa, kənardan şahid axtarmaz, elə insanın özündən özünə şahid gətirər. Qiyamətdə də insanın vücudu; əli, ayağı, dərisi onun əleyhinə şahidlik edərlər:

"Nəhayət, onlar Cəhənnəmin kənarına gəldikdə qulaqları, gözləri və dəriləri etdikləri əməllər barəsində onların əleyhinə şəhadət verəcəkdir."[2]

Bütün bu deyilənlərə əsasən nəticə alırıq ki, ölümdən sonrakı həyata inamın fitri olması yuxarıda sadalanan üç yolla sübut olundu.

---

[1] *Huməzə surəsi, 6-7.*

[2] *Fussilət surəsi, 20.*

# MƏADIN ƏQLİ DƏLİLLƏRİ

## Birinci dəlil. Ümumi ədalət göstərişi

**İnsan bu dünyada dörd məhkəmədə mühakimə olunur, amma ...**

İnsan yaradılış aləminin ümumi ədalət qanunundan istisna oluna bilməz.

Bu bir həqiqətdir ki, insan bu dünyada etdiyi günah və cinayətlərə görə elə bu dünyada da ağır əzab və cərimələrlə mühakimə olunur. Artıq qeyd olunduğu kimi onların biri "vicdan məhkəməsi"dir ki, təkbaşına bütün hesabları aparıb hər şeyi yerinə qoyur.

O məhkəmələrdən ikincisi əməlin təbii təsirləridir. Xüsusilə ictimailik kəsb edən günahlarda bu daha tez təsir göstərir.

Bəşərin ibrət dolu hadisələri çoxdur. Zülm, yalan, nifaq, xəyanət və s. cinayətlər qisa zamanda bir çox cəmiyyətlərin acı aqibətinə səbəb olmuş, onları dağıdıb məhv etmişdir.

Üçüncü məhkəmə əməlin mükafatı və əvəzi məhkəməsidir ki, bütün məhkəmələrdən əsrarəngizdir. Sanki bu məhkəmənin qaziləri bağlı apılar arxasında oturub qəti hökmlər verir, sonra bu hökmləri sirli şəkildə icra edirlər.

Biz bu gün bu mükafat və əvəz məsələsinə təcrübi bir izah verə bilmərik. Ancaq bunu da inkar edə bilmərik ki, həyatımız boyu dəfələrlə öz gözümüzlə görmüş, ya tarix səhifələrində oxumuşuq ki, bəzi fərdlər işin sonunda heç kəsin əvvəlcədən təxmin edə bilməyəcəyi surətdə

əməllərinin əvəzinin atəşində yanmışlar. Belə ki, bunu nə vicdan məhkəməsi ilə, nə əməlin təbii təsirləri ilə təfsir etmək, nə də təsadüf kimi qəbul etmək olmaz.

Dördüncü məhkəmə isə rəsmi məhkəmələrdir. Bu məhkəmənin gücü çox zəifdir. Bəlkə də on hadisədən birini müəyyənləşdirib kimisə ittiham edə bilər. Bundan əlavə həmin bir mühakimədə də həmişə adilanə qərarlar verilmir.

### *Xüsusi məhkəmələr*

Qey olunan bu dörd məhkəmə qarşımızdadır. Amma onların hər birinə ayri-ayrılıqda nəzər salsaq, görərik ki, onların hamısının qapısının üstündə bu sözlər yazılıb: "Bu məhkəmə xüsusidir, yalnız bəzi cinayətlərə aiddir."

Bu məhkəmələrin xüsusi olmasını izah etmək üçün əlavə bəhsə ehtiyac yoxdur. Çünki rəsmi8 məhkəmələr, deyildiyi kimi, bütün günahkarları əhatə edə bilmir. Əgər belə olsaydı, onda indi dünya bu qədər zülm və amansızlıq içində olmazdı.

Mükafat və əvəz məhkəməsi də ümumi deyil. Bu məhkəmə sanki tərbiyəvi bir proqram üzrə insanları oyatmaq, onlara ibrət vermək üçündür. Bəziləri hətta ondan da qaça bilir. Bundan başqa bəzən cinayət elə ağır olur ki, bu əvəz onun öhdəsindən gələ bilmir, ona sadəcə kiçik bir "cərimə" yazır.

Əməlin təbii təsirləri məhkəməsi də xüsusidir. Çünki adətən əməl elə günah olur ki, onun şüası bütün cəmiyyəti əhatə edir. Yaxud əgər bir fərd bu günaha mürtəkib olubsa, bu təsir o qədər uzanmalıdır ki, onun kökünü kəsə bilsin, həmin günahın acı bəhrələrini aşkar edə bilsin.

Buna görə də çox günahkarlar və günahlar bu qəzavətin əlindən uzaqda amanda qalırlar.

Burada yalnız vicdan məhkəməsi qalır. Lakin bilməliyik ki, hamıda bu vicdan oyaq və diri deyil. Vicdanın zəifləməsi səbəb olur ki, bir çoxları onun da əlində yaxa qurtarsınlar.

Nəticə alırıq ki, bu dörd məhkəmədən heç biri bütün insanları əhatə etmir, zalımların, günahkarların etdikləri hər bir günahı aşkara çıxarıb onları cəzalandırmır. Bunlar sadəcə onları bəzı məqamlarda oyadır, bəzən xəbərdarlıqlar edir, bəzən tərbiyəvi cəhətdən istiqamət göstərir.

### *Varlıq aləminin ədalət qanunu*

İndi görək bu həyatın arzasında ümumi olmaqla hamını əhatə edə biləcək bir ədalətin olacağına etimad etmək olar, yoxsa heç bir hesab tamamlanmamış insanlar bu dünyadan gedəcəklər və hər şey bitəcək?

Yaradılış nizamının kiçik bir hissəsi olan insanı nəzərə almayıb ümumi yaradılış aləminə nəzər salaq. Görürük ki, hər yerdə nəzm və ədalət vardır. Bu qanun o qədər güclüdür ki, kiçik bir əskiklik hər şeyi məhv edə bilər. Əgər hər şey bu qədər nizamla öz həyatına davam edirsə, bu yalnız ümumi ədalətə görədir: "Yer və səma ədalətlə bərpadır"[1]

---

[1] *Feyz Kaşani, Safinin təfsiri, Rəhman surəsinin 7-ci ayəsinin şərhi.*

### *İnsan istisnadırmı?*

Sözsüz ki, insan digər varlıqlardan fərqlənən, ixtiyar və azadlıqla dolu iradəyə malik bir varlıqdır. O, əvvəlcə araşdıraraq ona faydalı olacaq işlərə addım atır, pis aqibəti olacaq işləri isə tərk edir. Bu baxımdan o, öz taleyinin hakimidir. Bu üstünlük onun mənəvi, əxlaqi, insani təkamülünün təzminatçısıdır.

Məsələn, əgər birini milyonlara xeyir verə biləcək bir xeyriyyə işinə zorla vadar etsələr, bu iş əsla onun insani və əxlaqi təkamülünə səbəb olmayacaq. Amma bir kəs öz iradəsilə birinə cüzi miqdarda yardım edərsə, onun bu işi qədərincə təkamülü baş verəcək. Deməkdə təkamül bilavasitə insanın iradəsinə bağlı məsələdir.

Bütün bu fərqlərə baxmayaraq, insan ümumi ədalət qanunundan istisna oluna bilməz. Bu istisna üçün heç bir dəlil yoxdur.

## İkinci dəlil. Yaradılış fəlsəfəsi

**İnsanın xilqəti və yaradılış fəlsəfəsi ölümdən sonrakı həyatı tanımağa kömək edir.**

**Sonunda bir gün Günəş sistemi sönəcək.**

**Görəsən insan təkamülünün dövrü də bu qədər inkişafa rəğmən işdən düşəcəkmi?**

**Bəs bu, əbəs olmayacaqmı?**

Çox vaxt soruşurlar ki, bizim və bu böyük kainatın yaradılış fəlsəfəsi nədir?

Biz yaradılmasaydıq, nə olacaqdı?

Bir bağban bir ağacı meyvə əldə etmək üçün əkir. Varlıq aləminin bağbanı bizi nə üçün yetişdirmişdir?

Biz nə üçün gəldiyimizi bilmirik. Nə üçün varıq? Nə üçün gedəcəyik? Bu suallara görə mənasızlığa düşür, təəccüüb içində qalırıq. Hər dəfə dünyadan bir anlıq ayrılıb bir guşəyə çəkildikdə bu narahatedici suallar zehnimizə gəlir.

Bəzi filosof və ya şairlərin əsərlərini oxuduqda onların da belə hisslər keçirmiş olduqlarını müşahidə edirik.

Əvvəldə də dediyimiz kimi bu cür zahirən qaranlıq görünən sualların cavabını axtarmaq üçün sadə yollardan başlamaq lazımdır. Bu həmin sadə yollardır ki, məşhur fransız filosof Dekart öz məktəbinin əsasını bu təməl məsələlərə qoymuşdur.

Fərz edin, bir şəhərin kənarından keçirik. Yüksək səviyyədə tikilmiş və bəzədilmiş bir bina görürük. Onun gözəlliyi bizi valeh edir. İlk baxışdan hər şeyin yaxşı və hesablanmış olduğunu güman edirik. Ancaq bu gözəl binanın nə üçün inşa edildiyini bilmirik. Bu zaman bu binanın hər yerinin ayrı-ayrılıqda dəqiq və məqsədli, lakin ümumilikdə binanın məqsədsiz tikilməsini düşünməyə ağıl və məntiq bizə icazə verirmi? Qətiyyətlə xeyr. Kiçik bir detalda da məqsəd güdən biri bu qədər böyük işdə unutqanlıq edərmi?

İndi öz vücudumuzun daxilindəki əzəmətli iş prosesinə baxaq. Münəzzəm səs və hərəkətlə işləyən ürək bir an da durmayaraq sinəmizdə vurur. Onun bütün kanalları, qanın girişi və çıxışı üçün olan damarlarının heç biri məqsədsiz deyil. Ondan sonra mədəyə, böyrəyə, ciyərə və s. nəzər salırıq. Hamısının məqsədli çalışdığını görürük. Sonra daha qəribə görünən beynimizə nəzər salaq. Onun

fəaliyyəti bizi daha çox təəccübə qərq edir. Belə olan halda mümkündürmü ən kiçik bədən üzvü belə məqsədli olduğu halda bu üzvlərin məcmuəsi olan insan məqsədsiz olsun? Kainat da belədir. Bu böyük aləmə nəzər saldığımızda orada insan üçün tərbiyə və təkamülün olduğunu görürük. Bunun da insanın yaradılış fəlsəfəsi kimi başa düşürüksə, o zaman bu təkamül insanın ölümü ilə sona çata bilərmi? Məgər bu dünyada olan əzab və işgəncə dolu qısa həyat əzəmətli yaradılışın məqsədi ola bilərmi?

## Üçüncü dəlil. Ölüm sondursa, yaradılış mənasızdır

**Varlıq aləminin hikmətli və elmili bir varlıq tərəfindən başlamasına inanmaq ölümdən sonrakı həyata olan inamdan ayrılmaz.**

Bir duluzçu fərz edək. O, bir kuzə düzəltdikdən sonra dərhal onu yerə vurub sındırır. Bu duluzçunun axmaq olmasında tərəddüd edərsiniz? Hətta bu duluzçu çox məharətli də olsa, kuzənun üzərinə gözəl naxışlar da vursa, yenə onun barəsində fikrimiz dəyişməz.

İmkanlı, məharətli, həm də gözəl zövqü olan bir mühəndisi nəzərinizdə tutun. Bu mühəndis çox gözəl və hər şeyi hesablanmış, böyük smeta dəyəri olan, görənləri valeh edən bir bina tikir, ya sədd çəkdirir. Bu binanın, ya səddin açılışını böyük təntənə ilə qeyd edir, hamını bu böyük açılışa dəvət edir. Amma bir gün sonra qəzetlərdə oxuyuruq ki, bu mühəndis həmin tikilini partladaraq dağıdıb məhv edib. Müsahibəsində də deyib ki, mən

yalnız bu binada bir günlük istirahət etmək üçün, ya çəkdirdiyim səddin gölündə bir günlük qayıq sürmək üçün bunları tikdirmişdim. Mühəndisin bu sözləri nəinki bir alimin, hətta bir cahilin yanında da çox ağılsız görünməzmi?

Əgər bu geniş aləmin yaradılışına ümumi şəkildə, insanın cismani və ruhani yaradılış və formasına xüsusi şəkildə nəzər salsaq, ölümün bəşər həyatının sonu ola bilməyəcəyini aydın görəcəyik. Çünki bu surətdə onun həyatı və ona aid olan bu varlıq aləmi məntiqsiz və mənasız olacaq, eynilə o duluzçunun və mühəndisin mənasız əməli kimi.

Varlıq aləmi həm əzəmətinə görə, həm də dəqiqlik baxımından bu həqiqəti isbat edir ki, bu aləm bizim təsəvvür etdiyimizdən də daha geniş və əsrarəngizdir. Eynşteyn "Nisbiyyət fəlsəfəsi" kitabında yazır: "Bizim varlıq aləminin böyük kitabından oxuduqlarımız cəmi bir səhifədən (ya bir neçə səhifədən) artıq deyil. Biz bu böyük elm dəryasının yalnız əlifbası ilə tanış olmuşuq."

Qurani-Kərimdə aləmin əbəs olmamasına bir neçə dəfə qısa şəkildə işarə olunur:

Yoxsa sizi əbəs yerə yaratdığımızı və (qiyamət günü dirilib haqq-hesab üçün) hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz?[1]

Məgər insan elə güman edir ki, o, başlı-başına (cəzasız) buraxılacaq?! Məgər o tökülən bir qətrə nütfə deyildimi?! Sonra laxtalanmış qan oldu və (Allah) onu yaradıb surət

---

[1] *Muminun surəsi, 115.*

verdi (insan şəklinə saldı). Sonra da ondan biri kişi, biri qadın olmaqla iki cift (həmtay) yaratdı. Elə isə O Allah ölüləri diriltməyə qadir deyildirmi?![1]

Burada söhbət məadı inkar edənlərdən gedir. Əgər onların zənninə görə hər şey ölümlə bitsəydi, onda yaradılış mənasız olardı.

## Dördüncü dəlil. Ruhun qalması

Ölümdən sonrakı həyat və məad məsələsi ilə yaxından bağlılığı olan və ölümlə hər şetin bitməyəcəyini göstərən dəlillərdən biri də ruhun qalmasıdır.

Müstəqil olaraq (nəinki bədənin xüsusiyyətlərindən biri kimi) ruhun varlığını isbat etmək ölümdən sonra ruhun qalması məsələsini aydınladır. Əslində bunu isbat etmək məadı isbat etmək yolunda böyük bir addımdır.

Bir məsələni qeyd etmək lazımdır ki, ruh mövzusu filosofların araşdırdıqları ən qədim və çətin bəhslərdən biridir. Heç kəs bu bəhsin hansı dövrdən başladığını deyə bilməz. Çünki tarixin göstərdiyi kimi beş min il bundan əvvəl misirlilərin (başqa qövmlər də ehtimal olunur) az-çox bu mövzu ilə tanışlıqları olmuşdur. Hətta məşhur islam alimi Alusinin dediyinə görə, bu məsələdə indiyə kimi mindən çox nəzəriyyə irəli sürülmüş və hər kəs ruhun mahiyyəti barədə müxtəlif sözlər demişlər.

Lakin belə nəzərə gəlir ki, insanın diqqətini bu mövzuya cəlb edən ilk amil yuxu məsələsidir.

İnsan (hətta ən qədim insanlar belə) yuxuda fərqli aləmlər, səhnələr müşahidə edib oyandıqları zaman

---

[1] *Qiyamət surəsi, 36-40.*

onların heç birinin real həyatda olmadığını görəndə belə düşünürdülər ki, yuxu halında bir cür, oyaq olanda isə başqa şəklə düşən daxili bir qüvvəyə malikdirlər. Bu qüvvə hətta insanın başqa bədən üzvləri fəaliyyət olmayan zamanlarda da hərəkət etməkdə və fəaliyyətdədir. Bu sirli qüvvə "ruh" adlandırıldı.

Fəlsəfə artıq elm şəklini aldıqda bu fənnin bəhs etdiyi ilk məsələlərdən biri ruh oldu. Bir azdan görəcəyik ki, yuxu məsələsi elə ruhlar aləminə açılan qapının açarlarından biridir. Bundan başqa yuxu bizi iki istiqamətdən ruh məsələsinə daha yaxın edə bilər: Əvvəla insanın yuxuda gördüyü səhnələr (istər yozumu olsun, istər olmasın), ikincisi də yuxunun necəliyi və keyfiyyəti.

Burada bəziləri yuxunun elə də mühüm bir məsələ olmadığını güman edər və deyərlər ki, bu, elə realda gördüklərimizdir, bəzən vahiməli, bəzən xəyali və s. ola bilər.

Bizim yuxunun hardan qaynaqlandığında işimiz yoxdur, yaxud keçmişə aiddir, ya gələcəyə. Söhbət burdadır ki, yuxu aləmində gördüyümüz bu əzəmətli səhnələrin, təbii ki, vücudumuzda bir yeri vardır. Bu, bizim beyin hüceyrələrimizdədir, yoxsa başqa bir geniş ərazi vardır?

Məsələn, yuxuda görürük ki, böyük bir bağda oturmuşuq, ortada böyük bir hovuz vardır. Ətrafda ağaclar və s. Keçmiş, ya gələcək olmasından asılı olmayaraq, istənilən halda bu mənzərə bir yerdə həkk olunmalıdır. Bu, bizim beyin hüceyrələrimizdə çəkilir? Bir

azdan görəcəyik ki, xeyir. Bu, heç də belə deyil. Demək başqa bir yer lazımdır ki, onun da adı ruhdur.

Bir azdan görəcəyik ki, yuxu məsələsi bizi nə qədər ruha aid məsələlərə yaxınlaşdıracaq. Məlum olacaq ki, keçmişdə olduğu kimi bu gün də yuxu məsələsi fəlsəfi, hətta təcrübi bir dəlil kimi öz elmi aktuallığını itirməmişdir.

### *Ruhun müstəqilliyi*

İnsanın daş və çübüq kimi ruhsuz varlıqlarla fərqli bir varlıq olduğunda şübhəmiz yoxdur. Çünki biz çox rahatlıqla hiss edirik ki, bizim cansız varlıqlarla, hətta digər canlılarla fərqimiz vardır. Biz başa düşürük, təsəvvür edirik, qərar qəbul edirik, iradə sahibiyik, eşq və nifrət hiss edirik. Bitki və daşların isə belə hissiyyatı yoxdur. Bizimlə onların arasında əsas bir fərq vardır ki, o da "insani ruh"-dur.

Nə materialistlər, nə də başqa bir dəstə heç vaxt ruh və psixikanı inkar etməmişlər. Buna görə də onların hamısı psixologiya və psixoanalizm elmlərini müsbət qarşılamış və bir elm kimi tanımışlar.

Ruhun cismlə olan əlaqəsi və və onların bir-birinə olan təsirindən söhbət gedirsə, buna "psixika" adını qoyuruq. Lakin cismi nəzərə almadan təkcə ruhun hal və keyfiyyətindən söhbət gedirsə, o zaman ona sadəcə "ruh" deyilir.

İndi görək materialistlərlə metafizik və ruhani filosofların bir-birindən ayrıldığı nöqtə hansıdır. İlahi və ruhani alimlərin əqidəsi budur ki, insanın cismini təşkil edən maddələrdən başqa onun daxilində maddədən

olmayan başqa bir həqiqət və cövhər də gizlənmişdir ki, insanın bədəni birbaşa onun təsiri altındadır.

Başqa sözlə desək, ruh təbiətin fövqündə bir həqiqətdir ki, onun quruluşu və fəaliyyəti maddi aləmdəki quruluş və fəaliyyətdən fərqlidir. Düzdür, o, həmişə maddi aləmlə əlaqəlidir, lakin maddə və ya maddənin xasiyyətindən deyil.

Qarşı tərəfdə materialist filosoflar qərar tutub. Onlar deyirlər: Biz maddədən başqa ruh və ya başqa adda bir varlıq tanımırıq. Mövcud olan şey cismani maddədir və ya onun kimyəvi, ya fiziki təsirinin məhsuludur. Bizim beyin və əsəb sistemimiz vardır ki, həyat fəaliyyətimizin əsas hissəsini təşkil edirlər. Onlar da başqa bədən üzvləri kimi maddidirlər və maddə qanunları altında fəaliyyət göstərirlər. Bu, eynilə ağızdakı su vəzilərinin fəaliyyətinə oxşayır. Çünki onlar həm fiziki cəhətdən işləyir, yəni ağıza yemək qoyduqda dərhal işə düşüb maye ifraz etməklə qidanın həzminə kömək edir, həm də kimyəvi cəhətdən özündə xüsusi maddələr ehtiva edir ki, bu maddələr vasitəsilə qida daha yaxşı çeynənilir və həzm olunur.

Materialistlərin fikrincə bizim əsəb sistemimiz və beynimiz də belədir, həm fiziki, həm də kimyəvi təsitə malikdir. Bu fiziki-kimyəvi fəaliyyətlərə də ruhi fəaliyyətlər, ya sadəcə ruh deyilir.

Onlar bu bəhsdən belə nəticə alırlar:

1. Bizim ruhi fəaliyyətlərimiz beynimizin və əsəb sistemimizin vücuda gəlməsi ilə yaranır və onların (ölümlə) aradan getməsi ilə aradan gedir.

2. Ruh cismin xüsusiyyətlərindəndir. Deməli, maddədir. Onun təbiətin fövqündə heç bir vücudu yoxdur.

3. Cismə hakim olan bütün qanunlar ruha da şamildir.

4. Bədənsiz ruhun heç bir müstəqil vücudu yoxdur və ola da bilməz.

### *Ruhun müstəqilliyinin dəlilləri*

Materialistlər israr edirlər ki, ruh beyin hüceyrələrinin xüsusiyyətlərindəndir. Təfəkkür, hafizə, eşq, nifrət, qəzəb, elm və s. xüsusiyyətləri maddi və təcrübi aləmin qanunlarına tabe edirlər. Lakin ruhun müstəqilliyinin tərəfdarı olan filosoflar bu əqidəni inkar etmək üçün çoxlu dəlillər gətirmişlər ki, biz onlardan bir qismini burada qeyd edirik:

### *Kənar aləmdən agahlıq*

Materialistlərdən bu zəmində soruşulmalı olan ilk sual budur ki, əgər təfəkkür və ya digər ruhi fəaliyyətlər beyinin fiziki-kimyəvi xüsusiyyətlərin-dəndirsə, o zaman beyinlə mədə, ciyər və s. bədən üzvləri arasında heç bir əsaslı fərq olmamalıdır. Çünki məsələn mədənin də fəaliyyəti fiziki-kimyəvi tərkiblədir. Halbuki bu iki bədən üzvünün arasında olan fərq çox aşkardır. Beyindən başqa bütün bədən üzvlərinin fəaliyyəti az-çox bir-birinə bənzəyir. Başqa üzvlərin bütün fəaliyyətləri daxili olduğu halda ruhun fəaliyyəti xaricidir və bizi vücudun xaricində olan hadisələrlə tanış edir.

Bu sözün bəyanında bir neçə məsələni qeyd etməliyik. Birinci məsələ budur ki, sözsüz bizim vücudumuzun xaricində bir aləm vardır. Kənar aləmin vücudunu inkar

edən idealistlər deyirlər ki, var olan şey yalnız "biz" və "bizim təsəvvürlərimiz"-dir. kənar aləmdə olan hər şey yuxuda gördüklərimiz kimi təsəvvürlərdən başqa bir şey deyil. Onların bu sözü kökündən səhvdir. Biz artıq qeyd etmişik ki, əslində onlar idealist olsalar da, əməl cəhətdən realistdirlər. Onlar əslində öz kitabxanalarında düşündüklərini küçədə, ümumiyyətlə öz həyatlarında unudurlar.

İkinci məsələ budur ki, bizim bu kənar aləmdən məlumatımız vardırmı? Sözsüz ki, bu sualın da cavabı müsbətdir. İndi belə bir sual çıxır ki, həmin bu kənar aləm bizim vücudumuzun daxilinə girir? Təbii ki, yox. Həmin aləmin sadəcə surəti bizimlədir və biz kənar aləmdən agah olmaq qüvvəmizlə onları dərk edirik. Bu agahlıq xüsusiyyəti təkcə beyinin fiziki-kimyəvi xüsusiyyəti kimi səciyyələnə bilməz. Çünki bu (fiziki-kimyəvi) xüsusiyyət kənar aləmdən aldığımız təəssüratdan doğur. Başqa sözlə desək, kənar məlumatlar səbəb, beyinin fəaliyyəti isə bu səbəbin nəticəsidir. Yəni kənar varlıqlardan xəbərdar olmaq üçün onları bir növ əhatə etmək lazımdır. Bu əhatə dairəsini yaratmaq beyinin işi deyil. Beyin sadəcə bundan təsirlənir. Bu, digər bədən üzvlərinin kənardan təsirləndiyi kimidir. Kənar aləmi əhatə edib ondan agah olmaq isə başqa bir şeydir.

### *Şəxsiyyətin vəhdəti*

Ruhun müstəqilliyi üçün gətirilən ikinci dəlil bütün ömür boyu insanın vahid şəxsiyyət formasında qalmasıdır. Bizim var olmağımızda heç bir şübhəmiz yoxdur. Biz bunu "hüzuri" elm ilə çox yaxşı anlayırıq. Bu,

bizim əlimizdə olan ən aydın məlumatımızdır. Məşhur fransız filosofu Dekartın bunu isbat etmək üçün dediyi "mən fikirləşirəmsə, deməк varam" ifadəsi də əslində doğru deyil. Çünki artıq "mən" deməklə varlıq isbat olunur, əlavə "fikirləşirəm" deməyə ehtiyac yoxdur.

Həmin bu "mən" bütün ömür boyu dəyişməyən bir həqiqətdir. Hər kəs uşaqlıqdan indiyə kimi yalnız bir "mən" olub, ölənə kimi də həmin "mən" olacaq. İndi fikirləşək görək ömrümüz boyu bizi əhatə edən bu "mən" nədir? Bu, bizim bədənimizdə, ya beynimizdə olan hüceyrələrdirmi? Axı onlar bir ömür boyu dəfələrlə dəyişib? Dediyimiz kimi 7, ya 8 il müddətində insan bədəninin bütün hüceyrələri ölür, yerinə yeni hüceyrələr yaranır. Yetmiş yaşlı insanın bədəni ömür boyu təxminən 10 dəfə tamamilə dəyişir. Əgər materialistlər kimi insanın varlığınıhəmin bu cism və onun xüsusiyyətlərindən ibarət bir varlıq bilsək, o zaman yetmiş il ərzində bu "mən"-in ən azı 10 dəfə dəyişdiyini qəbul etməliyik. Halbuki vicdanı olan heç kəs bunu deməz. Buradan məlum olur ki, insanın maddi tərəfindən başqa, ömür boyu heç vaxt dəyişməyən, varlığımızın əsasını təşkil edən və şəxsiyyətimizin vəhdətinə amil olan başqa sabit bir tərəfi də vardır.

### *Quranda ruhun qalması*

Qurani-Kərimdə ruhun qalması, müstəqilliyi və fani olmaması barədə açıq-aşkar gələn ayələr vardır. Ali-İmran surəsinin 169-170-ci ayələrində Allah yolunda şəhid olanlar barədə deyilir:

"Allah yolunda öldürülənləri (şəhid olanları) heç də ölü zənn etmə! Əsl həqiqətdə onlar diridirlər. Onlara Rəbbi yanında ruzi əta olunur. Onlar Allahın Öz mərhəmətindən onlara bəxş etdiyi nemətə sevinir, arxalarınca gəlib hələ özlərinə çatmamış (şəhidlik səadətinə hələ nail olmamış) kəslərin heç bir qorxusu olmayacağına və onların qəm-qüssə görməyəcəklərinə görə şadlıq edirlər."

Bu ayədə açıq-aşkar şəhidlərin ruhunun qalması deyilir və bu, təkcə şəhidlərə məxsus deyil. Çünki ruhun maddi olub olmamağında onlarla başqaları arasında fərq yoxdur. Əgər burada söhbət təkcə onlardan gedirsə, bu da ona görədir ki, ayənin mövzusu insanlar içindən çıxmış şəhidlərin aqibətidir.

Mumin surəsinin 46-cı ayəsində Fironun ailəsi barədə oxuyuruq:

"Onlar səhər-axşam odda yandırılarlar. Qiyamət qopduğu gün isə (deyiləcəkdir): -Firon əhlini ən şiddətli əzaba salın!"

Bu ayə də Firon ailəsi üçün nazil olsa da, təkcə onlara, zalım və günahkarlara məxsus deyil.

Bu iki ayədən məlum olur ki, həm yaxşıların, həm də pislərin ölümdən sonra bərzəx həyatı vardır. Bu da ruhun müstəqilliyinə dəlalət edir.

Ənfal surəsinin 50-ci, Zümər surəsinin 42-ci, Yunis surəsinin 36-cı ayələri də bu mövzudadır. Bu ayələr göstərir ki, insan öldükdə hər şeyi məhv olmur, nəsə qalır. Bu da ruhun qalmasına Quran ayələrində olan incə işarələrdir.

# CİSMANİ (CİSM VƏ RUHLA) VƏ RUHANİ (ANCAQ RUHLA) MƏAD

Görəsən ölümdən sonrakı həyat yalnız ruhani aləmdən ibarətdir? Yəni ölüm anında cismimiz həmişəlik olaraq bizdən ayrılır və əbədi həyat təkcə bizim ruhumuzla əlaqədardır? Yoxsa məad hər iki yöndə baş verir, yəni cism və ruh birlikdə əbədi həyata başlayırlar?

Ya məad ruhani və yarı cismani yöndə baş verir? Yəni cism də ruh kimi qayıdır, lakin adət etdiyimiz bu maddi cism yox, daha lətif və incə formada olan bir cism şəklində.

Ya məadın yalnız cismani tərəfi vardır? Bu, ruhu müstəqil varlıq kimi tanımayan kəslərin əqidəsidir. Belə ki, onlar ruhu cismin xüsusiyyətlərindən biri bilirlər.

Bu dörd nəzəriyyənin hər birinin tərəfdarları vardır.

## Birinci nəzəriyyə: Ruhani məad

Qədim filosofların əksəriyyəti bu əqidənin tərəfdarları olublar. Onların dediyinə əsasən, ölüm anında ruh həmişəlik olaraq bədəndən ayrılır və ruhlar aləmində qalır. Bu nəzəriyyəyə görə "məad" (qayıdış) məsələsinin heç bir mənası olmur. Çünki bu zaman heç bir qayıdış baş vermir, sadəcə ruh öz həyati varlığı ilə davam edir. Onların əqidəsi bu idi ki, cücə yumurtanın içində, ya bir körpə ana bətnində bir müddət yaşamağa məcbur olub, təkamül həddinə çatandan sonra oradan ayrılıb bir daha ora dönmədiyi kimi insan da bu dünyada cismən

müvəqqətidir. Buna görə də ölümdən sonra baş verəcək bütün mükafat və cəzalar, ləzzət və narahatçılıqlar yalnız ruhani cəhətdən reallaşacaq.

## İkinci nəzəriyyə: İki yönlü məad

Bu nəzəriyyəni qədim və müasir alim və filosoflardan bir dəstəsi seçmişdir. Növbəti bəhslərdə görəcəyimiz kimi Quran ayələri də ümumi surətdə bu nəzəriyyəni dəstəkləyir ki, qiyamətdə cismin pərakəndə halda dağılmış hissələri yenidən toplanaraq təkmilləşəcək və cana gələcək, sadəcə bu yenilənmə ali dərəcədə və daha yüksək səviyyədə bir aləm və həyatın başlanğıcı olmaqla indiki həyatdan fərqlənəcək.

## Üçüncü nəzəriyyə: Ruhani və yarı cismani məad

Qədim filosoflardan bəzisi bu əqidədədirlər ki, bu həyatda sahib olduğumuz cism ölümdən sonra qayıtmayacaq. Belə ki, ruh bədəndən ayrılandan sonra zaman və məkan cəhətdən fövqəladə fəal olan, hətta maneələrdən asanlıqla ötüb keçə bilən, fəna və fəsaddan uzaq olan incə bir cismlə birləşərək əbədi həyata davam edəcək. Həqiqətdə bu cism maddə deyil. Sadəcə cismə bənzərliyi olduğu üçün ona "misali cism" deyilir.

## Dördüncü nəzəriyyə: Yalnız cismani məad

Bu nəzəriyyəni də qədim və müasir alimlərdən bəziləri seçiblər. Onların əqidəsinə görə, ölüm zamanı hər şey tamamlanır. Burada ölüm elektrik istehsal edən dəzgahın işdən düşüb xarab olması kimi təsəvvür olunur. Belə ki,

əgər dəzgah işləmirsə, enerji istehsalı da olmayacaq. Lakin yenidən işə düşərsə, ona aid olan bütün xüsusiyyətlər geri dönəcək. Qiyamətdə də insan bədəninin dağılmış hissələri bir yerə toplanaraq həyat libası geyinərkən təbii olaraq cismin xüsusiyyətlərindən olan ruh da yenidən bu cismə qayıdır.

## Məadın keyfiyyəti barədə İslamın məntiqi

Burada əvvəlcə məad məsələsi barəsində İslamın nəzərini qeyd edib, sonra mövzunu əqli dəlillər gətirməklə davam etdirmək istəyirik.

Bilirik ki, dini məsələlər üçün ən əhəmiyyətli mənbə Qurani-Kərimdir. Bu səmavi kitab hər yerdə açıq-aşkar cismani məad barədə (əlbəttə ki, ruhani məadla birlikdə) söhbət açır. Quran ayələri ilə az da olsa tanış olan hər kəs üçün məadın təkcə ruhani cəhətdən olmaması aydın olur.

Çünki kitabın əvvəlində də qeyd etdiyimiz kimi Quran bu məsələni inkar edənlərin zehninə uyğunlaşdırmaq üçün onların cavabında maraqlı misallar çəkmiş və istəmişdir ki, məad məsələsini insanların müşahidə və hisslərinə yaxın etsin. Qurani-Kərimdə məad barədə olan bütün bu misal və bənzətmələr cismani məad məsələsini təsdiqləyir.

Məsələn, bitkilərin solub yenidən cücərməsini müşahidə etməyə dəvət edir və göstərir ki, hər il gözümüzün önündə bitkilər aləmində "məad" təkrarlanır. Payızda torpaq tədricən ölür, bitkilər solğun rəng alır, nəticədə qış gəldikdə hər şey ölür. Bahar nəsimi əsdikdə, bu fəslin ılıq havası hiss edildikdə, yağışı yağdıqda həmin

ölmüş bitkilər yenidən dirilir, yeni həyata başlayırlar. Bu misallar cismani məadı anlatmırmı?

Bəzən Quranda ilk yaradılış barədə danışılır: Sizi yoxdan yaradan Allah, cisminiz parçalanıb dağılandan sonra yenidən yaradacaq.

Şübhəsiz, bu bənzətmə yalnız cismani məadı isbat etmək üçündür, çünki cism fani olandan sonra ruhun qalması ilə bu bənzətmənin heç bir əlaqəsi yoxdur.

Həmçinin kitabın əvvəlində geniş söhbət açdığımız enerjilərin məadı (qayıtması), Əshabi-kəhfin və İbrahimin (ə) quşlarının əhvalatı, yaxud bədəvi ərəbin səhradan quru bir sümük taparaq Peyğəmbərin (s) yanına gəlməsi hadisəsi və bu barədə "Yasin" surəsinin sonunda olan üç sual bütünlüklə cismani məad haqqındadır. Təkcə ruhani məadın bu misallarla heç bir bağlılığı yoxdur.

Maraqlıdır ki, həmin cahil ərəbin ruhani məada əqidəsi vardı. Çünki onun təəccüb edərək inkar etdiyi məsələ cismani məad barəsindəydi.

Quran onların dilindən belə deyir:

O, sizə ölüb bir ovuc torpaq və sümük olduqdan sonra (yenidən dirildilərək qəbirdən) çıxarılacağınızı vəd edir?[1]

(Müşriklər) dedilər: «Məgər (biz) torpağın köksündə dağılıb yox olduqdan sonra, yenidənmi yaradılacağıq?!» (Bizim qüdrətimiz məhdud deyildir). Əksinə, onlar öz Rəbbi ilə görüşü inkar edirlər.[2]

Kafir olanlar (bir-birinə istehza ilə) deyirlər: «Sizə siz (yerin altında) tamamilə parça-parça olub dağıldıqdan

---

[1] *Muninun surəsi, 35.*

[2] *Səcdə surəsi, 10.*

sonra mütləq (başqa bir aləmdə) yeni bir yaradılışla zahir olacağınızı xəbər verən bir kişini göstərəkmi?!» «Görəsən o, Allaha qarşı yalan uydurur, yoxsa onda bir dəlilikmi var?!» (Belə deyildir), əksinə (əslində) axirətə iman gətirməyənlər (indidən) əzabda və uzun-uzadı bir azğınlıq içərisindədirlər.[1]

Bütün bu ayələrdən anlaşılır ki, İslam Peyğəmbəri (s) həmişə bu cismin qayıdacağından, başqa sözlə desək, cismani məaddan söhbət açmışdır. Buna görə də müxaliflər buna təəccüb edirdilər. Qurani-Kərim də onların cavabında deyir: Allah məxluqları əvvəlcə yaradır, onları (öldürdükdən sonra, axirət günündə) yenıdən dirildir. O zaman siz Ona tərəf qaytarılacaqsınız.[2]

Sözün qısası budur ki, Qurani-Kərimdə məad cismani olaraq müəyyənləşib. Cismani məaddan söz açan bu ayələri başqa mənaya yozanlar, ya daha doğrusu təhrif edənlər, "misali cism" və bu kimi mənalar çıxaranlar həqiqətdən uzaq mənasız işlərlə məşğul olmaqdan başqa bir şey etmirlər.

## Ağıl tərəzisində cismani məad

Keçən bəhslərdə tam aydın oldu ki, Qurani-Kərimdə nə vaxt məaddan söz açılsa, cismani məad nəzərdə tutulur. Belə ki, Qurani-Kərim nazil olan zamanlarda ruhani məadı inkar edən çox az insan tapmaq olardı. Elə buna görə də cahil ərəbin Quranın məad məsələsində olan nigaranşılığı da məhz cismani məad barəsində idi.

---

[1] *Səba surəsi, 7-8.*

[2] *Rum surəsi, 11.*

İndi görək bu deyilənlərə əqli dəlillər də tapa bilərikmi?

Ağıl deyir: Ruh və bədən bir-birindən ayrılmayan iki həqiqətdir. Bunlar "maddə" və "enerji" kimi bir-birinə iltizamı olan varlıqlardır. Birlikdə başlənir, birlikdə təkamülə doğru irəliləyirlər. Buna əsasən, biri olmadan o birinin (uzun müddət) ayaqda qalması və yaşaması mümkün deyil. Bu, bir tərəfdən.

Digər tərəfdən iki ayri-ayri insanın cismi bütün cəhətlərdən bir-birinin bənzəri və eyni olmadığı kimi (hətta son elmi araşdırmalara görə insanların barmaq uclarındakı cizgilər də bir-birindən fərqlənir) iki ruh da bir-biri ilə eyni ola bilməz. Cism ruhsuz naqis olduğu kimi, ruh da cismsiz naqisdir. Əgər bərzəx aləmində (dünya ilə axirətin arasında olan aləm) bu ikisi bir-birindən ayrılırsa, müvəqqəti xarakterlidir. Bu müvəqqəti zamanda ruhun fəaliyyətləri məhdudlaşır. Çünki bu müvəqqəti zaman kəsiyi axirət aləmi kimi geniş imkanlı və kamil deyil.

Başqa sözlə desək, ruh əmr verən rəhbər və təsir edən bir amil, bədən isə əmrləri yerinə yetirən məmurdur. Rəhbərin məmura ehtiyacı olduğu kimi, ruhun da bədənə ehtiyacı vardır. Sadəcə ruh başqa bir aləmdə bu cahandan daha ali səthdə olacağına görə bədən də ona münasib daha kamil və ali səviyyədə olmalıdır. Belə də olacaq.

Deməli ruh və cism bir-birinin tayı və təkmilləşdiricisidir. Buna görə də məad yalnız ruhani, ya yalnız cismani ola bilməz. Cism və ruhun yaradılışı barədə mütaliə etdikdə bu həqiqət daha da aydın görünür.

Lakin burada dörd irad, ya bəzilərinin dediyi kimi dörd “dalan” meydana gəlib ki, onları geniş surətdə araşdırmaq lazımdır:

1. Yeyən-yeyilən barədə olan irad;
2. Yer üzərindəki maddələrin azlığı barədə olan irad;
3. Bir ömür boyu insanın bədəni çoxlu dəyişikliklərə məruza qaldığı halda hansının məada gələcəyi barədə olan irad;
4. Məadın harada olacağı barədə olan irad. Çünki yer üzərinin səthi bu qədər insanın məhşəri üçün yetərli deyil.

## Bu iradların hər biri ayrı-ayrılıqda araşdırılmalıdır.

### *1. Yeyən-yeyilən barədə olan irad*

Bu, cismani məad məsələsində irəli sürülən ən qədim iradlardan biridir. İrad bundan ibarətdir:

Fərz edək, aclıq dövründə bir insan başqa bir insanın ətindən qidalanır və onun bədəni tamamilə, ya qismən həmin qidalandığı insanın bədənindən formalaşır. Belə olan halda qiyamətdə yeyilən insanın bədəni yeyən insanın bədənindən ayrılacaqmı? Əgər ayrılacağını desək, onda yeyən insanın bədəni naqis qalacaq. Əgər ayrılmayacağını desək, onda da yeyilən insanın bədəni naqis olacaq.

Əslində heç bu fərzə də ehtiyac yoxdur. Bu mövzu daima təbiət aləmində müşahidə olunur. İnsanlar dünyadan getdikdə bədənləri dağılaraq torpağa qarışır, torpaq da yerin bir hissəsi olur. Sonra mineral maddələr qismində bitkilərin kökləri ilə onların canına hoparaq meyvə və s. meydana gəlir. Başqa insanlar da o meyvəni

yeyirlər. Yaxud o meyvə və bitkiləri heyvanlar yedikdən sonra, insan da həmin heyvanların ətindən qidalanır. Bu yol ilə də keçmiş insanların bədənləri sonradan gələn insanların bədəninin bir hissəsinə çevrilir.

Belə olan halda əgər məad cismani olarsa, bir neçə bədən hansısa bir hissəyə görə bir-biri ilə rəqabət apara bilər. Bəs bu surətdə necə cismani məaddan danışa bilərik?

**Araşdırma və cavab**

Dedik ki, bu, cismani məad məsələsində meydana gələn ən qədim iradlardandır. Xacə Nəsirəddin Tusi, Əllamə Hilli kimi qədim filosof və mütəkəllimlərin hər biri buna bir cür cavab vermişdir. Qədim alimlərin bu irada verdikləri ən əsas cavab "əsli və qeyri-əsli hissələr" üsuludur.

Bu üsulda deyilir ki, insanın bədən hissələri əsli və qeyri-əsli olmaqla iki yerə bölünür. Əsli hissələr ömür boyu heç vaxt aradan getməyən və dəyişməyən hissələrdir. Bu hissələr heç vaxt başqasının bədəninin bir hissəsi ola bilməz. Hətta başqa insan o hissəni yesə də onun həmin insanın bədəninə cazibəsi mümkün deyil. Qeyri-əsli hissələr isə daima dəyişikliyə məruz qalan, başqasının bədəninin hissəsi olmaq qabiliyəttində olan hissələrdir.

Bu tərtiblə də irad həll olur. Yəni qiyamət günündə hər bir insanın bədəninin əsli hissələri bir yerə toplanaraq insanın bədənini yenidən formalaşdıracaqlar.

Bu cavabın qarşısında cavabsız qalan və cavabı "qaranlıq fərziyyə" kimi göstərən təkcə bir məsələ qalır. O

da bundan ibarətditr ki, əsli hissələr dedikdə hansı hissələr nəzərdə tutulur?

Bu sualın cavabında bəlkə də anlaşılmazlığı aradan apara bilməyəcək müxtəlif sözlər deyilib. Onlardan bir neçəsini qeyd edirik:

1. Əsli hissələr genlərdən ibarətdir ki, xromosomların daxilində qərar tutub. Onlar bütün ömür boyu sabitdirlər və heç vəchlə dəyişməzlər. Bu da insanın əsli hissələri olaraq bilinir.
2. Fəqərə sütununun sonuncu sümüyü, yəni bu sütunun ən aşağıdakı sümüyü insan bədəninin əsli hissəsidir ki, heç vaxt aradan getmir və başqa bir varlığın bədən hissəsinə də çevrilmir.
3. Əsli hissələri ayrı-ayrılıqda tanımırıq, lakin bilirik ki, insanın bədənində belə hissələr vardır. Onların xüsusiyyəti heç vaxt aradan getməmək və başqasının bədəninin bir hissəsi olmamaqdan ibarətdir.

Lakin bu cavablardan heç biri elmi cəhətdən məqbul hesab edilməz. Çünki genlər maddə cəhətdən dəyişkəndirlər. Sabit qalan sadəcə onların xüsusiyyətləridir.

Fəqərə sütununun sonuncu sümüyünün də əsli hissə olmaq məsələsi əsassızdır, çünki onun başqa sümüklərlə heç bir fərqi yoxdur və günümüzün elmi nəzəriyyələrinə əsasən bu da məqbul hesab olunmur. Bu sümük də başqa sümüklər kimi çürüyüb torpağa qarışır və təbii olaraq başqa varlıqların bədəninin bir hissəsi olmağa şərait yaranır.

"Naməlum əsli hissələr" iddiası həqiqətdən çox boş fərziyyəyə daha çox oxşayır. Yəni bunu iddia etməyə heç

bir dəlilimiz yoxdur. İnkişaf və təkamül qanunu deyir ki, insan bədəninin hər bir hissəsi həmişə dəyişikliklərə uğrayır, öləndən sonra çürüyüb məhv olur. Beləliklə də bütün bədən hissələrinin çürüyüb torpağa qarışdıqdan sonra başqa bir bədənə keçərək onun bir hissəsi olmağa imkanı vardır.

Nəticə budur ki, əsli və qeyri-əsli hissələr barədə olan məsələ sadəcə bir fərziyyədir, isbatının dəlilə ehtiyacı vardır ki, hal-hazırda təəssüflər olsun, belə bir dəlil yoxdur.

## Daha aydın yol

Bu iradı həll etmək üçün daha asan bir yol tapmışıq ki, onu izah etmək üçün diqqət olunması zəruri olan bir neçə müqəddiməyə ehtiyac vardır:[1]

1. Bədənimiz ömür boyu bir neçə dəfə dəyişir. Sanki böyük bir hovuza kiçik bir deşikdən su tökülür və başqa bir deşikdən tədricən hovuzdakı su boşalır. Bir müddət keçdikdən sonra hiss olunmadan həmin hovuzun suyu bütünlüklə dəyişmiş olur. Ruhun müstəqilliyi bəhsində dediyimiz kimi bədəndə baş verən dəyişikliklərdən heç bir hüceyrə, hətta beyin hüceyrələri belə istisna deyil.

Bədənin bütünlüklə dəyişməsi üçün lazım olan müddət, bəzilərinin dediyinə görə yeddi, ya səkkiz ildir. Bu qayda ilə yetmiş yaşlı bir insanın bədəni ömür boyu təxminən on dəfə dəyişmiş olur.

---

[1] *Bu yola indiyə kimi heç bir yazıda rast gəlməmişik. Buna görə də ilk dəfə deyildiyi üçün daha artıq diqqət və təhqiqə ehtiyac vardır ki, lazımi dəyəri məlum olsun.*

2. Dəyişən bədəndəki hüceyrələr öldükcə öz xasiyyətini onun yerinə gələn hüceyrələrə ötürür. Elə buna görə dəfələrlə dəyişməsinə baxmayaraq dərinin rəngi, göz bəbəyinin forması və rəngi, eləcə də insan bədəninin başqa xüsusiyyətləri ömür boyu eyni qalır. Deməli insanın ömrünün sonunda malik olduğu bədən həqiqətdə əvvəlki bədənlərin sifət və xüsusiyyətlərini özündə daşıyır. Buna əsasən demək olar ki, insanın son bədəni ömür boyu malik olduğu bütün bədənlərin göstəricisi və nümunəsidir.

3. Quran ayələrindən aydın görünən budur ki, Qiyamətdə insanın bədənlərinin bütün xüsusiyyətlərini daşıyan və ömrün sonunda çürüyüb torpağa qarışan sonuncu bədən diriləcək. Quranın üç ayəsində oxuyuruq ki: "İnsanlar Qiyamətdə qəbrlərindən qalxacaqlar."[1] Bu ayələr Qiyamət günü sonuncu bədənin diriləcəyini göstərir. Çünki qəbrdə sonuncu bədənin çürüntüsündən başqa bir şey yoxdur.

Əlbəttə, bu, bədən dəfn olunan surətdədir. Əgər bir bədən tamamilə yanıb kül olarsa, ya başqa səbəblərdən tamamilə aradan gedərsə, o zaman qəbir olmasa da, sonuncu bədənin qalıqları toplanıb diriləcək.

Yasin surəsinin sonunda məad barəsində bəhs edən bir ayədə belə oxuyuruq: "Bunu (qurumuş sümüyü) ilk dəfə yaradan Allah yenidən yaradacaq."[2]

---

[1] *Yasin surəsi, 51; Qəmər surəsi, 8; Məaric surəsi, 43.*

[2] *Yasin surəsi, 79.*

Bu ayə də dirilənin sonuncu bədən olacağını göstərir. Bundan başqa bu həqiqəti dəstəkləyən başqa ayələr də vardır.

4. İki bədən tam şəkildə vahid bədən ola bilərmi? Başqa sözlə desək, bir nəfərin bədəni qida şəklində tamamilə başqa bir nəfərin bədəni ola bilərmi? Bu sualın cavabı mənfidir. Çünki bir nəfərin bədəni yalnız başqa bədənin bir hissəsi ola bilər, nəinki hamısı. Bunun dəlili də aydındır. Çünki başqasının bədəni ilə qidalanan insanın əvvəlcədən bir bədəni vardır. Başqasından qidalanmaqla onu bədəninin yalnız bir hissəsi edə bilər.

Doğrudur, birinci insanın bədəni tamamilə ikinci insanın bədənində həll olur, lakin bu müqədimədə bizim demək istədiyimiz bu deyil. Məqsədimiz birinci insanın bədəninin əsla ikinci insanın bədəninin tamamı olmamasıdır. *Diqqət edin!*

Bəli, əgər fərz etsək ki, bir insan 7-8 il müddətində birinin bədənindən başqa heç nə, hətta sonradan onun bədəninin bir hissəsinə çevriləcək su və oksigen də qəbul etməyib, bu surətdə birinci insanın bədəni ikinci insanın bədəninin tamı ola bilər. Lakin məlumdur ki, bu fərziyyə heç bir tərəddüd olmadan batildir. Bir insanın 7-8 il müddətində hətta su və oksigen də qəbul etməyib birinin bədəni ilə qidalanması mümkün deyil. Əlavə olaraq su və oksigeni istisna etsək də, bu fərziyyənin nümunəsi ətraf aləmdə əsla imkanı olmayan şeydir.

Nəticə budur ki, iki bədənin bütün cəhətlərdən bir olması heç vaxt mümkün deyil. Yalnız birinin bədəni başqa birinin bədəninin bir hissəsi ola bilər.

5. Bədən hüceyrələrimizdən hər biri bizim şəxsiyyətimizi ehtiva edir. Belə ki, onlardan hər biri bəslənərsə, bədənimizi yarada bilər. Başqa sözlə, bədənimizin bütün xüsusiyyətləri hər bir hüceyrədə mövcuddur.

Genetika bəhslərinə müraciət etməklə bu mövzu daha da aydın olur.

Bu, təkcə bizim bədənimizə məxsus deyil, bütün varlıqlara hakim olan bir qanundur. Buna görə də görürük ki, ağacların çoxunu calaq etməklə artırırlar. Yəni bir ağacın kiçik bir budağı və ya tumurcuğu öz-özlüyündə kamil bir ağac olmaq qabiliyyətinə malikdir.

Bəzi həşəratlarda təcrübə yolu ilə məlum olmuşdur ki, əgər onların bədənləri kiçik parçalara ayrılsa, həmin parçaların hər biri müstəqil olaraq yenidən tam bir varlıq ola bilir.

İnsan bədənində də bu məsələ ümumi şəkildə və təbiət qanunlarına əsasən qeyri-mümkün sayılmır. Yəni əgər münasib şərait olarsa, insan bədəninin hər bir hüceyrəsi təkbaşına həmin insanın eynini yarada bilər.

Məgər yaradılışımızın ilk günündə biz bir hüceyrədən ibarət deyildikmi? İndi müşahidə etdiyimiz bədənımiz tamamilə həmin bir hüceyrədən ayrılıb təkamül yoluyla bu həddə çatmayıbmı?

6. Bizim şəxsiyyətimiz cismani cəhətdən maddələrin azalıb çoxalmasıyla, kiçilib böyüməsiylə dəyişirmi? Əsla yox.

Məsələn, biz ilk gün təkhüceyrəli bir nütfə idik, bir neçə həftə keçdikdən sonra bir neçə qramdan çox çəkisi

olmayan bir ət parçası olduq. Bir neçə aydan sonra çəkimiz 2-3 kiloqrama çatdı və bu surətdə dünyaya gəldik. Bizə ad qoydular, bu adla tanındıq. Lakin zaman keçdikcə biz (məsələn) yetmiş kiloqramlıq böyük bir insan olduq. Ola bilər ki, bəzi tənəzzüllər sayəsində bədənimizin çəkisi (məsələn) qırx kiloqrama qədər düşsün. Cismani cəhətdən baş verən bu dəyişikliklər bizim şəxsiyyətimizi dəyişərmi? Böyüsək belə biz bir vaxtlar yeni doğulmuş həmin körpə deyilikmi?

Bu sualların cavabı məlumdur. Bütün bu cismani dəyişikliklərə baxmayaraq insanın şəxsiyyəti əsla dəyişməz.

*** ***

Bu altı müqəddimə aydın olduqdan sonra bəhsin əslinə qayıdırıq. İndi görək bir insanın başqa bir insanın bədəni ilə qidalanması cismani məad məsələsində bir problem yaradırmı?

Həqiqət budur ki, burada heç bir problem yaranmır. Çünki məadda bir insanın bədənində olan başqa varlıqların hissələri öz yerinə qayıdır, yalnız bədənin öz hissələri qalır. Dediyimiz kimi bir insanın bədəni heç vaxt başqasının bədəninin hamısı ola bilməz. Demək başqa hissələr ondan ayrılandan sonra onun öz hissələri qalmış olur. *Diqqət edin!*

Bu da dəqiqdir ki, ikinci bədən onun bütün vücuduna səpələnmiş birinci bədənin hissələrini xaric olarsa, bir o qədər azalmış və kiçilmiş olur. Lakin bu azalmaya

baxmayaraq, yuxarıda qeyd etdiyimiz kimi əgər bir vücuddan hətta bir hüceyrə də qalmış olsa, həmin hüceyrə artıb çoxalmağa qadirdir.

Nəticə budur ki, Qiyamətdə hər iki bədən nə qədər az və kiçik həcmli olsa da, ağaca vurulmuş calaq kimi artıb çoxalma istedadına malikdir. Bu artıb çoxalma heç bir cəhətdən problem yaratmır. Çünki bədən həmin bədən, vücud və şəxsiyyət də elə həmin vücud və şəxsiyyətdir.

**Sual**

Burada təkcə bir sual yaranır ki, bu nəzəriyyəyə əsasən bəzən hansısa müəyyən bir hissə bir zamanlar günahkar bir insanın hissəsi olmuş, torpaq olub çürüyəndən və müxtəlif mərhələlərdən keçəndən sonra yaxşı bir insanın bədəninin bir hissəsi olmuşsa, o zaman bir müddət günahda, bir müddət isə yaxşı işlərdə istifadə olunmuş bu hissə yenidən ilk yeri olan günahkarın bədəninə qayıdırsa, ədalət məsələsi ilə bunu necə uyğunlaşdırmaq olar?

**Cavab**

Bu sualın cavabı bir məsələyə diqqət etməklə aydın olur. O da budur ki, dərd və bəlalar, eləcə də rahatlıq və rifah insanın ruhu ilə əlaqədardır. Cism bunlara yalnız vasitə və alətdir. Məsələn, əgər ölmüş bir bədəni tikə-tikə doğrasalar, heç bir ağrı yaratmayacaq. Yaxud huşdan getmiş insanın bədən üzvlərini yarmaq ona heç bir narahatçılıq yaratmır.

Günah və savab ruhdan qaynaqlanır, bədən sadəcə ona vasitədir. Mükafat və cəza da sonunda ruha qayıdır, bədən yenə də ancaq vasitədir. Biz cismani məad

məsələsində "filan bədən günah edib", ya "filan bədən savab iş görüb" demirik. Biz sadəcə bunu deyirik ki, ruh bədənsiz kamil həyat sürə bilməz. Buna görə də ruh öz əsli cisminə qayıtmalı və öz kamil həyatını davam etdirməlidir.

Bu iradın cavabında aldığımız nəticə bu oldu ki, (şəxsiyyətin vəhdəti məsələsi həll olduqdan sonra) müəyyən hissələrin iki bədəndə olması mükafat və cəza, savab və əzab məsələsində heç bir müşkül yaratmır. Bununla da çoxlarının fikrini məşğul etmiş[1] "yeyən və yeyilən" iradı həll olunan bir məsələdir. Yəni Quranın dediyi kimi həmin bu bədənlə cismani məadı qəbul etməklə bu irada rahatlıqla cavab vermək olar. *(Əgər bu bəhsdə qaranlıq məqamlar qaldısa, bir daha əvvəldən oxumağınız rica olunur.)*

### 2. Yerdəki maddələrin azlığı

Cismani məad mövzusunda irəli sürülən iradlardan digəri budur ki, əgər Qiyamət günü bütün insanlar həmin bu bədənlə qayıtsalar, o zaman yer üzünün torpaq ehtiyatı onların hamısına kifayət etməz. Bu surətdə bütün insanların bədənlərinin yenidən yaradılışı üçün torpaq çatışmamazlığı ilə qarşılaşacağıq. Əgər bu insanların indiki kimi olmayacağını, kiçik həcmli insan formasında yenidən diriləcəyini desək, çox qəribə və inanılmaz görünəcək.

---

[1] *Bəlkə də elə buna görə onlar cismani məad məsələsində şəkk-şübhəyə düşmüşlər.*

Cavab: Bu sözü deyənlər həqiqətdə qaranlığa bir ox atmışlar ki, təəssüflər olsun hədəfə çatmamışdır. Məgər yaxşı olmazmı, hesabatla bağlı olan belə bəhslərdə əlimizə kağız-qələm alıb icmalı surətdə də olsa hesablama aparaq və belə yanlış düşüncələrdən xilas olaq?

İndi kağız-qələm götürüb hesablayaq:

Deyirlər ki, insanın bədəninin 65-70%-i sudur. Buna görə də bir insanın bədəninin digər hissəsi onun təxminən 1/3 hissəsini təşkil edir. Yəni 60 kiloqram ağırlığında bədənə malik olan bir insanın yalnız 20 kiloqramlıq hissəsi sudan başqa maddələrdən (torpaqdan və s.) ibarətdir, qalan hissəsi isə sudur. İndi hesablayaq görək 1 $m^3$ torpaq neçə insanın bədəninin düzəlməsinə yetər? Asanlıqla anlaşılır ki, bu qədər torpaq 100 nəfərdən çox insan üçün yetərlidir. Əgər torpağın xüsusi çəkisini suyun iki qatı qədər hesablasaq, o zaman torpağın çəkisi 2.000 kq olacaq ki, onu da 20-ə bölsək (hər insana düşən torpaq payı), 100 rəqəmini alacağıq.

Deməli 1$km^3$ torpaq 100 milyard insanın bədənini düzəltməyə yetər. Başqa sözlə desək, bu qədər torpaq yer kürəsinin insanlarının 25 misli qədərdir. Bu da yer üzünün çox cüzi hissəsini təşkil edir.

İndi həmin bu hesabatı zaman üfüqündə davam etdirək. Bir insanın orta ömür həddi nə qədərdir? Başqa sözlə, bir insan nəslinin tamamilə aradan gedib başqa bir nəslin onun yerinə gəlməsi üçün nə qədər zaman lazımdır? Bu, əlli ildən çox deyil. Əlbəttə, əvvəllər bu müddət daha çox olub.

İndi yuxarıda aldığımız 25 rəqəmini 50-ə vuraq. 1.250 cavabını alırıq. Deməli, 1km$^3$ torpaq 1.250 il müddətində bütün yer üzünün gəlib-getmiş insanları üçün yetərlidir.

Buna əsasən, əgər bəşər həyatının bütün dövrlərini məsələn, 12.500 il fərz etsək, həmçinin fərz etsək ki, heç bir insanın digər bir insanın bədəninin bir hissəsi olmayıb, o zaman 10 km$^3$ torpaq bütün insanların yenidən yaranması üçün bəs edər.

Əgər son araşdırmalara görə, insanın yer üzərindəki həyatını 2.500.000 il fərz etsək belə, bu surətdə 2.000 km$^3$ torpaq kifayət edər. Bu da yenə yer üzünün çox cüzi hissəsini əhatə edəcək.

Deyilənlərdən nəticə aldıq ki, bu iddia necə də əsassız və dəlilsizdir.

### *3. Məad hansı bədənlə baş verəcək?*

Cismani məad barəsində qarşıya çıxan iradlardan biri də insanın bir ömür boyu dəyişikliklərə məruz qalan hansı bədəninin məadda qayıdacağı məsələsidir. İnsanın bədəni məsələn yetmiş illik ömründə əgər on dəfə dəyişikliyə məruz qalırsa və hər bir bədənlə yaxşı və pis işlər görürsə, bu surətdə bu bədənlərin ya hamısı, ya da biri qayıdacaq ki, bunu da seçmək üçün heç birinin üstün cəhəti yoxdur. Bundan əlavə, hər bədənin özünə məxsus etdiyi əməlləri vardır ki, başqa dövrün bədəni ilə bu baxımdan tam fərqli ola bilər. Nəticədə əgər məad yalnız ruhani cəhətdən olsa, bu iradların heç biri qarşıya çıxmaz.

### Cavab

Bu sualın cavabını elə sualın özündə tapmaq olar. Deyildiyi kimi hər bir bədən özündən əvvəlki bədənin

bütün xüsusiyyətlərini özündə saxlayır. Deməli sonuncu bədən ömür boyu baş vermiş bütün əməllərin icraçısı hesab olunur. Çünki onların varisi və canişini, hətta onların bütün xüsusiyyətlərini ehtiva edən və özündə saxlayan yeganə bədən odur.

Buna əsasən, əgər məadda sonuncu bədən qayıdarsa, bu, bütün bədənlərin qayıtması anlamına gəlir.

Qeyd olunduğu kimi bir neçə Quran ayəsi də məadda sonuncu bədənin qayıdacağını bildirir:

Sura (ikinci dəfə) üfürülər, onda onların hamısı dərhal qəbirlərindən öz Rəbbinə doğru tələsərlər.[1]

Allah qəbirdə olanların hamısını dirildəcək[2]

Bu və başqa ayələrdən asanlıqla anlaşılır ki, məad sonuncu bədənlə baş verəcək. Ağıl da bunun belə olacağına hökm edir. Çünki bütün ömür boyu dəyişən bədənlərin məcmusunu anladan, həqiqətdə həmişə ruhla yanaşı olan, hər cəhətdən onunla eynilik təşkil edir. Ruh da yalnız onunla kamil surətdə yaşaya bilər. Buna əsasən də bu baxımdan irad etməyə heç bir yer qalmır.

### *4. Qiyamət harada olacaq?*

Cismani məad barəsində irəli sürülən bütün iradlar həll olduqda daha bir irad da qalır. Həmin irad budur: Bəşər yer üzünə gələndən indiyə kimi bütün insanlar məadda dirilərsə, o zaman yer üzünə sığmaz. Çünki hətta indi də dünyanın bəzi məntəqələrində cəmiyyət sıxlığı müşahidə olunur və bəzi təşkilatlar insanların bu sürətdə artımı ilə mübarizə metodları düşünürlər. İndi təsəvvür edin, əgər

[1] *Yasin surəsi, 51.*

[2] *Həcc surəsi, 7.*

bütün insanlar dirilərsə, yer üzündə necə sıxlıq əmələ gələcək. Amma məad yalnız ruhani olarsa, belə bir çətinlik meydana gəlməyəcək. Ona görə ki, ruhlar aləmində belə sıxıntı yaşanmaz.

**Cavab**

Bu iradı irəli sürən kəs bir məsələdən sanki xəbərsizdir. Quranda açıq-aşkar deyildyi kimi cahanın sonunda hər şey bir-birinə dəyəcək, Günəş sönəcək, Ay qaranlığa qərq olacaq, dağlar, toz zərrələri kimi havaya səpələnəcək. Sonra bu dağılmış dünyanın yerinə yeni bir dünya qurulacaq. Yeni insanların həyatı yeni dünyada baş tutacaq. Bu qayda ilə də yer üzünün sıxlığı məsələsi ümumiyyətlə araya gəlməyəcək. Çünki o zaman yer indiki halında olmayacaq ki, biz də onun sıxlığından narahat olaq. Gələn bəhslərdə bu barədə geniş məlumat veriləcək.

# BÖYÜK HESAB GÜNÜNÜN ŞAHİDLƏRİ

Hesab günü heç bir istisna olmadan hamının iştirak edəcəyi bir məhkəmədir. Lakin dediyimiz kimi bu məhkəməni lazımınca bəyan etmək qüdrətində deyilik. Xüsusilə, başqa bir aləmin həyatı barədə, yaşadığımız həyatla tamamilə fərqlənən yeni bir həyat haqqında söz demək çətindir.

Kitabın əvvəllərində deyildiyi kimi bu hal eynilə ana bətnində olan iki körpənin bu dünya barəsində olan təsəvvürləri kimidir. Onlar bir birinə bu dünyanı necə təsvir etmək gücündədirlərsə, bizim də o dünya barəsində olan təsəvvürlərimiz həmin həddədir.

Ölümdən sonrakı aləmin bu dünya ilə nisbətdə böyüklüyü bu dünyanın ana bətni ilə nisbətdə olan böyüklüyü kimidir. Belə olan halda bu dünyanın kəlmələri ilə o aləmi kamil surətdə təsvir edə bilməmək təəccüblü deyil. Sadəcə ümumi surətdə bunu deyə bilirik ki, o aləmdə bütün insanlar mühakimə olunacaq, lakin bu mühakimənin necə baş tutacağını dəqiq bilmirik. Qiyamət meydanında hər bir kəsin öz əməl dəftəri ilə, şahidləri ilə birlikdə hazır olması, məsələn, mələk cinsindən olan hakimlərin qarşısına çıxmaları, mühakimə olunmaları, müttəhimlərin özünü müdafiə etmələri, hökmün çıxarılması və sonunda mütləq hakim olan Allah tərəfindən bu mühakimının imzalanması, hükmləri oxunan insanların cənnət və cəhənnəm mələklərinə tapşırılaraq son mənzilə yola salınması kimi təsəvvürlər

yersizdir. Çünki bizim gördüyümüz və eşitdiyimiz mühakimə formaları bu dünyaya məxsus olan, axirət aləmi ilə çox az cəhətdən bənzərliyi olan məhkəmələrdir.

Əməl tərəzisindən söz düşəndə belə başa düşülməməlidir ki, guya əməlləri tərəzinin bir gözünə qoyub digər gözünə çəki daşlarını yığmaqla onun həqiqi çəkisi ölçülür və çəkisi məlum olandan sonra hesablama maşınları ilə hesablanılıb təhvil verilir. Qeyd etdiyimiz kimi, söhbət bu dünya ilə tamamilə fərqlənən bir aləm barəsindədirsə, burada mənaları kəlmələrlə tam ifadə etmək mümkün deyil. Bu, bir həqiqətdir. Əlbəttə, bu həqiqəti bəhanə gətirib o aləmin məsələləri barədə yersiz təfsirlər etmək, qeyri müəyyənlikdən sui istifadə edib yersiz mənalar ifadı etmək olmaz. O aləm barədə bütün deyilənlər dəlillərə əsaslanmalıdır. Elə bizim bu dünyamızda qədim zamanlarda işlənən bir kəlmə müasir dövrdə tamam başqa bir məna ifadə edir. Məsələn, qədimdə "çıraq" kəlməsini neft, ya yağla yanan, nəticədə zəif işıq saçan bir əşyaya deyirdilərsə, müasr zamanda məlum olduğu kimi bu kəlmə tamam başqa bir əşyaya deyilir. Əgər bu dünya zaman baxımından bir kəlmənin mənalarını dəyişirsə, bu dünya ilə o dünya arasında olan kəlmə və məna bağlılığı daha fərqli olacaq. Bu müqəddimədən sonra qiyamət günü ilə əlaqədar olan kəlmələrin mənalarına diqqət edək:

### a) Məadın şahidləri

Quran ayələrində bu böyük məhkəmə üçün müxtəlif şahidlərin olacağı qeyd olunur:

1. Allahın şahidliyi: Hər hansı halda və işdə olsan, Onun tərəfindən Qurandan hər hansı bir hissəni oxusan və (boynunda ilahi vəzifə olan siz bəndələr) hər nə iş görsəniz, ona məşğul olduğunuz zaman Biz orada hazır və sizə şahidik. Və nə yerdə və nə göydə zərrə ağırlığı qədər də bir şey sənin Rəbbin(in zat, qüdrət və elminin əhatəsin)dən gizli deyildir. Və ondan (zərrədən) nə kiçik və nə böyük bir şey yoxdur ki, aşkar kitabda (əşyaların həqiqətlərinin əks olunduğu və Allah dərgahına yaxın olanların gözləri önündə aşkar olan bir lövhədə) qeyd edilməmiş olsun.[1]

2. Peyğəmbərlərin şahidliyi: Buna görə də hər ümmətdən (onların iman, küfr, itaətkarlıq və itaətsizliklərinə şahidlik etmək üçün) bir şahid (peyğəmbərlərini) gətirəcəyimiz və səni də bunlara (bu ümmətə, yaxud o şahidlərə) şahid gətirəcəyimiz zaman (sənin və camaatın halı) necə olacaq?![2]

3. Dil, əl və ayağın şahidliyi: O gün ki, dilləri, əlləri və ayaqları onların ziyanına, (dünyada) etdiklərinə şəhadət verəcəklər.[3]

4. Dərinin şahidliyi: Onlar öz (bədənlərinin günahda birbaşa iştirak etmiş) dərilərinə deyərlər: «Nə üçün bizim əleyhimizə şəhadət verdiniz?» (Dəriləri) deyərlər: «Bizi hər şeyi (bütün danışanları) dilə gətirən Allah danışdırdı.

---

[1] *Yunus surəsi, 61.*
[2] *Nisa surəsi, 41.*
[3] *Nur surəsi, 24.*

Sizin hamınızı ilk dəfə O yaradıb və indi (də) Ona tərəf qaytarılırsınız.»[1]

5. Yerin şahidliyi: Məhz o gün yer öz xəbərlərini açıb söyləyər. (Köksündəkiləri çıxarıb atmağı onun elə danışmasıdır. Yaxud da o elə dilə gələrək danışar). Ona görə ki, sənin Rəbbin ona vəhy etmişdir.[2]

6. Mələklərin şahidliyi: (Həmin gün) hər bir kəs bir sürükləyənlə və (əməllərinə şəhadət verəcək) bir şahidlə gələcəkdir.[3]

### *Şəhadətin keyfiyyəti*

Yuxarıda deyilən şahidlərin şəhadəti təbii ki, bu dünyadakı kimi deyil. Bu şahidlik heç bir yalanı olmayan əməli şəhadətdir. Məsələn, bəzən deyirik ki, filankəsin ötən gecə yatmaması gözlərinin halından bilinir. Yaxud, bir nəfərin qorxması rənginin qaçmasından və səsinin titrəməsindən məlum olur, ya birinin təzə libaslar geyinib evini səhmana salması qonaq gözlədiyini göstərir. Buna əməli şəhadət deyilir. Sözsüz ki, burada heç bir yalandan söhbət gedə bilməz.

Bəzən bir müttəhim şahidlərin onun əleyhinə olan bütün sözlərini inkar etdiyi zaman ittiham olunduğu əməli təsdiq edən bir lent yazısı, ya şəkil sübut kimi ortaya qoyulduqda onu inkar etməyə yer qalmır. Bu ona görədir ki, bu formada müttəhimin əməlinin sübutu təbii və əməli şahidlik yolu ilədir. Bu şahidliyi nə müttəhim, nə də başqası inkar edə bilər.

---

[1] *Fussilət surəsi, 21.*

[2] *Zəlzələ surəsi, 4-5.*

[3] *Qaf surəsi, 21.*

Unutmamalıyıq ki, bizim ruhumuz və cismimiz ömür boyu etdiyimiz əməllərin, dediyimiz sözlərin əsrarəngiz arxividir. Yəni, ömrümüz boyu yediyimiz yeməklər qanımızda, sümüyümüzdə, cismimizdə istisnasız olaraq təsir qoyduğu kimi əməllərimiz də ruh və cismimizdə öz əksini tapır. Bir yalan, bir xəyanət, başqalarının haqqına olan təcavüz, zalımcasına bir şəhadət və bu kimi bütün əməllər bizim ruhumuzda və cismimizdə təsir qoyur ki, qiyamət məhkəməsində həmin təsirləri oxumaq tam sürətdə mümkündür.

Əgər bir cəmiyyət belə bir həqiqətə diqqət edib həqiqi mənada iman gətirərsə öz əməl və rəftarlarına hakim olar. Belə bir məada iman gətirmək insanın tərbiyəsində fövqəladə təsirə malikdir.

### b) Hesab və kitab

Yuxarıda deyildiyi kimi, əməllərin hesabatı da bu dünyadakından fərqli şəkildədir. Zalım və saleh olmasından asılı olmayaraq hər kəs başdan ayağa yazılı bir kitabədir. Üzərində gəzilən yer, məskən qərar verilən evin divarları və s. hər biri ayrı ayrılıqda əməl dəftəri hesab olunur. Bunların hamısı salehlərin sağ, zaləmların sol əlinə veriləcək, Quran ayələrinə əsasən əsla inkar oluna bilməyəcək əməl dəftərləridir. Əlbəttə, bunu təsəvvür etmək bu günümüz üçün çox çətindir. Buradan başqa bir müşkül də həll olur. O da Qurani Kərimdə deyilən "Allah tez hesab çəkəndir"[1] ifadəsidir. Çünki orada hamının hesabı aydındır. Bu hesab hər kəsin

---

[1] *Bəqərə, 202.*

vücudunda yaxşı və pis əməllərin təsirlərindən yaranan əlamətlərdən ibarətdir.

Bəzən bu həqiqəti daha aydın başa düşmək üçün sadə bir misala ehtiyac olur. Məsələn, adi avtomobillər istehlak zamanı boyunca uzun uzadı yollar qət edir. Bu zaman sürücü indiyədək qət etdiyi məsafəni bilmir. Lakin avtomobilin kilometr sayğacına baxdığımız zaman onun qət etdiyi məsafə dəqiqliklə məlum olur. Buna əsasən deyirik ki, adi hesablamalarda səhv ehtimalı vardır. Bu hesablamalar barmaq sayı ilə, ya elektron hesablayıcılarla da ola bilər. Lakin bu dünyada heç bir səhvə yol verməyən bir hesablama da mövcuddur. Məsələn, ağac gövdəsinin qatlarının, eləcə də buz təbəqələrinin hər biri onun yaşını göstərən dəqiq hesabdır. Qiyamət hesabı isə bunlardan da daha dəqiqdir.

### c) Əməllərin çəkilməsi

İslami mətnlərdə əməllərin çəkilməsi mövzusu çox qeyd olunmuşdur. Bəziləri belə fikirləşirlər ki, mizan və tərəzi mövzusu orada da bu dünyadakı kimidir. Elə ona görə də bu tərəzidə nəyin çəkilməsi barədə söhbət açıb fərdlərin özləri, əməl dəftərləri, yoxsa əməllərin təcəssüm tapıb çəkiləcəyi mövzusunda müzakirələr aparıblar. Halbuki biz Quranda mizan və çəki barədə daha geniş bir mənanın olduğunu görürük:

"Göyü. O ucaltdı, tərəzini (ədalət tərəzisini) O qoydu!"[1]

"Biz peyğəmbərlərimizi açıq-aşkar dəlillərlə göndərdik. Biz onlara birlikdə kitab və ədalət tərəzisi nazil etdik."[1]

---

[1] *Rəhman surəsi, 7.*

Hər bir millət içində dəyərlərin ölçülməsi və müəyyənləşməsi üçün miqyas və ölçülər mövcuddur və belə demək olar ki, həmin millətlərin taleyini bu miqyas və ölçülər təyin edir. Məsələn, "elm və alim" məfhumu maddi texnologiya dünyasında bir cürdür, peyğəmbər və vəhy insanları arasında başqa cür. Bu gün alim o kəsə deyilir ki, onun beyin fəzası daha geniş, təbiət və onun sirlərindən daha çox məlumatlı, bu məlumatlardan daha faydalı istifadə bacarığı vardır, uzun müddət ömrünü elm ocaqlarında keçirmiş və çoxlu imtahanların öhdəsindən gəlmişdir. Bu surətdə onun elminin nəyə xidmət etdiyinin də fərqi yoxdur. İstər insanların xidmətində olsun, istər onların məhvinə səbəb olacaq silahların. İstər heroin istehsalına xidmət etsin, istər insan hüquqlarını müdafiə edən vəkillik karyerasına.

Lakin bu kəlmə İlahi rəhbərlərə (Həzrət Əli (ə) kimi) aid olan məktəblərdə tamam başqa bir məna kəsb edir. Əli (ə) buyurur: "Alim o kəsdir ki, insanların himayəçisi olsun, elmi onların nicatı yolunda işlətsin. İnsanların dərd-qəmini tanıyan, lakin onlara sirdaş olmayan kəs alim adına layiq deyil." Başqa bir yerdə buyurur: "Allah təala alimlərdən əhd-peyman almışdır ki, zalımların zülmü və məzlumların məzlumiyyəti qarşısında sükut etməsinlər."[2]

Əsas mövzudan uzaq düşməyək. Dedik ki, millətlər içində ölçü miqyasları müxtəlif sahələrdə bir-birindən fərqlənir. Onların xpşbəxtlik və bədbəxtlik yolları da həmin bu miqyaslara görə dəyişir. İlahi peyğəmbərlərin

---

[1] *Hədid surəsi, 25.*

[2] *Nəhcül-bəlağə, 3-cü xütbə.*

risalət səbəblərindən biri də insanlara onların islahı üçün miqyas və meyarların öyrədilməsidir. Yuxarıda qeyd olunan Hədid surəsinin 25-ci ayəsi də bu həqiqətə işarədir.

Buradan görünür ki, mizan mənəvi ölçü vasitəsi kimi də istifadə olunur. Maraqlıdır ki, Həzrət Əlinin (ə) ziyarətnamələrindən birində oxuyuruq: "Salam olsun sənə, ey əməllərin mizanı!" bu, bir insanın mizan və meyar olduğuna işarədir. çünki hər kəs iman, əməl, təqva, ədalət cəhətdən ona bənzəməklə öz həqiqi ölçü və dəyərini tapa bilər. Belə ki, o, insanların insani dəyərlərə malik olması üçün dəqiq tərəzi və kamil ölçü hesab edilir.

# MÜKAFAT VƏ CƏZA

Ölümdən sonrakı aləmdə baş verəcək mükafat və cəza məsələsindən doğru nəticələrin çıxarılmaması onu qaranlıq məqamları çox olan bir müəmmaya çevirmişdir. Məadda mükafat və cəza məsələsi haqqında sual doğuran çoxlu məqamlar mövcuddur. Bunlar da məsələyə doğru izah verilməməsindən qaynaqlanır.

Məsələn, bəziləri soruşurlar: Bizim günahlarımızın Allaha nə ziyanı vardır ki, bizi onlara görə cəzalandırır? Biz pis iş görmüşük, amma O, böyük, alim və qadirdir. Niyə bizi cəzalandırır? Onda bizimlə Onun arasında nə fərq vardır? Böyüklük edib bizim günahlarımızdan keçsin. Bundan başqa kafirlər içində hətta ən zalımları belə ən çox yüz il asi olub zülmə əl atırlar, bəs nə üçün milyon illər, hətta bəzən əbədi olaraq cəzalanırlar?

Adətən bir əməlin əvəzini ödətmək ya intiqam hissindən irəli gəlir, ya başqalarına ibrət vermək üçün, ya da həmin əməl sahibinin özünün tərbiyələnməsi üçün.

Ölümdən sonrakı həyatda baş verəcək mükafat və cəza məsələsinə bu üçündən heç birini aid etmək olmaz. Çünki intiqam hissi Allahdan uzaq olan bir xüsusiyyətdir. Belə ki, intiqam (təsəvvür olunanın əksinə olaraq) qüdrət əlaməti deyil, əksinə insan ruhunun zəifliyinin nişanəsidir. İntiqam yaralı ruhlara bir məlhəmdir, yaxud başqa sözlə, narahat, gücsüz və xəstə ruhlara aramlıq gətirən bir amildir. Buna görə də İlahi cəzalar intiqam səbəbindən ola bilməz. Günahkar insanın, ya başqalarının tərbiyələnmə məsələsi də doğru deyil. Çünki

tərbiyələnmək bu dünyaya aiddir. Demək ölümdən sonrakı cəzalar bu dünyaya aid olan cəza qanunlarından fərqli xüsusiyyətləri ehtiva edir.

Bütün bu qarışıq suallara bir həqiqəti dərk etməklə cavab verməkolar. Ölümdən sonrakı aləmdə baş verəcək bütün cəzaların sərçeşməsi insanın öz günahlarının onun ruhuna və cisminə təsirinin nəticəsi və onların təcəssüm tapmasıdır.

Ayə və rəvayətlərdə bu cahanla o aləmin rabitəsinin keyfiyyəti barəsində dəqiq, eyni zamanda maraqlı ifadələr görürük ki, bu bəhsin qaranlıq məqamlarına aydınlıq gətirə bilər. Məsələn, Şura surəsinin 20-ci ayəsində oxuyuruq: "Biz axirət əkininin barını istəyənin bəhrəsini artırarıq." Bu ayədəki "əkinin barı" ifadəsi məaddakı mükafat və cəzanın insanın bu dünyada qazandıqlarından başqa bir şey olmadığını bildirir.

Cinn surəsinin 15-ci ayəsində deyilir: "(Haqq yoldan) çıxanlar Cəhənnəm üçün odun olacaqlar." Göründüyü kimi onlar özləri və əməlləri od şəklində aşkar olacaq.

Saffat surəsinin 39-cu ayəsində isə deyilir: "Siz ancaq etdiyiniz əməllərin cəzasını alacaqsınız."

Bütün bu ifadələrdən açıq-aydın anlaşılır ki, o aləmdə qarşılaşacağımız bu dünyada qurucu, ya dağıdıcı enerjimizlə icra etdiyimiz yaxşı və ya pis əməllərimizdir. Bu əməllər bizim əməl dəftərimizdə qeyd olunub saxlanılıb və nəticədə həmin gün yeni bir qiyafədə aşkara çıxacaq. Bu əməllərin yenidən aşkara çıxması ya bizə fərəh verəcək, ya da yandıracaq. Hər iki halda onlar bizimlə olacaq və əsla ayrılmayacaqlar. Onlar bu dünyanın başqa

şeyləri kimi aradan getmir və İlahi əmrlə bizim özümüz kimi əbədiyaşar olurlar. Əməllərin bu formada qayıdışına əslində əməllərin təsiri və ya nəticəsi adını da vermək olar.

Maraqlıdır ki, rəvayətlərdə deyilir: "Dünya axirətin əkin yeridir." Burada işlənən "əkin" kəlməsindən də aydın olur ki, orada biçəcəklərimiz bu dünyada etdiyimiz pis, ya yaxşı əməllərimizin toxumlarından əmələ gəlib və təkamül nəticəsində yeni bir formada qarşımıza çıxıb. Öz yolumuzun üstünə bir neçə tikan toxumu səpib bir neçə ildən sonra tikanlıqların içi ilə oradan keçəndə düşünməliyik ki, bunun səbəbkarı elə biz özümüz olmuşuq. Eyni məqamda gül toxumu səpib sonradan gülüstan içindən keçib gedə bilərdik. Nə birinci halda kimsə bizə zülm edib, nə də ikinci halda nəyisə peşkəş tapmışıq. Hər iki halda öz etdiklərimizin nəticəsini görmüşük.

İndi özümüzdən soruşaq, əgər əbədi olaraq bu tikanlıqlar bizi incidəcəksə, ya bu gülüstan əbədi olaraq bizə ləzzət verəcəksə, burada başqa biri müqəssirdirmi? Bunun ədalətlə ziddiyyəti vardırmı? Şikayət edə bilərikmi? Əgər ölümdən sonrakı aləmin mükafat və cəzaları barədə bu istiqamətdə düşünüb nəticə çıxarsaq, o zaman heç bir sual, ya qaranlıq məqam qalmayacaq. ***Diqqət edin!***

# ƏMƏLLƏRİN TƏCƏSSÜMÜ

**Məadda əməllərimiz necə cana gəlib, hər biri bir surətdə təcəssüm tapır?**

O cahanın xüsusiyyətlərindən və bu dünya ilə aşkar fərqlərindən biri də əməllərin təcəssüm tapması məsələsidir.

Yaşadığımız bu dünyada əməl və sözlərimizi ötəri və tez gəlib gedən, məhv olan hesab edirik. Düşünürük ki, hərəkətlərimizin tarixdə qalması, hardasa həkk olması mümkün deyil. Mümkündür ki, mahir bir fotoqraf bir cinayətin işləndiyi zaman həmin anı çəkib saxlasın, yaxud biri kiminsə səsini yazıb saxlasın. Bu şəkil, ya səs tarixdə qalacaq, lakin cinayət bir anda baş verib bitəcək.

Amma bilməliyik ki, ötəri hesab etdiyimiz, bir anda baş verib bitən hər əməlimiz, sözümüz məadda müstəqil varlıq şəklində gələcək, bizimlə olacaq. Etdiyimiz zülmlər qara buludlar kimi ətrafımızı saracaq[1], yetimlərin malları atəş[2], iman isə nur[3] şəklində təcəssüm tapacaq.

---

[1] *Peyğəmbərdən rəvayət olunur: "Zülm Qiyamətdə insan üçün zülmətə çevrilər." (Səfinə, zülm bölməsi)*

[2] *"Həqiqətən, yetimlərin mallarını haqsızlıqla yeyənlərin yedikləri qarınlarında oda çevriləcək və onlar (qiyamətdə) alovlu Cəhənnəmə girəcəklər." (Nisa surəsi, 10)*

[3] *"O gün mömin kişilərin və qadınların (səmimi etiqadları və dünyada etdikləri yaxşı əməllər müqabilində nail olduqları iman) nurunun onların önlərindən və sağ tərəflərindən axıb şölə saçdığını görəcəksən." (Hədid surəsi, 12)*

Bəzən əməli keyfiyyətlər ruhi və cismani keyfiyyətlərə dönəcək. Məsələn, cəmiyyətin iqtisadi yöndə nizamını pozan sələm yeyənlər elə psixi xəstəliyə düçar olacaqlar ki, yerlərindan qalxmağa qadir olmayacaqlar.[1]

Dövlətli və xəsis möhtəkirlər ətrafındakı məhrum və ac insanlara rəhm etməyərək yığıb saxladıqları, hətta özlərinin də istifadə etmədikləri, ancaq mühafizə etdikləri, öldükdə isə qoyub getdikləri sərvətlər ağır zəncirlər şəklində onların boynuna sarılacaq.[2]

Əməllərin təcəssümü barəsində yuxarıda qeyd olunanlardan başqa bəzi ayələr də vardır. O cümlədən:

1. Onlar (dünyada) etdikləri bütün əməllərin (öz qarşılarında) hazır durduğunu görəcəklər. Rəbbin heç kəsə haqsızlıq etməz![3]

2. (O gün dünyada etdikləri) pis əməllərinin cəzası onların gözünə görünəcək və istehza etdikləri (əzab) onları saracaqdır![4]

3. O gün insanlar əməllərinin özlərinə göstərilməsi üçün (qəbirlərindən məhşərə) dəstə-dəstə çıxacaqlar![5]

4. Kim (dünyada) zərrə qədər yaxşı iş görmüşdürsə, onu görəcəkdir. Kim də zərrə qədər pis iş görmüşdürsə, onu görəcəkdir.[6]

---

[1] *"Sələm (müamilə, faiz) yeyənlər (qiyamət günü) qəbirlərindən ancaq cin vurmuş dəli kimi qalxarlar." (Bəqərə surəsi, 275)*

[2] *"Onların xəsislik etdikləri şey qiyamət günü boyunlarına dolanacaqdır." (Ali-İmran surəsi, 180)*

[3] *Kəhf surəsi, 49.*

[4] *Casiyə surəsi, 33.*

[5] *Zilzal surəsi, 6.*

[6] *Zilzal surəsi, 7-8.*

Bu ayə insanın əməlin savab və ya cəzasını yox, əməlin özünü görəcəyini deyir. Bundan yuxarıdakı ayələr də belədir. Əlbəttə, bütün bu ayələri əməllərin əvəzini görmək və ya əməl dəftərini görmək kimi təfsir etmək də mümkündür. Lakin bu cür təfsir ayənin zahiri mənasıyla zidd olacaq. Bundan başqa bu cür təfsir etməyə əlimizdə əsas da yoxdur.

Əlavə olaraq İslami mənbələrdə də bizi bu yolla ayələri təfsir etməkdən çəkindirən rəvayətlər vardır. Həmin rəvayətlər yaxşı və pis olmasından asılı olmayaraq əməllərin necə mücəssəm olacağından danışır.

## Əməllərin təcəssümü mümkündürmü?

Burada mühüm bir sual irəli gəlir ki, bu məsələ elmi qaydalara uyğun gəlirmi? Bu sualın cavabı bir neçə qısa müqəddiməyə diqqət etdikdən sonra aydınlaşır.

1. Bilirik ki, cahan maddə və enerjidən mürəkkəbdir. Göylərdə və yerdə müşahidə etdiyimiz hər şeydə bu ikisini yanaşı görürük. Əvvəllər belə təsəvvür olunurdu ki, bu ikisinin arasında keçilməz sədd vardır. Maddə həmişə maddə olmuş və həmişə də belə qalacaq. Enerji də həmçinin. Lakin təbiət elmlərinin inkişafı nəticəsində cahanın bu iki kök təməlinin sirləri kəşf olundu. Məlum oldu ki, bu iki cəhət bir-birinə çox yaxındır və bir-birinin var olmasına hər biri səbəb ola bilər.

Elm və texnologiyanın müqabilində maddənin ən son kiçilmiş halı kimi müqavimət göstərən atom sonda kəşflərə tabe oldu və məlum oldu ki, atom zərrəsi sıxılmış enerji kütləsindən başqa bir şey deyil. Bundan sonra

maddənin enerjiyə dönməsi məsələsinin mümkünlüyü qəbul olundu.

Adi və təbii halda atom şüaları buraxan radiaktiv cismlərin mövcudluğu sübut etdi ki, atomun bölünməsi üçün həmişə güclü atom reaktorlarına ehtiyac yoxdur, əksinə dünyada olan atomlardan çoxu öz-özünə tədricən bölünmə qabiliyyətinə malikdir.

Atomlar bölünüb enerji olduqları kimi enerji də dönüb maddə ola bilərmi?

Əlbəttə, bu günümüzün elmi hələ belə bir şey edə bilməmişdir. Lakin bunu inkar etməyə də dəlilimiz yoxdur. Biz maddə və enerjinin bir-birinə çox yaxın olduqlarını qəbul etmişiksə, birinin digərinə dönməsini də mümkün hesab edə bilərik. Bu yöndə heç bir maneə gözə çarpmır.

2. Bizim əməllərimiz enerjinin müxtəlif hallarına çevrilir. Məsələn, sözlərimiz səs enerjilərimizdir ki, dil və dodağın mexaniki enerjiləri ilə qarışıb birlikdə beyin enerjilərinə birləşirlər. Yaxşı, ya pis olan bütün əməllərimiz də həmçinin.

Bu enerjilər bizim ətrafımıza yayılır, kənar cismlərin birindən digərinə dəyməklə əbədi təsir qoyur, təbiət aləminin dəftərinə əbədi həkk olurlar. Əvvəllər də dediyimiz kimi burada yox olmaqdan söhbət gedə bilməz, yalnız bir haldan başqa hala dönmək mümkündür.

Sonda elə bir gün gəlib çatır ki, zahirən yox və unudulmuş hesab etdiyimiz bu enerjilər bir yerə toplanır, yenidən cana gəlir, aşkara çıxır və yox olmadıqlarını göstərirlər.

Bunlara əsasən əməllərin təcəssüm tapma məsələsi elmi yollarla da qəbul olunur. Bu mövzu özü göstərir ki, o cahanın həya tərzi bu dünya ilə çox fərqlidir.

Fikirləşin, əgər əməllərin təcəssümü elə bu dünyada baş versəydi necə olardı. Məsələn, bir söyüş əziyyət verən bir varlıq kimi bizim yanımızda olsaydı, ya günahsız insanın üzünə vurulan bir sillə, başqasından zorla alınan haqq eybəcər bir varlıq şəklində bizimlə yanaşı olsaydı, həyatımız necə olardı? Əlbəttə, deyəcəksiniz ki, belə olsaydı, insanlar bəlkə onların qorxusundan səhv addım atmaz, yaxşı işlərə tərəf gedərdilər.

Lakin nəzərə almaq lazımdır ki, bu surətdə bizim ruhumuzda və canımızda heç bir təkamül baş verməyəcək, əksinə bir növ əməli cəbr baş verəcəkdi. Yəni sanki insanlar zorla bir xeyriyyə işinə cəlb olunacaqlar ki, burada da heç bir əxlaqi və mənəvi təkamül mümkün deyil. Ona görə də bu məqamda yalnız ağıl və İlahi peyğəmbərlərin təlimləri kifayətdir.

Hər bir halda əməllərin təcəssüm tapması məsələsinə inanmaq tərbiyəvi cəhətdən insanda çox böyük təsir qoyur, onu yaxşılıqlara təşviq edir, pis işlərdən çəkindirir, fədakarlıq tələb edən işlərə ürəkdən bağlanmaq hissini oyadır. ***Diqqət edin!***

# CƏNNƏT VƏ CƏHƏNNƏM

Əgər bir ana ilə bətnindəki körpə arasında danışıq əlaqəsi yaratmaq mümkün olsa, ana heç vaxt bu dünyanın bir bağını, bir mənzərəsini öz körpəsinə vəsf edə bilməz.

O cahanın cənnətinin nemətlərini, cəhənnəminin əzablarını da vəsf etməklə anlamaq bu dünya əhli olan bizə qeyri-mümkündür. Artıq qeyd etdiyimiz kimi bu həyat üçün nəzərdə tutulmuş məhdud kəlmələr o həyatın həqiqətlərini şərh edə bilməz. Onlardan danışmaq və onları anlamaq üçün başqa kəlmələr, başqa hiss və dərk lazımdır.

Qurani-Kərim necə də gözəl buyurur:

"Etdikləri əməllərin mükafatı olaraq (Allah dərgahında) onlar (möminlər) üçün göz oxşayan (onları sevindirəcək) nə cür nemətlər gizlənib saxlandığını heç kəs bilməz!"[1]

Bir hədisdə oxuyuruq:

"Orada gözlərin heç vaxt görmədiyi, qulaqların heç vaxt eşitmədiyi, hətta heç vaxt xəyala gəlməyən nemətlər vardır.[2]

Başqa bir tərəfdən Quran ayələrində cənnət və onun nemətləri haqqında oxuduqlarımızdan görünür ki, onlar bu dünyada gördüklərimizlə əsla müqayisə olunmaz:

---

[1] *Səcdə surəsi, 17.*

[2] *Səduq, "Mən la yəhzuruhul-fəqih", cild 1, səhifə 295, hədis 905.*

1. Allahdan qorxub pis əməllərdən çəkinənlərə vəd edilən Cənnətin vəsfi belədir: (ağacları) altından çaylar axar, yeməkləri də, kölgələri də daimidir.[1]

2. Müttəqilərə vəd olunan Cənnətin vəsfi belədir: orada dadı dəyişməyən (qoxumayan) sudan irmaqlar, təmi çönməyən süddən çaylar, içənlərə ləzzət verən şərabdan nəhrlər və təmiz baldan irmaqlar vardır. Orada onları hər cür meyvə və Rəbbi tərəfindən (günahlardan) bağışlanma gözləyir.[2]

3. Cənnət ağaclarının kölgələri üstlərinə düşəcək, meyvələri də onların ixtiyarında olacaqdır (istədikləri yerdə, istədikləri zaman onları dərib yeyə biləcəklər).[3]

4. Onlara (gözəl ətirli, təmiz) möhürlü (qablarda olan) şərab (rəhiq) içirdiləcəkdir. Onun (içində rəhiq olan qabın) möhürü müşkdür.[4]

5. (Cənnətdə) onlar üçün qızıl teştlər və qədəhlər içində (yemək-içmək) dolandırılacaqdır. Orada onların ürəkləri istəyən və gözlərini oxşayan hər şey olacaqdır.[5]

6. Biz onların ürəklərindəki kin-küdurəti çıxarıb atdıq. Onlar qardaş olub taxt üstündə qarşı-qarşıya əyləşərlər.[6]

7. Onları Rəbinin yanında əmin-amanlıq yurdu (Cənnət) gözləyir.[7]

---

[1] *Rəd surəsi, 35.*

[2] *Muhəmməd (s) surəsi, 15.*

[3] *İnsan surəsi, 14.*

[4] *Mutəffifin surəsi, 25-26.*

[5] *Zuxruf surəsi, 71.*

[6] *Hicr surəsi, 47.*

[7] *Ənam surəsi, 127.*

8. Onların oradakı (möminlərin Cənnətdəki) duası: «Pərvərdigara! Sən paksan, müqəddəssən!», orada salamlaşması: «Salam!» duası: «Həmd olsun aləmlərin Rəbbi Allaha!» sözləridir.[1]

9. (Haqq yoldan) çıxanlar isə Cəhənnəm üçün odun olacaqlar.[2]

Kafirlər üçün hazırlanmış, yanacağı insanlardan və daşlardan ibarət olan oddan (Cəhənnəmdən) həzər edin![3]

10. O, Allahın yanar odudur. Elə bir od ki, ürəkləri yandırıb-yaxar.[4]

Dediklərimizdən belə nəticə alırıq ki, ölümdən sonrakı cahan və məad bu dünyadan çox geniş və mərhələli, tam fərqli anlayışlarla dolu, nemətləri bərəkətli, əzabları dərdli bir aləmdir.

## Əbədilik məsələsi

İnsani xidmətlər və pozğunluqlar kəmiyyət və keyfiyyət baxımından eyni olmadığı kimi onların mükafat və cəzaları da eyni ola bilməz. Bəşərin cəza qanunlarında da məsələn bir qiymətli üzük oğurlayan oğruyla bir evə təcavüz edib orada yaşayanları qətlə yetirməklə cinayət işlədən caninin cəzası eyni deyil.

Hər cəhətdən heablanmış, yanlışlıq ehtimal verilən bəşər qanunlarından uzaq olan İlahi mükafat və cəzalarda

---

[1] *Yunis surəsi, 10.*

[2] *Cinn surəsi, 15.*

[3] *Bəqərə surəsi, 24.*

[4] *Huməzə surəsi, 6-7.*

da bu mütənasiblik dəqiq surətdə həm əməllər arasında, həm də onların mükafat və cəzaları barədə mövcuddur. Qeyd olunduğu kimi, xüsusilə əməl ilə onun əvəzi arasında bir növ təbii və təkvini rabitə mövcuddur. Buna görə də şəxslərə görə mükafat və cəzaların bir-birindən fərqlənməsi haqqında bəhs olunmağa ehtiyac yoxdur və bu, məlum məsələdir.

Lakin Quran və mötəbər hədis kitabları olan İslami mənbələrdən görünür ki, pak və imanlı fərdlər əbədi cənnətdə qalacaq, vücudları küfrdə qərq olan bəzi günahkar fərdlər isə həmişəlik olaraq cəhənnəmə əzabına düçar olacaqlar. Quranın dili ilə buna "xulud" deyilir. Lüğətdə isə bu söz bir şeyin öz halında qalmasına deyilir. Quranda 25 yerdə "xalidun" kəlməsi işlənib ki, onun 14-ü cəhənnəm əzabının əbədiliyi barədə istifadə olunub. "Xalidin" kəlməsi isə 24 dəfə işlənib ki, onun da 13-ü yenə əzaba aiddir. Bəzən də əbədiliyi bildirən başqa kəlmələr işlənmişdir. Məsələn, Hud surəsinin 108-ci ayəsində yaxşı əməl sahibləri barədə oxuyuruq:

"Xoşbəxt olanlar Cənnətdədirlər. Onlar, Rəbbinin dilədiyindən əlavə, tükənməz bəxşiş və nemət kimi göylər və yer durduqca orada əbədi qalacaqlar."

Aqibəti pis olanlar barədə isə ondan bir ayə əvvəldə belə deyilir:

"Bədbəxt olanlar od içərisində (Cəhənnəmdə) qalacaqlar. Onların orada ah-fəryad gözləyir. Rəbbinin istədiyi istisna olmaqla, onlar orada əbədi-göylər və yer durduqca qalacaqlar. Həqiqətən, Rəbbin istədiyini edəndir."

Məlumdur ki, ayədəki istisna əzabın bitməsini bildirmir, əksinə Allahın qüdrətini göstərir. Yəni bu işin Allahın əlində olmamasını güman etməyin, hər şey Onun qüdrəti ilədir.

Buna sübut ayədəki "tükənməz bəxşiş" ifadəsidir.

Bundan başqa əgər kimsə kafirlərin əzabının davamiyyəti barədə şəkk-şübhədədirsə, yaxşı iş sahiblərinin mükafatının davamiyyətində əsla tərəddüd etməyə yer yoxdur. Bu da bizim dediklərimizə bir sübutdur.

## Mühüm bir sual

Burada hər kəsin zehnində bir sual işarəsi yarana bilər ki, Allahın işində bu cür bərabərsizlik necə yarana bilər?

Necə qəbul etmək olar ki, 70, ya ən çoxu 100 il yaşayan və bu müddətdə yaxşı, ya pis işlər görən insan əbədi olaraq necə mükafat, ya əzab görə bilər? Bu məsələ mükafat barədə o qədər də mühüm deyil, çünki mükafat nə qədər çox olsa, onu verənin kəraməti və fəzlidir. Amma günah işlər müqabilində əzabın əbədi olması ədalətlə düz gəlmir. Ən çoxu 100 il günah və küfrdə olan bir nəfər nə üçün əbədi cəhənnəmdə qalıb işgəncə çəkməlidir? Məgər bu işdə ədalət olmamalıdırmı? 70 il günah edən elə 70 il də əzab çəkməməlidirmi?

## Qaneedici olmayan cavablar

Bu sualın cavabının çətinliyi səbəb olmuşdur ki, bəziləri "əbədilik" ifadə edən ayələri başqa mənalara yozmuş və elə təfsir etmişlər ki, onların fikrincə ədalətin ziddinə olan bu məna ayələrdən anlaşılmasın:

1. Bəziləri deyirlər: "Əbədi" kəlməsi məcazi mənada işlənmişdir. Bu kəlmədən məqsəd uzun müddətli əzabdır. Bu, eynilə ona bənzəyir ki, əgər birinə ömrünün sonuna kimi həbs hökmü oxunubsa, onun barəsində deyərlər: "o, əbədi məhkumiyyət alıb." Halbuki dünya zindanlarının heç birində əbədiyyət deyilən bir məfhum yoxdur, ömür bitdikdə həbsin müddəti də bitir.

2. Bəziləri isə deyir: Cəhənnəm həmişə eyni halda qalmayacaq, bir gün gələcək ki, o da sönəcək.

3. Bəziləri ehtimal verirlər ki, zaman ötdükcə və cəhənnəmdəkilər bir müddət əzab çəkdikdən sonra onlar üçün bu hal adiləşəcək və əzabın ağrısını hiss etməyəcəklər.

Əlbəttə, qeyd etdiyimiz kimi bu cavabların hamısı "əbədilik" sualının qarşısında aciz qalmaqdan irəli gəlmişdir, əks halda müəyyən bir dəstə üçün əzabın əbədi olması barədə olan ayələr inkar oluna bilməz.

## İradın həlli

Bu iradı həll etmək üçün əvvəlki bəhslərə qayıtmalı və o aləmin mükafat və cəzaları ilə başqa mükafat və cəzaları müqayisə etməkdən çəkinməliyik. Nəticədə məlum olacaq ki, əbədilik məsələsi heç cür ədalətlə zidd gəlmir.

Bəhsin izahı üçün üç məsələyə diqqət etməliyik:

1. Əbədi əzab yalnız üzərinə nicat qapılarını bağlayan, bilə-bilə fəsada, küfrə, nifaqa qərq olan, bununla da qəlbini və canını günahla möhürləyən, həqiqətdə günah və küfr rəngi alan kəslərə aiddir. Quranda oxuyuruq:

"Günah qazanan və qazandığı günahlara əhatə olunan şəxslər cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar."[1]

2. Cəzanın da günah müddəti qədər olmalı olduğunu deyənlər yanılırlar. Çünki günahla əzabın rabitəsi zaman baxımından deyil. Bu, keyfiyyət məsələsidir. Deməli əzabın zaman baxımından müddəti günahın keyfiyyətinə bağlıdır, nəinki müddətinə.

Məsələn, bir kəs bir an içində birini öldürür və cəza olaraq ömür boyu həbs cəzası alır. Göründüyü kimi günahın müddəti bir andır, amma cəzası bir ömür. Demək burada kəmiyyət deyil, keyfiyyət nəzərdə tutulur.

3. Əvvəl də demişik ki, məadın mükafat və cəzaları əməlin təbii əsərləri və günahın xasiyyətləri əsasında olur. Başqa sözlə desək, günahkarların o aləmdə o əzablar və işgəncələr öz əməllərinin nəticəsi və təsiridir.

Quranda oxuyuruq:

"Bu gün heç kəsə heç bir haqsızlıq edilməyək. Siz ancaq etdiyiniz əməllərin cəzasını çəkəcəksiniz!"[2]

"(O gün dünyada etdikləri) pis əməllərinin cəzası onların gözünə görünəcək və istehza etdikləri (əzab) onları saracaqdır!"[3]

"Hər kəs pis əməllə gəlsə, (bilsin ki) pis əməllər edənlərə ancaq əməllərinin cəzası verilər!"[4]

Bundan əvvəl də əməllərin təcəssümü məsələsində bu barədə söhbət açmışıq.

---

[1] *Bəqərə surəsi, 81.*

[2] *Yasin surəsi, 54.*

[3] *Casiyə surəsi, 33.*

[4] *Qəsəs surəsi, 84.*

Bu üç məsələni bildikdən sonra qarşıya çıxmış iradın həlli o qədər də çətin görünmür. Ona cavab vermək üçün aşağıdakı suallara cavab vermək kifayətdir:

Fərz edin, bir nəfər bir həftə ərzində spirtli içkilər içməklə mədəsini xəstəliyə düçar edir və nəticədə ömrünün sonuna kimi bu dərdlə yaşayır. Əməl ilə onun nəticəsi arasında olan bu hal ədalətsizlikdirmi? Əgər bu insanın ömrünü adi qaydada 70-80 il yox, məsələn min il, ya daha çox təsəvvür etsək və bu müddət boyu həmin insan əziyyət çəksə, ədalətin ziddinə bir şey baş verəcəkmi? Həm də əvvəldən ona bu barədə məlumat verilmiş və o da bunun xətərli olduğunu bilirdisə, irad etməyə yer qalırmı?

Yuxarıdakı bəhslərdə tikan və ya gül toxumu səpən insanın misalını yəqin xatırlayırsınız.

Deməli bunlar hamısı əməllərin təsiridir və kəmiyyət baxımından bərabərlik olmasa da ədalətlə heç bir ziddiyyəti yoxdur.

Deyilənlərdən belə nəticə alırıq: Mükafat və cəzaların insanın öz əməlinin nəticəsi olduğunu qəbul etdikdən sonra kəmiyyət və keyfiyyət məsələsi nəzərdə olmaz. Bəzən üşaq vaxtı görülən bir iş bütün ömür boyu əzaba düçar edir və bəzən kiçik bir iş xeyir və bərəkət mənbəyinə çevrilir. (Yanlışlıq olmasın, biz kiçik iş dedikdə zaman baxımından nəzərdə tutulur, əks halda əbədi əzaba səbəb olan günahlar keyfiyyət baxımından əsla kiçik deyil.)

Günah, küfr, tüğyan insanın bütün vücudunu əhatə etdikdə, onun qol-qanadını, qəlbini, canını amansızcasına

odda yandırdıqda, o aləmin nemətlərindən məhrum olub əzablara düçar olmaqda təəccüblü heç bir şey yoxdur.

Bir tərəfdən İlahi peyğəmbərlər, bir tərəfdən də insanın öz ağlı ona kifayət qədər məlumat vermişdi. Məgər insan ixtiyarı olmadan bu işləri görüb? O, bu əzabları öz əliylə qazanmamışdırmı? Buna görə də nə şikayətə yer qalır, nə irad etməyə söz, nə də İlahi ədalətə zidd olan bir məqam.

Burada bir məqam qalır ki, onunla da bu bəhsi tamamlayırıq. İmam Sadiqin (ə) bir hədisində oxuyuruq:

"kafirlər ona görə əbədi cəhənnəmdə qalırlar ki, niyyətləri dünyada əbədi qalacaqları halda bu günahı davam etdirmək olub. Cənnət əhli də ona görə nemətlər içində əbədi qalacaqlar ki, məqsədləri bu dünyada əbədi qalacaqları surətdə daim yaxşı əməl edəcəkləri idi. Buna görə də hər iki dəstə öz niyyət məqsədləri əsasında əbədilik tapacaqlar."[1]

İlk baxışdan bu hədisdə bəzi iradlar nəzərə gələ bilər. Çünki günaha təkcə niyyət etmək əzaba layiq olmaq üçün yetərli deyil.

Bundan əlavə günah niyət etmək barədə bəzi rəvayətlərdə deyilir ki, günahı təkcə niyyət etmək günah deyil və əzabı da olmaz. Lakin diqqətlə baxdıqda yuxarıdakı hədisdə incə mənalar görəcəyik ki, bizim keçmiş bəhslərimizə işarə edir. Çünki əbədi günah niyyəti etmək yalnız vücudu günah rəngi almış, hər yerini əhatə etmiş kəslərə aiddir. Daha aydın ifadə ilə desək, bu niyyət təklikdə heç bir əsər qoymaz, "əbədilik" getirən o insanın

---

[1] *Vəsailuş-şiə, cild 1, səhifə 36, hədis 4.*

ruhunun xasiyyətidir ki, daima günah etmək niyyətindədir. günahların əsərindən bu hala gələn kəs Allahdan o qədər uzaqlaşar ki, qayıtmağa yer qalmaz. Bu da onun öz əməllərinin nəticəsindən başqa bir şey deyil.

## Behişt və Cəhənnəm haradadır?

Behişt və Cəhənnəm indi mövcuddurmu? Yoxsa hələ mövcud olmaqdadırlarmı? Əgər mövcuddurlarsa, haradadırlar? Əgər indi deyil, sonradan mövcud olacaqlarsa, onların yeri harada olacaq?

Başqa bir tərəfdən biz bəzi Quran ayələrində oxuyuruq ki, Behiştin yer və göylər qədər sahəsi vardır. Belə olan halda bəs Cəhənnəm üçün yer qalırmı?

Bu, bizim bəhs etdiyimiz mətləblər önündə canlanan suallardır. Lakin onlara cavab verməzdən öncə bir məsələyə diqqət etməliyik ki, Quran ayələrindən və rəvayətlərdən Behişt və Cəhənnəm barədə gələn ifadələr üç müxtəlif mənada işlənmişdir:

1.Dünya behişti;

2.Bərzəx behişti;

3.Başqa bir cahanda olan Bərin və Cənnətul-məva behişti.

Dünya behişti elə bu dünyada olan bağlar və s. ibarətdir. Quranda Səba qövmü barədə oxuyuruq:

Həqiqətən, Səba qövmü üçün onların məskənlərində (Allahın qüdrəti və rəhmətinə dair) bir nişanə var idi. (Orada) sağ və sol tərəfdə iki cənnət (var idi. Onlara

dedik:) «Rəbbinizin ruzisindən yeyin və Ona şükr edin. (Məskəniniz) pak bir şəhərdir və Rəbbiniz də bağışlayan.[1]

Dünya bağlarına "cənnət" kəlməsi ilə işarə etmək təkcə bu ayəyə məxsus deyil, digər ayələrdə də bu kəlməyə eyni mənada rast gəlinir.

Böyük ehtimalla Adəmin (ə) olduğu cənnət də elə həmin bu dünya bağlarından biridir. Onun behiştdən yer üzünə enmə hadisəsi isə bir növ məqam baxımından baş vermişdir.[2] Çünki Adəm (ə) ilk andan etibarən Allahın yer üzündə olan nümayəndəsi seçilmişdi. Bu, maddi baxımdan. Mənəvi baxımdan da elm və biliyin məqamı cənnət bağlarından bir bağ kimi adlandırılmışdır.

Bərzəx behişti yaxşı və pis əməl sahibləri üçün hazırlanmış nemət, ya əzabdan ibarət bir yerdir ki, dünya ilə axirətin arasında qərar tutub. Allah yolunda şəhid olanlar barədə oxuyuruq ki, "onlar diridirlər və Allah yanında nemətlərdən istifadə edirlər."[3] Yaxud şəhid öldürülərkən yerə düşdükdə sanki cənnətin qoynuna düşür.[4] Eləcə də buna bənzər ifadələr vardır ki, bəzi insanlar öldükdə sanki cənnətin qoynuna düşürlər.[5] Həmçinin ayə və rəvayətlərdə ölümdən sonra, məaddan əvvəl günahkarların qərarlaşdıqları yer bərzəx cəhənnəmi adı ilə tanınır.

---

[1] *Səba surəsi, 15.*

[2] *Geniş məlumat üçün "Nümunə" təfsirinin 1-ci cildinə müraciət edin.*

[3] *Ali-İmran surəsi, 169.*

[4] *Məcməul-bəyan təfsiri, cild 2, səhifə 538.*

[5] *Həmin mənbə.*

Bəzən "Cənnətul-məva", ya "Cənnətu-ədn" adlanan, eləcə də cəhənnəmə aid edilən "Əbədi od" adıyla tanınan məaddan sonrakı cənnət və cəhənnəm isə qiyamətdən sonra rəhmət, ya əzabdan ibarət olan və bu cahandan daha böyük olan bir yerdir.

Dediklərimizə baxmayaraq bəzən bu üç mərhələli mənanın arasında anlaşılmazlıq meydana gətirilir ki, bu da yanlış nəticələr çıxarmağa yol açır. Ona görə də bu məsələdə diqqətli olmaq lazımdır.

İndi məsələnin əslinə qayıdaq. Birinci sual bu idi ki, məaddan sonrakı cənnət və cəhənnəm indi mövcuddurmu?

Şiə və sünni olmasından asılı olmayaraq məşhur islam alimlərindən bir dəstəsi, məsələn, Seyyid mürtəza və qardaşı Seyyid Rəzi, həmçinin əqaid alimlərindən olan Əbdul-cəbbar və Əbu Haşimin əqidəsinə görə həmin cənnət və cəhənnəm indi mövcud deyil, sonradan yaranacaq. Lakin əksər alimlər onların indi də mövcud olduğunu deyirlər. İslam mənbələrində buna aid dəlillər də mövcuddur. O cümlədən:

1. Şübhəsiz, (onun Peyğəmbəri özü ilə yuxarı apardığı) digər bir nazilolmada onu (öz gözü ilə əsl qiyafəsində, Allahı isə qəlbinin gözü ilə) görmüşdü. Sidrətul-müntəhanın (göylərin sərhədlərinin axırı və bəndələrin əməllərinin qalxıb-enmə yerinin sonunda yerləşən sidr ağacının) yanında. (Məhşərdə hesab

qurtardıqdan sonra möminlərin) məskunlaşma yeri olan axirət Cənnəti onun yanındadır.[1]

İslam Peyğəmbərinin (s) meracından danışan bu ayə Cənnətin indi də mövcud olduğunu göstərir.

2. Şübhəsiz, Cəhənnəm kafirləri əhatə etmişdir.[2]

Quranın iki ayəsində işlənən bu ifadə Cəhənnəmin hal-hazırda kafirləri əhatə etdiyini bildirir. "Cəhənnəm" kəlməsi adətən məaddan sonrakı cəhənnəmə şamil edilir.

3. "Müttəqilər üçün hazır olan cənnət"

"Kafirlər üçün hazır olan cəhənnəm"

Bu barədə ayələr çoxdur.[3]

Bəzi Quran ayələrində cənnətin böyüklüyünün yer və göylər qədər olduğu bildirilir:

"Rəbbinizin məğfirətinə və genişliyi göylərlə yer üzü qədər olan, müttəqilər üçün hazırlanmış Cənnətə tələsin."[4]

Başqa bir ayədə oxuyuruq:

"Rəbbiniz tərəfindən bağışlanmağa və genişliyi (eni) yerlə göyün genişliyi qədər olan, Allaha və Onun peyğəmbərlərinə iman gətirənlərdən ötrü hazırlanmış Cənnətə nail olmaq üçün (yaxşı əməllər etməkdə) bir-birinizi ötüb keçməyə çalışın. Bu, Allahın dilədiyi kimsəyə əta etdiyi lütfdür (mərhəmətdir)."[5]

(Məlumdur ki, bu iki ayədəki "ərz" (en) sözü həndəsi enlik mənasında deyil, genişlik mənasındadır.)

---

[1] *Nəcm surəsi, 13-15.*

[2] *Tövbə surəsi, 49. Ənkəbut surəsi, 54.*

[3] *Ali-İmran surəsi, 131, 133. Bəqərə surəsi, 24.*

[4] *Ali-İmran surəsi, 133.*

[5] *Hədid surəsi, 21.*

İndi belə bir sual meydana çıxır: bir tərəfdən Quran ayələrinin zahiri bildirir ki, cənnət və cəhənnəm indi mövcuddur, digər tərəfdən onun yer və göylər genişliyində olduğu deyilir. Bəs bu böyük ərazi hardadır? Bundan əlavə, əgər cənnət bu qədər genişdirsə, o zaman cəhənnəm üçün yer qalmır.

Buradan belə bir fikir yaranır ki, bəlkə bu ikisi yerin altındadır? Biz bu gün yerin bətnini tanımırıq. O gün bu ayənin dediyi kimi hər şey aşkar olacaq: "Həqiqətən sən bundan (bu gündən) qafil idin. Biz pərdəni (qəflət pərdəsini) sən(in təfəkkürünün önün)dən kənara çəkdik. Odur ki, bu gün gözün iti görür."[1] Hər kəs öz istedadı ölçüsündə öz payını alır və öz yerini tapır.

Ola bilər bu söz bəzilərinin zehninə uzaq gəlsin. Lakin bir misalla bu uzaqlığı aradan aparmaq istəyirik. Bilirik ki, biz bu dünyanın bütün səs dalğalarını eşitmirik. Başqa bir tərəfdən bunu da bilirik ki, dünyanın radio dalğaları gecə-gündüz bütün dünyaya radio siqnalları ötürürlər və bu siqnalları qəbuledici olmadan eşitmək mümkün deyil. İndi iki belə ötürücü fərz edin. Birində həzin səslə insanı valeh edən, rahatlıq bəxş edən Quran oxunur. Digərində isə insana əziyyət verən eybəcər səslər çıxır. Bu iki səsin hər ikisi dünyanın dalğıları arasında cərəyan edir və hər yeri əhatə edir. Lakin adi qaydada biz bu səslərdən heç birini eşitmirik. Belə olan surətdə əgər biz yalnız bir dalğa qəbul edən bir qəbulediciyə sahib olsaq və bu bir dalğa da həmin Quran səsi olsa, həmişə rahatlıq içində olarıq və bu

---

[1] *Qaf surəsi, 22.*

səsdən mənəvi ləzzət alarıq. Amma vay halımıza, əgər o biri səsi qəbul etsək və buna məcbur olsaq, görün günümüz necə əziyyət və narahatçılıqla keçər.

İndi diqqət edək. Mümkün deyilmi ki, bu cahanın elə bir nöqtəsində olsun ki, bizim onu hiss etməyə imkanımız olmasın? Məgər "cəhənnəm kafirləri əhatə etmişdir" ayəsi bu dediklərimizə tətbiq olunmurmu? Cənnətin yerin və göylərin genişliyi qədər olduğunu deyən ayələr bu məna ilə daha da anlaşıqlı olmazmı?

"Bu yerin başqa bir yerə çevriləcəyi (dağların məhv olacağı, dəryaların buxarlanacağı və yer üzünün tamamilə düz olacağı) və həmçinin göylərin (dəyişəcəyi) və hamının (bütün ölülərin hesab və cəza üçün) hər şeyə qalib tək Allahın hüzurunda zahir olacağı gündə!.."[1] ayəsinin mənası bu yer və göyün bir gün dağılacağına və məadın bərpa olacağına dəlil deyilmi?

Düzdür bu məsələni həzm etmək, digər məad məsələləri kimi çətindir, lakin yuxarıda deyilən müqəddimələrə əsasən buna ehtimal vermək mümkündür. Bunu da demək lazımdır ki, bundan başqa da ehtimallar vardır, amma mətləbin uzanmaması üçün onları qeyd etmirik.

## Qiyamətin əlamət və nişanələri

Quran surələrindən çoxu Məkkədə nazil olmuşdur. Məkkə surələrinin məad barəsində çoxlu xatırlamaları vardır ki, onlardan bir qismi də məadın əlamət və nişanələridir.

---

[1] *İbrahim surəsi, 48.*

Dərdsiz, məsuliyyətdən xəbərsiz, yaradılış hədəfindən uzaq, azğın halda həyatını sürdürən insan bu yuxudan ayılmaq üçün ciddi xəbərdarlıq olunmalı olduğu halda onu gələcəkdə nə gözləməsini xəbər verməkdən daha yaxşı bir vasitrə tapmaq olmaz. Məadın əlamət və nişanələri barədə nazil olmuş bir çox ayələrdə bildirilir ki, Qiyamət sakit və sadə formada deyil, əksinə bütün dünyanı sarsıdacaq böyük bir çaxnaşma yaradacaq, kainatın nizamını pozacaq bir tərzdə baş verəcək.

Əlbəttə, ağlımız da bunu deyir: Yeni bir nizam və həyat üçün yeni bir dünya lazımdır ki, bu da böyük bir çevriliş olmadan mümkün deyil.

İndi bu barədə nazil olan bəzi ayələrə baxaq:

### 1. Böyük zəlzələ

"Ey insanlar, öz Rəbbinizdən qorxun! Həqiqətən qiyamətin (Surun birinci dəfə çalınmasından qabaq baş verəcək) zəlzələsi çox böyük bir şeydir. Onu gördüyünüz gün, (şahid olacaqsınız ki,) hər bir əmzikli qadın körpəsinə süd verməyi unudacaq və hər bir hamilə qadın öz (bətnindəki) yükünü yerə qoyacaqdır. Və (həmin gün) insanları sərxoş görərsən, amma onlar sərxoş deyildirlər, lakin Allahın əzabı şiddətlidir."[1]

Sözsüz ki, bu zəlzələ Qiyamətin astanasında baş verəcək, nəinki həmin gün. Çünki həmin nə hamilə qadın olacaq, nə də süd verən. Hər bir halda bu zəlzələ bütün dünyanı əhatə edəcək böyük bir hadisə olacaq. Bundan sonra dağılmış viranələr üstündə yeni dünya yaranacaq.

---

[1] *Həcc surəsi, 1-2.*

## 2. Günəşin və Ayın tutulması

"Günəş sarınacağı zaman (sanki sönüb hərarətsiz olması üçün onun ətrafına bir şey bükülər),

ulduzlar qaralıb (yerə) töküləcəyi zaman,

dağlar hərəkətə gətiriləcəyi (parça – parça olub dağılacağı) zaman,

(O dövrdə ən dəyərli mal-dövlət hesab edilən) boğaz (on aylıq hamilə) dəvələr başlı – başına buraxılıb sahibsiz qalacağı zaman,

bütün vəhşi heyvanların (bir yerə) toplanacağı (öz ölüm yerlərindən çıxacaqları) zaman,

dənizlərin dolacağı və qaynayacağı zaman,

(Bərzəx) ruhlar(ı Məhşərdəki yeni bədənlərlə, yaxşılar yaxşılarla və pislər də pislərlə, Cənnət kişiləri öz zövcələrinə) qovuşacağı zaman,

diri ikən torpağa gömülmüş hər bir adam (cahiliyyət dövründə diri-diri basdırılmış qızlar, tarix boyunca diri-diri basdırılmış insanlar və günahsız ikən zindanda ölənlər) barəsində soruşulacağı zaman «Hansı günaha görə öldürüldülər?» (Onların qatillərindən: «Bunlar hansı günaha görə öldürüldülər?»- deyə soruşular),

əməl dəftərləri (Haqq-taala tərəfindən məhşər əhli arasında) yayılacağı və hər bir şəxsin əməl səhifəsi (onun öz qarşısında) açılacağı zaman,

göy (əhatə etdiyi hər bir şeyin üzərindən) götürüldüyü zaman,

Cəhənnəm alovlandırılıb şöləlləndiyi zaman,

Cənnət (təqvalılar üçün) yaxınlaşdırıldığı zaman

Hər kəs (dünyada bugünkü günə özü üçün yaxşı, pis) nə hazır etdiyini biləcəkdir."[1]

Həqiqətdə bu ümumi inqilab bütün insanları, heyvanları, dağları, dənizləri, yer və göyləri əhatə edəcək və hamı bu böyük hadisədə iştirak edəcək.

Diqqət edin, yuxarıdakı ayələrdə Qiyamətin müqəddimə və əlamətlərinə, həmçinin bu hadisənin özünün xüsusiyyətlərinə işarə edilmiş və çox maraqlı şəkildə ifadə edilmişdir.

### 3. Hər şeyin dağılacağı gün

"(Qulaqları və ürəkləri) döyəcləyən (və Allah düşmənlərini əzən o dəhşətli) hadisə. Nədir o döyəcləyən və əzən (dəhşətli) hadisə?! Və sən nə bilirsən ki, o döyəcləyən (dəhşətli) hadisə nədir? (O hadisə Qiyamətin qopmasıdır). O gün insanlar kəpənək kimi (ətrafa) səpələnər. Dağlar didilmiş rəngarəng yun kimi havada parça-parça olacaqdır."[2]

Həqiqətən o günün zəlzələsi, titrəyişi və zərbəsi elə şiddətli olacaq ki, hər şeyi vurub dağıdacaq və nəticədə Qiyamət bərpa olacaq.

Bu ayələrdə sərgərdan qalmış insanların halı təsəvvür olunur. İlk zərbədən elə həyəcanlanacaqlar ki, özlərini bir-birinin ardınca şamın oduna vuran və yanıb məhv olan pərvanələr kimi bir-birinə dəyəcəklər.

Bəziləri məşhur fikrin əksinə olaraq (bu, pərvanənin eşq üzündən özünü şamın oduna vurması fikridir) belə

---

[1] *Təkvir surəsi, 1-14.*

[2] *Qariə surəsi, 1-5.*

düşünür ki, pərvanə heç də eşq yolunda özünü şama qurban vermir, əksinə o, unutqanlığının qurbanı olur. Çünki onun hafizəsi o qədər zəifdir ki, şama yaxınlaşdıqda onun hərarətini hiss edib geri çəkilsə də, bir an sonra yenidən özünü ona yaxınlaşdırır və bu işi o qədər təkrarlayır ki, nəticədə unutqanlığının qurbanı olub şamın odunda yanıb külə dönür.

Yuxarıdakı ayələrdə insanların pərvanələrə bənzədilməsi ola bildin ki, hadisənin əzəmətini göstərirş belə ki, bu hadisə insanın ağlını başdan alır, hafizəsini tamamilə itirir.

Bu deyilənlər Qiyamətin əlamətləri idi ki, hər biri ayrı-ayrılıqda o aləmin yaşadığımız bu dünya ilə fövqəladə fərqli olduğunu bildirir.

Bu bəhslə də ölümdən sonrakı həyat və məad barədə olan söhbətimizi başa vururuq. Düzdür bu barədə hələ deyilməmiş çox məsələlər vardır ki, ixtisara görə onları qeyd etmədik. Həmçinin bu dünya ilə o aləm arasındakı bərzəx aləmi barəsində kifayət qədər bəhs olunmalı məsələlər vardır ki, onlar üçün əlavə kitab yazılmalıdır.

*İlahi, bizə belə bir həyat üçün özümüzü düzəltməyə güc ver!*

*İlahi, bizə öz yanında əbədi həyata layiq olmaq nəsib et!*

*İlahi, Sənin pak dininə və bəndələrinə xidmət etməkdə, ömür səhifələrimizi Sənin razılığın olan istiqamətlərdə sərf etməkdə kömək ol və sonda Sənin yolunda şəhid olmağı və Sənin rəhmətinə qovuşmağı bizə qismət et!*

# MÜNDƏRİCAT


Müqəddimə ........ 5
Məbdə və məada inam ........ 5
**Ölümdən sonrakıaləm barədə nə bilirik? ........ 7**
1. Kitabın bəhs edəcəyi məsələlərə baxış ........ 7
2. Yazarın böyük günahı ........ 9
3. Tarixdə qalmaq istəyi ........ 11
**Ölüm həyatın sonudur, yoxsa yeni həyatın başlanğici? 13**
Ölüm çox da qorxulu deyil ........ 14
Ölüm anında insan nə hiss edir? ........ 15
Reallıqlardan qaçmaq aqilanə deyil ........ 16
İnsan taleyinin iki müxtəlif mənzərəsi ........ 17
Ölümdən niyə qorxuruq? ........ 18
Bu qorxunun mənbəyi nədir? ........ 20
Ölümdən qorxmanın başqa bir səbəbi ........ 23
**Fitrətin dərinliklərində məada inamin kökləri ........ 24**
İnhiraflar ........ 29
Fitrətdən dönüş və azğınlıq ........ 30
Təəssüf doğuran məzhəkəli xurafatlar ........ 32
O aləmə açılan qapılar ........ 34
Məad bu həyata anlam verir ........ 39
Tərbiyəyə təsir edən bir amil ........ 44
Məad sizin daxilinizdədir ........ 50
Müəmmalara cavab ........ 55
Bir cücənin nəzərində olan aləm ........ 55
Yaşadığımız bu aləmin mənzərəsi ondan sonra gələcək aləmin müqabilində belə olacağını nə bilmək olar? ........ 58

**Səmavi kitablarda məad** ........ **60**
Səmavi kitab əvəzinə tarixi kitab ........ 61
Məad İncildə ........ 64
Quran və ölümdən sonrakı aləm ........ 66
İlk hidayət ........ 66
Birinci yol: İlkin yaradılışı xatırlatmaq ........ 67
Məadı dəfələrlə görmüşük ........ 69
İkinci yol ........ 69
Mühüm bir irada cavab ........ 73
**Məad və enerjilərin dönüşü** ........ **75**
Üçüncü yol ........ 75
Odun istiliyi günəşdəndir ........ 77
Enerjilərin dönüşü ........ 79
İki maraqlı məqam ........ 81
**Məad niyə mümkün olmasın?** ........ **83**
Dördüncü yol ........ 83
Ufsus şəhərinin yatmışları ........ 87
Beşinci yol ........ 87
Əfsanə, yoxsa həqiqət? ........ 91
Qış yuxusu ........ 92
Mürtazların (yoqaların) dəfni ........ 93
Ana bətnində ........ 94
Altıncı yol ........ 94
**Fİtrətdə məad** ........ **96**
1. Fitrət – yolun ilk bələdçisi ........ 96
2.Əbədilik eşqi ........ 97
3. Keçmiş qövmlərin arasında məad ........ 98
4. Kiçik və böyük məad ........ 99
**Məadın əqli dəlilləri** ........ **102**

Birinci dəlil. Ümumi ədalət göstərişi ............................ 102
Xüsusi məhkəmələr ................................................ 103
Varlıq aləminin ədalət qanunu ................................ 104
İnsan istisnadırmı? ................................................ 105
İkinci dəlil. Yaradılış fəlsəfəsi ...................................... 105
Üçüncü dəlil. Ölüm sondursa, yaradılış mənasızdır .. 107
Dördüncü dəlil. Ruhun qalması .................................. 109
Ruhun müstəqilliyi ................................................ 111
Ruhun müstəqilliyinin dəlilləri ............................... 113
Kənar aləmdən agahlıq ........................................... 113
Şəxsiyyətin vəhdəti ................................................ 114
Quranda ruhun qalması .......................................... 115
**Cismani və ruhani məad ................................................ 117**
Birinci nəzəriyyə: Ruhani məad ..................................... 117
İkinci nəzəriyyə: İki yönlü məad .................................... 118
Üçüncü nəzəriyyə: Ruhani və yarı cismani məad ....... 118
Dördüncü nəzəriyyə: Yalnız cismani məad ................ 118
Məadın keyfiyyəti barədə İslamın məntiqi ................. 119
Ağıl tərəzisində cismani məad ...................................... 121
Bu iradların hər biri ayrı-ayrılıqda araşdırılmalıdır. .. 123
1. Yeyən-yeyilən barədə olan irad ............................ 123
Araşdırma və cavab .............................................. 124
Daha aydın yol ...................................................... 126
Sual ........................................................................ 131
Cavab ..................................................................... 131
2. Yerdəki maddələrin azlığı ........................................ 132
3. Məad hansı bədənlə baş verəcək? .......................... 134
Cavab ..................................................................... 134
4. Qiyamət harada olacaq? ........................................ 135

Cavab ............ 136
**Böyük hesab gününün şahidləri ............ 137**
a) Məadın şahidləri ............ 138
Şəhadətin keyfiyyəti ............ 140
b) Hesab və kitab ............ 141
c) Əməllərin çəkilməsi ............ 142
**Mükafat və cəza ............ 145**
**Əməllərin təcəssümü ............ 148**
Əməllərin təcəssümü mümkündürmü? ............ 150
**Cənnət və cəhənnəm ............ 153**
Əbədilik məsələsi ............ 155
Mühüm bir sual ............ 157
Qaneedici olmayan cavablar ............ 157
İradın həlli ............ 158
Behişt və Cəhənnəm haradadır? ............ 162
Qiyamətin əlamət və nişanələri ............ 167
1. Böyük zəlzələ ............ 168
2. Günəşin və Ayın tutulması ............ 169
3. Hər şeyin dağılacağı gün ............ 170
**Mündəricat ............ 173**